AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

Şərqşünaslıq fakültəsi



Ümummilli lider Heydər Əliyevin
anadan olmasının 99-cu ildönümünə həsr olunmuş
gənc alim və magistrantların

“ŞƏRQ FİLOLOGİYASI MƏSƏLƏLƏRİ”
mövzusunda

Respublika elmi konfransının

MATERİALLARI

Bakı, 24 may 2022-ci il

BAKI - 2022

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

Şərqşünaslıq fakültəsi

Ümummilli lider Heydər Əliyevin
anadan olmasının 99-cu ildönümünə
həsr olunmuş
gənc alim və magistrantların

“ŞƏRQ FİLOLOGİYASI MƏSƏLƏLƏRİ”

mövzusunda

Respublika elmi konfransının

MATERİALLARI

Bakı, 24 may 2022-ci il

Bakı-2022

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş gənc alim və magistrantların "Şərq filologiyası məsələləri" mövzusunda respublika elmi konfransının materialları. Bakı, 24 may 2022-ci il. Bakı: BDU, 2020,76 səh.

©Bakı Dövlət Universiteti, 2022

TƏŞKİLAT KOMİTƏSİ

Sədr:

Aydan Xəndan	Şərqşünaslıq fakültəsinin dekanı

Sədr müavini:

Nigar İsmayılzadə	Şərqşünaslıq fakültəsinin elmi işlər üzrə dekan müavini

Üzvlər:

Tərlan Məlikov	Şərqşünaslıq fakültəsinin Tədris işləri üzrə dekan müavini
Şahin Yusifli	Şərqşünaslıq fakültəsinin Sosial məsələlər və Tələbələrlə iş üzrə dekan müavini
Bənövşə Hacıyeva	Türk filologiyası kafedrasının dosenti
Nurlanə Mustafayeva (Qasımlı)	Türk filologiyası kafedrasının dosenti
Eldost İbrahimov	İran filologiyası kafedrasının müəllimi
Familə Nəcəfova	İran filologiyası kafedrasının müəllimi

PROQRAM KOMİTƏSİ

Sədr:

Rafael Hüseynov	İran filologiyası kafedrasının professoru

Üzvlər:

Mehdi Kazımov	İran filologiyası kafedrasının müdiri
Rüfət Rüstəmov	Türk filologiyası kafedrasının müdiri
Vüqar Qaradağlı	Ərəb filologiyası kafedrasının müdiri
Oqtay Cəlilbəyli	Uzaq Şərq dilləri və ədəbiyyatı kafedrasının müdiri
Aida Qasımova	Ərəb filologiyası kafedrasının professoru
Anar Kərimov	İran filologiyası kafedrasının professoru
Jalə Əliyeva	Türk filologiyası kafedrasının professoru
Nəsrulla Məmmədov	Ərəb filologiyası kafedrasının professoru
Kəmalə Əhmədova	Turk filologiyası kafedrasının dosenti
Aytən ibrahimova	Türk filologiyası kafedrasının dosenti
Bilqeyis Quliyeva	İran filologiyası kafedrasının dosenti
Cəmilə Rüstəmova	Türk filologiyası kafedrasının dosenti
Əsmətxanım Məmmədova	İran filologiyası kafedrasının dosenti
Təranə Hüseynbalayeva	Ərəb filologiyası kafedrasının dosenti

FARS DİLLİ KLASSİK POEZİYADA İŞLƏNƏN OYUN ADLARI İLƏ BAĞLI TƏDQİQATLAR

Şahin Yusifli
İran filologiyası kafedrasının müəllimi

Klassik fars dilinə dair tədqiqatlar, leksikoqrafiya sahəsində aparılmış işlər, mövcud olan lüğətlər oyun adlarının hansı bədii əsərlərdə, kimlər tərəfindən işlədilməsini, onların ad və atributlarının ilk dəfə hansı lüğətlərdə kimə və hansı əsərə, əsər daxilində isə hansı beytlərə istinad etdiyini nisbətən də olsa bizə nümayiş etdirir. Lakin bu mənbələrin istinad etdiyi əsərlərdən də əvvəl oyun adları və onların atributları ilə bağlı elmə məlum olan digər mənbələr mövcud olmuşdur. Birinci, oyun adları və atributlarının istifadə olunduğu əsərlər, ikinci isə oyunlara, onların daxili strukturuna və tarixinə həsr olunmuş elmi traktatlar.

Ən qədim əsərlərə, təzkərələrə və dastanlara inam gətirsək, "şahmat"ın Hindistandan İran coğrafi məkanına yol tapdığını qəbul etməliyik. Bundan sonra oyunun adının və ya atributlarının ilk dəfə harada və kimin əsərində xatırlanmasının müəyyənləşdirilməsi mühüm məsələ hesab oluna bilər. Bunun üçün ilkin axtaracağımız qaynaqlar arasında orta fars dilində olan məxəzlərlə yanaşı, sanskrit dilində olan mətnlər də mövcud olmuşdur.

Tarixi həqiqətə əsasən şahmat barəsində İranda əldə olan ən qədim mənbə "گزارش شطرنج و نرد" (Şahmat və nərd haqqında məlumat) və ya "ماتیکان چترنگ (شترنگ)" adlanır. Bu birləşmə orta fars dilindən müasir fars dilinə "Şahmat kitabı" və "Şahmatnamə" kimi tərcümə oluna bilər. Kitab Sasanilər dövründə pəhləvi dilində (orta fars dilində) yazılmış, Ənuşirəvan Xosrovun dövründən nəql edilmişdir. Lakin kitabın qələmə alınmasının Ənuşirəvandan nə qədər müddət sonra həyata keçirildiyi məlum deyil. Bu kitabda ilk dəfə şahmatın Hindistandan İrana göndərilməsi, onun sirrinin cavan vəzir Bozorgmehr (Buzərcmehr) tərəfindən açılması, ona cavab olaraq nərdin kəşfi haqqında məlumat verilmişdir. Xronologiyaya əsasən baş vermiş hadisələrin 531-579-cu illərdə, Ənişirəvan dövründə olduğunu güman etmək olar. Kitabın yazılması isə VI əsrə aid edilir.

Qeyd etmək lazımdır ki, risalə və monoqrafiyalardan başqa şahmatın adı lüğətlərdə də müşayiət olunur. "Borhan-e Qate", "Anəndrac", Əsədi Tusinin "Lüğət-e fors", Rampurinin "Qiyas Əl-Loğət", Amolinin "Nəfayes Əl-fonun" , Hindişah Naxçıvaninin "Sihah Əl-fors", Dehxodanın "Lüğətnamə", Moin, Əmid və Sədri Əfşarın, Laletik Çəndbaharın "Bəhar-e əcəm", Həsən Ənuşenin "Fərhəngname-ye ədəbi-ye farsi" adlı lüğətlərində oyunun adı, atributları, terminləri barədə məlumatlar verilmiş, qeyri-müəyyən oyun leksikası şairlərin yaradıcılıqlarına istinad olunmaqla aydınlaşdırılmışdır.

Klassik farsdilli ədəbiyyatda öz işlənmə tezliyinə və linqvopoetik xüsusiyyətlərinin genişliyinə görə seçilən digər bir oyun "nərd" oyunu hesab

olunur. Nərd oyunu həyatda “fəaliyyət” və “qismət”in simvolu hesab olunur. Ona görə də bir çox arif və şairlər nərd və şahmat kimi oyunları digər elmlərdən əvvəl öyrənmiş, oyunlardan çıxan nəticələri onların leksik imkanlarının köməyi ilə müxtəlif məzmunların ifadəsində istifadə etmişlər.

Nərd barəsində ən qədim mənbələrdən biri Firdovsinin “Şahnamə”sidir. Əsərdə Ənuşirəvana aid olan hissədə hind şahı Rayın şahmatı ona bir müəamma kimi göndərdiyi hekayədə nərd haqqında ilkin məlumatlar verilmişdir.

Şahnamədə “şahmat və nərd” dastanı 167 beytdən ibarətdir. Firdovsi bu hissədə şahmatın sirrinin Bozorgmehr tərəfindən açılmasından sonra, iranlıların ağlının hindlilər üzərində qələbəsini sübuta yetirmək üçün dastanı davam etdirir. Nərdin kəşfi məsələsini bu dastanın davamına qoşur. Burada nərd kəşf edildikdən sonra, Bozorgmehr iki min dəvəlik yüklə Hindistana yollanır. Dastana əsasən Ənuşirəvan hind padşahına bildirir ki, “əgər oyunun sirrini açsanız, bu hədiyyələr sizin, əgər açılmasa bir bu qədər hədiyyələri siz bizə göndərəcəksiniz”. Firdovsi bildirir ki, doqquz gün ərzində Hindistanda oyunun sirri açılmır. Hind padşahı Ənüşirəvana dəyərli hədiyyələr göndərir.

Digər bir klassik oyun çövkən hesab olunur. Atın ilk əhilləşdirilən heyvan olduğunu əsaslansaq, “çövkən”nin ən qədim oyunlardan biri olduğunu deyə bilərik. Bu oyunun yaradılması və yaranma səbəbi tam dəqiq deyil. İran coğrafi məkanında yaranan oyunun hansı millətə aid olması hələ də dəqiqləşdirilməmişdir. Bəziləri bu oyunu Azərbaycan xalqının, bəziləri isə İran coğrafi məkanda yaşayan xalqların müştərək mədəniyyəti ilə əlaqələndirir. Tarixi əfsanəyə görə İsgəndər İrana hücum etmək istəyərkən Əhəməni hökmüdarı Dariuş ondan cahangirliyi buraxmasını istəmiş, əvəzində isə oynamaq üçün “Top və çövkən”i göndərmişdi.

Leksemin etimologiyasına diqqət yetirək. “چوگان” leksemi pəhləvi dilində olan “چوپیکان” sözündən götürülmüş, “چوپ” və nisbət prefiksi “گان” hissəciyinin birləşməsindən yaranmışdır. “Qiyas Əl-Loğət” və “Anəndrac” lüğətlərində “چوگان” sözü “چولگان” sözünün müxəffəfi kimi təqdim edilir. Bu zaman leksemin “چول” / “چوله” (əyilmiş və ya əyri) və “گان” hissələrindən ibarət olduğunu görürük.

Ümumilikdə oyunun tarixi, strukturu və atributlarının öyrənilməsi baxımından Cəfər Səccadinin “فرهنگ اصطلاحات و تعبیرات عرفانی”, Ziyaəddin Səccadinin “فرهنگ لغات دیوان خاقانی”, Nizami Əruzinin “چهار مقاله” təzkərəsi, həmçinin yuxarıda qeyd etdiyimiz, tədqiqat işi boyu şahmat və nərd oyununun izlənilməsi üçün istifadə etdiyimiz lüğətlər xüsusi əhəmiyyət kəsb edir.

URDU DİLİNDƏ ŞƏXS ANLAYIŞI İFADƏ EDƏN FARS MƏNŞƏLİ SÖZLƏRİN TEMATİK TƏSNİFATI

Eldost İbrahimov
İran filologiyası kafedrasının müəllimi

Urdu dilinin lüğət tərkibinin zənginləşməsi prosesi Hind yarımadası xalqlarının intensiv dövlət, iqtisadi, sosial, mədəni, elmi inkişafı və Moğol imperiyasının yaranması ilə sıx bağlı olmuşdur. Bu dövrdə Hind yarımadasının sosial, siyasi və mədəni həyatının müxtəlif sferaları ilə bağlı bir çox yeni anlayış və hadisələrə ehtiyac vardı. Moğol imperiyası dövründə fars dilinin hakim mövqeyə malik olması urdu dilində də məhz fars mənşəli sözlərin müəyyən tematik söz qruplarının formalaşmasına zəmin yaratmışdır.

Urdu dilində işlənən fars mənşəli sözlər özünün güclü leksik payı və ifadəliliyi ilə diqqəti cəlb edir. Fars mənşəli sözlər urdu dilində öz mövqeyini o dərəcədə möhkəmləndirmişdir ki, urdu dilinin təbii leksik vahidlərinə çevrilmişdir.

Urdu dilində olan fars mənşəli sözlərin tematik təsnifatına nəzər saldıqda, bu sözlərin əksəriyyətinin isim və sifət olduğunu görə bilərik. Urdu dilinin leksikasında işlənən fars mənşəli alınma sözlərin əksəriyyəti konkret anlayış və məfhumları ifadə edən təkmənalı leksik vahidlərdir.

Urdu dilindəki fars mənşəli leksik vahidlərin təsnif olunduğu tematik qruplardan biri də şəxs anlayışı ifadə edən sözlərdir. Bu semantik qrupa daxil olan sözləri bir neçə altqrupa ayırmaq olar:

a) **sənət, peşə, ixtisas sahibliyi bildirən sözlər:**

İşləri, fəaliyyətlərinin xarakteri və onlarla əlaqəli hərəkətləri ilə xarakterizə olunan bir şəxs qrupunu meydana gətirən fərziyyələrin mövcudluğu, köçərilərin intensiv dövlət, iqtisadi, sosial, mədəni və elmi inkişafı ilə əlaqədardır. Yerli əhali yeni reallıqlarda ünsiyyət qurmaq üçün sosial münasibətlərin yeni iştirakçılarını irəli sürmək lazım gəlmişdir. Bu qrupa daxil sözlər müəyyən peşə, sənət və ixtisas sahibliyini bildirən konkret isimlərdir. Məsələn, استاد[ustad] – müəllim; زرگر[zarqar] – zərgər; سوداگر [sodaqar] – alverçi; دہگان[dihqān] – kəndli; گواہ[qavah] – şahid; شاگرد[şaqird] – şagird; شیکاری[şīkārī] – ovçu; ماہی گیر[mahīqīr] – balıqçı və s.

b) **adət, xasiyyət, əqidə, mücərrəd mənəvi xüsusiyyətləri bildirən sözlər**:

Bu altqrupa daxil olan sözlər hər hansı bir mənəvi keyfiyyəti, xasiyyəti özündə daimiləşdirmiş, özünə peşə etmiş şəxsləri ifadə edir.

نادان[nadan] – nadan; فداکار[fadakar] – fədakar; دروغ گو[duruğqu] – yalançı; گپ باز[qupbāz] – qeybətcil, boşboğaz

c) şəxsin fiziki, fizioloji və psixi hal və vəziyyətlərini ifadə edən sözlər.

Fiziki, fizioloji və psixi vəziyyətləri ilə səciyyələnən şəxsləri təsvir edən alt qrupun fars dilindən alınma sözlərinin semantik məzmunu təkcə birbaşa işarələrlə deyil, həm də fərdin qiymətləndirmə münasibəti ilə müəyyən edilir. Beləliklə, deyə bilərik ki, bu yarımqrup mənaları müxtəlif ünsiyyət situasiyaları nəticəsində yaranan leksik vahidlərdən ibarətdir.

شادمان[şadman] – şad; تشنا[taşna] – susuz; پشمان[pişman] – peşman; دیوانہ [divana] – dəli, divanə; سرخوش[sarxoş] – sərxoş; مست[mast] – məst; sağlam və s.

Y.A.Rubinchik "Müasir fars ədəbi dilinin qrammatikası" adlı kitabında haqlı olaraq qeyd etmişdir ki, fars dilində ən böyük çətinliklər ad qruplu nitq hissələri arasında sərhədləri müəyyən edərkən meydana çıxır. Fars adları (daha çox sadə) cümlədən kənarda tam dəqiqliklə bu və ya digər nitq hissəsinə aid edilə bilməz. Belə ki, onun hər hansı bir şəkli xüsusi ifadə edilmiş əlamətləri yoxdur və çox vaxt həm əlamət, həm də onun daşıyıcısını ifadə edə bilir.

Urdu dilinə gəldikdə, bu alt qrupdakı fars mənşəli alınma sifətlərin əsaslandırılması nəticəsində əmələ gələn isimlər, animasiya əlaməti olaraq önəmli yer tutur.

d) qohum adları və sosial münasibətləri ifadə edən sözlər.

Bu alt qrupa xarakterik qohumluğu və digər insanlarla sosial münasibətləri olan şəxsləri göstərən fars mənşəli sözlər daxildir.

برادر[baradar] – qardaş; دختر[duxtar] – bacı; یار[yar] – dost; دشمن[duşman] – düşmən; دوست[dost] – dost; آشنا[aşna] – tanış; مہمان[mihman] – qonaq; بندہ[banda] – bəndə; خاوند[xavand] – ər; شوہر[şohar] – ər; داماد[damad] – kürəkən; خالہ[xala] – xala; فرزند[farzand] – oğul və s.

İBRİ DİLİNDƏ REDUPLİKASİYA NƏTİCƏSİNDƏ YARANAN DÖRDSAMİTLİ FEİLLƏRİN ƏSAS XÜSUSİYYƏTLƏRİ

Gülər Qasımova
Ərəb filologiyası kafedrasının müəllimi

İbri dilində köklərin ümumi icmalı leksikologiyanın əsas tədqiq obyektləri sırasına daxildir. Qrammatikada köklərin öyrənilməsinin yeganə səbəbi müxlətif tərkibli köklərə aid olan bu və digər sözlərin bir sıra qrammatik xüsusiyyətlərə malik olması ilə izah olunur. Bu nöqteyi-nəzərdən köklər feillərin müxtəlif növlərinə uyğun olaraq bir neçə növə ayrılır. Kökün təşkil olunduğu hərflər ibri dilində "kök samitləri" və ya "kök hərfləri" adlanır. Orta əsr ərəbcə fəaliyyət göstərən yəhudi dilçilərinin əsərlərinə diqqət yetirsək görərik ki, bu əsərlərdə "harfun" ifadəsi "nitq səsləri" və ya "kökü təşkil edən hərf" anlamında işlənir. Bu qrammatiklər nitqin sadə ifadəsi üçün "3 samitdən ibarət olan kök", "4 samitdən ibarət olan kök" ifadələri əvəzinə "üçsamitli kök", "dördsamitli kök" ifadələrindən istifadə edirdilər. Köklərin ümumi miqdarından asılı olaraq bir sıra qruplara ayırmaq mümkündür. Sami dillərində köklər adətən üç samitdən ibarət olur. Lakin bəzən dörd, nadir hallarda isə iki və beş samitə də rast gəlmək olar. Arami və ibri dillərində dördsamitli köklərə daha az rast gəlindiyi halda, ərəb və efiop dillərində çox sayda dördsamitli köklərə rast gəlinir.

Üçsamitli köklər söz və əsasların morfoloji xüsusiyyətlərindən asılı olaraq bir neçə növə malik olduğu halda, dördsamitli köklər bu qaydada təsnif edilmir. Lakin bu kökləri yaranma tarixi və üsuluna görə bir neçə qrupa ayırırlar. Bununla belə, "dördsamitli köklərin yaranması", "dördsamitli köklərin mənşəyi" terminləri dedikdə gerçək genezis başa düşülmür. Məsələn, biz זלזל – [zlzl] kökünün זלל – [zll] kökündən yarandığını deyiriksə, bu o deməkdir ki, verilmiş kök əslində זל – [zayn və lamed] samitlərinin reduplikasıyası nəticəsində yaranmışdır. Qeyd etmək lazımdır ki, üçsamitli köklərdən yaranan dördsamitli köklərlə yanaşı, bəzən bu və digər dördsamitli kökün "qısalaraq" üçsamitli kökə çevrildiyini də müşahidə etmək mümkündür.

Dörd kök samitinə malik feillərin qeydi və onların ətraflı tədqiqi çox maraqlıdır. Burada dilə daxil olan sözlərin əsasi tərkibində tamamilə möhkəmlənə bilməyən və ya dil tərəfindən hələ "seçilməyən" və bu və digər qruplar tərəfindən şəkli dəyişdirilmiş feillər nəzərdə tutulur. Güman olunur ki, bu feillər söz yaradıcılığının dilin sonrakı inkişafında geridə qoyduğu qeyri – mütəşəkkil dövrünün qalıqlarıdır.

Dördsamitli feillər yaranması müxtəlif əsaslarda baş verən assimilyasiya və dissimilyasiya vasitəsilə həyata keçirilir. Dördüncü kök samiti müxtəlif yollarla yarana bilər: a) reduplikasiya nəticəsində; b) müxtəlif əsaslara affikslərin artırılması yolu ilə; c) burun və ya süzgün samitin artırılması yolu ilə; ç) yeni mənanın yaranması üçün bu və digər samitin daha

uzun tələffüzü vasitəsilə; d) sözün fonetik və ya semantik modifikasiyası zamanı sözdə yaranan və digər samitlər kimi salimlik funksiyasına malik olmayanan "boğaz və ya nəfəsli samitin partlayışı" vasitəsilə; e) az salim olan hərflərin daha salim samitlərə çevrilməsi vasitəsilə f) alınma sözləri ibri söz modellərinə yerləşdirmək vasitəsilə və s.

Reduplikasiyadan (təkrarlar) istifadə etməklə ibri dilinin lüğət tərkibi yeni isim, sifət və feillərlə zənginləşdirilir. Qeyd etmək lazımdır ki, sami dillərində bəzən reduplikasiya zamanı samitlərin assimilyasiyası hadisəsi müşahidə olunur. Məsələn, ərəb dilində "kaukab-un" (ulduz) sözü ikinci kök samiti zəif samit olan dördsamitli kökə malikdir. İbri dilində isə כוכב – [koxav] – [ulduz] sözündə "uzun o" səsi zəif samit adlanan "vav" hərfini də ifadə edir. Güman olunur ki, bu sözlərdə çıxış edən saitlər qədim dövrlərdə samit kimi kökə daxil olmuş, dilin sonrakı inkişafında isə tədricən "saitləşmişdir". Və yaxud da müasir ibri dilində istifadə olunan כיכר – [kikkar] – [meydan] sözü כרכר – [karkar] sözündən yaranmış, zaman keçdikcə sait və samit sistemində assimilyasiya baş vermişdir.

İbri dilində iki samitli köklərin təkrarı ilə yaranan dördsamitli feillər pi'el, pu'al və hitpa'el bablarında ifadə olunurlar. Bu, onunla izah olunur ki, qədim dövrlərdə adları qeyd olunan babların ikinci kök samiti qoşa samit kimi tələffüz olunurdu. İbri dilində isə qoşa samitli sözlərə demək olar ki, rast gəlinmir. Hər bir samit səsin hərəkəsi vardır. Zamanla bu hərflərdən biri düşmüş və bu feillər güclü daqeş qazanmışdır. Başqa sözlə desək, məhz bu bablarda sanki dördüncü kök samitinə də "yer ayrılmışdır". Dördüncü kök samiti əlavə olunduqda isə, güclü daqeşə olan tələbat yoxa çıxır. İbri və arami dillərində reduplikasiya nəticəsində yeni dördsamitli feillərin yaranması daha geniş yayılmışdır. Salim samitə malik iki hecanın reduplikasiyası nəticəsində yaranan belə feilləri bəzi qrammatiklər dördsamitli feil kimi qəbul etmir. Onlar bu feilləri hərəkətin intensivliyini bildirən "pilpel" modeli ilə yaranan "ikisamitli feil" hesab edirlər. İbri dilində ג.ל.ל – [qimel, lamed, lamed] əsasından yaranan גלגל-[qalqal] – [çarx, təkər], התגלגל – [hitqalqel] – [diyirlənmək], בזז –[bazaz] – [qarət etmək, soymaq] feilindən yaranan בזבז – [bizbez] – [dağıtmaq, xərcləmək] sözləri reduplikasiya nəticəsində yaranan feillərə nümunədir. Bundan başqa פיטפט – [pitpet] – [çərənləmək], מישמש – [mişmeş] – [əl ilə yoxlamaq], חינחן – [xinxen] – [bəzənmək], התחנחן – [hitxanxen] –[naz etmək] kimi feillər də reduplikasıya nəticəsində yaranmışdır.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, reduplikasiya vasitəsilə yeni əsasların yaranması hadisəsi samişünaslıqda bəzi üçsamitli köklərin ikisamitli köklərdən reduplikasiya yolu ilə yaranmasına işarə edən əsas göstəricilərindən biri kimi qiymətləndirilir.

FARS DİLİNDƏ HECA TİPLƏRİ

İqbal Sadıqlı
BDU-nun əməkdaşı

Nitqin fonetik parçası, sözün hissəsi və fonetik bir vahid olma baxımından hecanın hərtərəfli öyrənilməsi həm nəzəri, həm də əməli əhəmiyyətə malikdir.

Nitqin fonetik parçalarından bəhs edərkən nəzərdən keçirilən cümlələrin ibarə, qitə, heca kimi fonetik parçalara ayrılmasından belə bir nəticə çıxarıla bilər ki, heca fonetik axının kiçik parçası kimi olsa da, bir sıra xüsusiyyətlərinə görə çox mühüm nitq vahididir və nitqin fonetik zəncirində ən çox yer tutan həlqəcikdir. Ümumiləşmiş halda Dəmirçizadə hecaya belə bir tərif verir. Sözün bir sait əsasında formalaşmış parçasına *heca* deyilir.

Dünya dillərinin demək olar ki, hamısında saitlər hecadüzəldən səslərdir. Hecadüzəldən səsin, yəni saitin mövqeyinə və saitlə qovuşan samitlərin yerinə görə hecalar müxtəlif növlərdə olur.

Danışıqda fonemlər birləşərək, hecaları əmələ gətirdiyi kimi, hecalar da öz növbəsində bir araya gələrək sözləri əmələ gətirir. Hecaların tərkibində mütləq bir aparıcı fonem olur. Sözlərin hecalara ayrılması zamanı heca təşkil edən səs tonlu səs olmalıdır.

Fars dilində bu səs demək olar ki həmişə sait fonemdir. Başqa dillərdə bəzən sonor samitlər də bu prosesdə iştirak edə bilir. Qeyd olunur ki, sait fonemin heca üçün əhəmiyyəti elə hecanın özünün mövcudluğu qədərdir və onunla müqayisə oluna bilər. Əgər heca daxilindəki sait səs tələffüz olunmazsa, heca da öz mövcudluğunu itirə bilər. Hecaların struktur baxımından yəni, sait səslə başlaması və bitməsindən və ya samit səslə qapanmasından asılı olaraq müxtəlif növlərindən bəhs olunur. Əvvəlki tədqiqatlarda Fars dilində isə əsasən ən işlək aşağıdakı 6 növlərindən bəhs olunmuşdur:

Örtüsüz-açıq
Örtüsüz bir samitlə qapanan
Örtüsüz iki samitlə qapanan
Qapalı-açıq
Qapalı bir samitlə qapanan
Qapalı iki samitlə qapanan

Müasir dövrdə Fars dili fonetikasının ardıcıl tədqiqatçılarından Ə.Məmmədova öz məqalələrində fars dilində heca ilə bağlı əsas olaraq 3 heca modeli üzərində dayanır.

Heca təşkil edən sait səslər aparıcı, mərkəz səslərdir. Samit səslər isə ya mərkəz səsdən əvvəl, ya da sonra gəlir. Fars dilinin bir hecalı sözlərinin hər birində sait səslər istisnasız olaraq iştirak edir. Son dövrlərdə aparılan tədqiqatlarda örtüsüz hecanın qəbul edilmədiyini əsas götürərək aşağıdakı üç əsas heca modelini qeyd edə bilərik:

CV (samit, sait)

CVC (samit, sait, samit)

CVCC (samit, sait, samit, samit)

Fars dilində sait fonemlərin hər biri hecaların tərkibində iştirak edə bilir:

CV heca modelində samit fonemdən sonra sait fonem gəlir və bu sait fonem həmdə hecanın sonunu bildirir.



CVC heca modelində samit səsi sait səs əvəz edir və yenidən samit səslə heca qapanır.



CVCC heca modelində bir samitlə heca başlayır və iki samit səslə qapanır. İlk samit səslə sonrakı iki samit arasında mərkəz sait səs iştirak edir.



Həmçinin, qeyd edə bilərik ki, Fars dilində hecanın yazı ilə əlaqəsi çox aşağı səviyyədədir. Fars dilində heca əsasən şifahin nitqdə təzahür edir və yazı

ilə əlaqəsinin aşağı olmasının əsas səbəbi kimi heca yaratmaq xüsusiyyətinə malik olan sait fonemlərin hamısının hərfi işarəyə malik olmamasıdır. Bu səbəbdən Fars dilində əksər sözləri hecalara bölməklə sətrdən-sətrə ayırmaq mümkün deyildir. Hecalara bölünmə və sətrdən-sətrə bölünməyə imkan verməyən əsas xüsusiyyətlərdən biri də Fars dilin qrafikası ilə əlaqədardır. Fars dilində hərflər sözün əvvəlində, ortasında və sonunda müxtəlif formalarda yazılması hecalara bölünmə məsələsinə təsir edən əsas amillərdəndir.

SƏDİ ŞİRAZİNİN HƏYAT VƏ YARADICILIĞI

Valeh Salmanov
AMEA-nın Şərqşünaslıq İnstitutunun əməkdaşı

Şeyx Əbu Məhəmməd Müslihəddin İbn Abdullah Sədi Şirazi 1209-cu ildə Şirazda doğulub. Orta əsrlər fars ədəbiyyatının, qəzəl janrının ən görkəmli nümayəndələrindən biri olub. Sədi gənc yaşlarında ərəb ədəbiyyatını və İslam biliklərini öyrənmək üçün Bağdada köçür. Dağıdıcı monqol istilalarından sonra, Sədi səfərə çıxmaq qərarına gəlir və ömrünün böyük qismini İraqı, Anadolunu, Suriyanı, Misiri, həmçinin Mərkəzi Asiyanı və Hindistanı gəzməyə, orada yaşayan insanların həyat tərzi ilə tanış olmağa həsr edir. Doğma Şirazına ahıl yaşlarında qayıdır.

Təbrizdə olarkən Sədi o dövrün görkəmli şairlərindən olan Hümam Təbrizi (1238-1314) ilə də görüşmüşdür. Sonra Konyaya getmiş və Mövlana Cəlaləddin Rumi ilə görüşmüşdür. Sonra Sədi Şiraza qayıdır və ömrünün sonuna kimi burada qalır. Sədi ömrünün son illərini "Külliyat"ın tərtibinə həsr etmiş və 1292-ci ildə vəfat edərək, Şiraz kənarındakı dağın ətəyində, sonralar "Sədiyyə" adı ilə məşhurlaşan yerdə dəfn edilir.

XIV əsrin əvvəllərində Əli ibn Əhməd ibn Əbubəkr Bisutun adlı şəxs Sədi irsini tam şəkildə toplayıb sistemləşdirmiş "Külliyyat"ı tərtib edərək ona geniş müqəddimə yazmışdır. O, Sədinin əsərlərini əlifba üsulu ilə düzdüyünü və bir neçə kitaba ayırdığını müqəddimədə qeyd edir. Ə.Bisutunun tərtib etdiyi "Külliyyat" 1791-ci ildə Hindistanın Kəlküttə şəhərində daş basma üsulu ilə nəşr edilmişdir. Sədinin qəsidələri didaktik məzmuna malikdir. Sədinin elə qəsidəsi yoxdu ki, orada şahları, saray xadimlərini ədalətə çağırmasın. Sədinin qəzəllərini Hafiz Şirazi böyük qəzəl ustadı adlandırmışdır. Ə.X.Dəhləvi Sədi Şirazini və Hümam Təbrizini qəzəl ustadı adlandırmışdır. Sədi qəzəllərinin hamısı insanpərvər duyğu ilə yazmışdır və qəzələ nikbin əhval-ruhiyyə gətirmişdir. Sədinin ən böyük xidməti fars ədəbi dilini ərəbizimlərdən, cansız metaforalardan təmizləməsidir. Sədinin məqsədi bütün cəmiyyəti və bəşəriyyəti tərbiyələndirməkdən ibarət idi.

Təsadüfi deyil ki, BMT-nin binasının qabağındakı böyük lövhədə bütün xalqların dilində yazılmış müdrik kəlamlar içində Sədinin bu misraları yazılmışdır:

بنی آدم اعضایی یک دیگرند
که در آفرینش ز یک گوهرند
چو عضوی به درد آورد روزگار
دگر عضوها را نماند قرار

Sədi Şirazinin iki ən məşhur əsəri «Gülüstan» və «Bustan»dır. Hər iki əsər 1654-cü ildə alman dilinə tərcümə edilərək ilk dəfə avropalılara təqdim edilib. Sədinin əsərləri Avropa dillərinə tərcümə edildikdən sonra, bu

ölkələrin bəzi məşhur şairləri əsərlərində Sədinin ifadə və fikrlərindən istifadə edirlər. Misal olaraq Volter, Lafonten, Höte kimi şairləri göstərmək olar.

Ə.Zərrinkub deyir: Sədi Bustanda "dünya necə olmalıdır?" sualına Gülüstanda isə "dünya necədir?" sualına cavab vermişdir. "Bustan" 4200 beytə yaxın, mütəqarib bəhrində, 10 fəsldən ibarətdir, mənzum əsərdir.Hər fəsldə şairin fəlsəfi və ictimayi fikirlərini ifadə edən maraqlı hekayə və nəsihətləri var. Bu əsərdə yazıldığı dövrün bütün məişət məsələləri, cəmiyyətin müxtəlif təbəqələrinin əxlaq qaydaları əks olunur. "Bustan"da göstərilir ki, orta əsrlər İranın da əsas istehsal qüvvələri və zəhmət adamları kəndlilər, sənətkarlar, nökərlər, tacirlərdir. Sədi hekayələrində cəmiyyətin bu qüvvələrini müdafiə edir, hakimlər onlara hörmət və qayğı göstərməyi tələb edir. Sədi pulu keçici və qüdrətsiz hesab edir, sənətkarlığı ondan daha güclü sayır. Sədi ağıllı qadının ailə həyatındakı müsbət roluna böyük qiymət verir. Uşağa faydalı peşə öyrətməyi nəsihət edir. "Bustan"da din və dini mövzuların təbliğinə yer verilməmişdir. Sədinin fikrincə, insan göylərə deyil, öz vicdanina səcdə etməlidir.

"Bustan" azərbaycan dilində 1912-ci ildə təxminən ¼ hissəsi "Mizanül-ədalət" adı ilə şair Mirzə Əbdülvəhab Seyid Zərgar tərəfindən tərcümə edilmişdir. 1958-ci ildə Mir Mehdi Seyidzadə "Bustan"ı daha ətraflı şəkildə dilimizə tərcümə etmişdir.

Sədinin "Gülüstan"ı həm nəsr, həm də nəzmlə yazılmışdır. Bu əsər dil sadəliyi, məzmun dərinliyi, yığcamlıq, əsas məqsədin işıqlandırılması ilə fərqlənir. Burada sadə və bədii ifadələr, təşbih, məcaz, səc, kinayə, istiarədən istifadə edilmişdir. Sədinin "Gülüstan"ı bir çox dillərə tərcümə edilmişdir və bu əsərdən bütün dünyada fars dilini öyrənmək istəyənlər üçün dərs vəsaiti kimi istifadə edilmişdir. "Gülüstan" epik formada təqdim edilmiş əhvalatlardan, lətifələrdən, hikmətli sözlərdən, məsləhətlərdən və qısa şeirlərdən ibarətdir. Faydalı nəsihətlər, zərbi-məsəllər, incə duyğularla zəngin olan bu əsərlər Yaxın və Orta Şərq xalqları arasında xüsusi şöhrətə malikdir. «Gülüstan»ın bir çox şeirləri sonralar zərbi-məsəl kimi dillər əzbəri olub. Tarixdə hələ heç bir kitab bu qədər zərbi-məsələ çevrilməmişdir.

"Bustan" və "Gülüstan" əsərlərinin bir çox nüsxələri Şamaxı, Təbriz, Qarabağ xəttatları tərəfindən üzü köçürülmüş, bəzi beytləri azərbaycan dilinə tərcümə və şərh edilmişdir.

QƏTRAN TƏBRİZİNİN “DİVAN”INDA HƏRBİ TERMİNLƏR

Gövhərxanım Nağıyeva
İran filologiyası kafedrasının doktorantı

Qətran Təbrizinin “Divan”ında işlənmiş hərbi terminlərin araşdırılması XI əsrdə döyüş texnikasının öyrənilməsi baxımından çox maraqlıdır. Bildiyimiz kimi Qətran Təbrizi 30-dan çox Rəvvadi və Şəddadi hökmdarlarına qəsidələr həsr etmişdir. Hökmdara qəsidə həsr olunursa, təbii ki, onun zəfərləri, apardığı döyüşlər, hakimiyyəti altında olan ərazilər haqqında məlumatlar verilir. Hərbi terminlərin çoxluğunun bir səbəbini də bununla əsaslandırmaq olar. Qətran Təbrizinin istifadə etdiyi hərbi terminləri şərti olaraq üç hissəyə bölmüşük: müharibə mənasını ifadə edən terminlər, silah adları, hərbi termin və rütbələr. Əsərdə müharibə mənasını ifadə etmək üçün çoxsaylı sinonimlərdən istifadə olunmuşdur.

ناورد، آشوب، ستیزه، کارزار، مصاف، وغا، حرب، جدال، جدل، رزم، جنگ، معرکه، پیکار
تا تو کمر ببستی پیکار و جنگ را
قیصر همی ببرد زنار خویشتن
Sən döyüş üçün belini bağlayanda
Qeysər öz zünnarını kəsirdi.

Qətran Təbrizinin “Divan”ında işlənmiş silah adları aşağıdakılardan ibarətdir:

külüng)کلنگ(، شمشیر (qılınc)، تیر (ox)، سنان (nizə başlığı)، جوشن (zireh)، نیزه (
)nizə(، زوبین (zubin)، خنجر (xəncər)، پیکان (oxun ucu)، تیردان (oxluq)، خدنگ (ox və
)ox(، سهم (silah) oxatan)، تیرانداز (gürz)، گرز (kaman)، کمان (balta)، تبر (ya nizə ucu
)zireh(زره ( )، زوبین دان (zubin qabı)، پتک (çəkic)، سوفار (oxun kamana qoyulan
)، گرز گاوسر (Yəmən qılıncı)، تیغ یمانی (hind qılıncı)، تیغ هندی (qın)، نیام (tərəfi
)inəkbaşlı gürz(، ناوک (ox)، رمح (nizəتیرافکن( )، oxatan (silah

ز روی و خوی او کردند خوبی و خوشی گوئی
ز تیر و تیغ او کردند تأیید و ظفر مانا
Sanki üzünə və xislətinə yaxşılıq və xoşluq etdilər
Onun ox və qılıncını təsdiq, zəfərini daimi etdilər.

“Divan”da hərb sənəti ilə bağlı olan istlahlar aşağıdakılardan ibarətdir:

)، جنگجو (cənavər)، جنگ آور (ilxı)، خیل (qoşun)، لشگر (piyada)، پیاده (süvariسوار(
)، صلح (qərargah)، مقر (ordugah( )، لشگرگاه (döyüş meydanı)، رزمگه (döyüşçü)
)، سپه (komandan( )، سپهبد (böyük çadır( )، خرگاه (çadır)، خیمه (zəfər)ظفر(
)، خفتان (dəbilqə)، مغفر (qoşun)، سپه (əmir)، امیر (komandanسالار(
)، پیروزی (qalib)، پیروز (Manacanaqdan daş atan kəs)، مجنق (sipər) ، مجن (sipərسپر(
)، فیروزی (qalib)، فیروز (fəth)، فتح (qalib)، چیره (qalib)، پیروزگر (qələbə)
)، خصم (düşmən)، عدو (düşmən)، دشمن (müzəffər)، مظفر (qalibفیروزگر ( )، تیغ زن (qılınc vuran)، نشان (nişan)، یلان (pəhləvan)، سرهنگ (qoşun
komandiri))، هنگ (qvardiya)، زخمی (yaralı)، کمند (kəmənd

ایا سپهبد شاه جهان و میر جهان

روان خصمان شیطان و هیبت تو شهاب

Komandan dünyanın şahı və dünyanın əmiri

Düşmənlərin ruhu şeytan, sənin heybətin ulduz

Yuxarıda yazdığımız terminlər işlənmə tezliyi baxımından fərqlidir. Məsələn, ox və qılınc sözlərinin işlənmə tezliyi digərlərindən artıqdır. Bu sözlərin hər biri tək işlənməkdən savayı izafət birləşmələrində də çox işlənib. تیغ sözünün birləşmələrdə işlənməsinə nəzər salar:

)تیغ تیز iti qılınc(، تیغ بران kəsici qılınc( )، تیغ کبود göy qılınc( )، تیغ پولاد polad( )، تیغ سرافشان(başkəsən)، تیغ گوهردار(gövhərli qılınc( )، تیغ روان iti qılınc)، تیغ جهان سوز (dünyanı yandıran qılınc)، تیغداری (qılınc vurma)، تیغ آخته (sıyrılmış qılınc)، تیغ تن سوز(bədəni yandıran qılınc)، تیغ غم (qəm qılıncı)، تیغ جان(beyni yaran qılınc)، تیغ مغز شکاف(beyni yaran qılınc)، تیغ پرداز( )canı yaxan)، تیغ خون bəla qılıncı)، تیغ آفت(qış qılıncı)، تیغ زمستانی(əzab qılıncı)، تیغ عذاب(qılınc)، تیغ ظفر (qəfər qılıncı)، تیغ قانیچن qılınc (آشام(

Hərbi terminlərin, o cümlədən onların “Divan”da işlənmə yerinin araşdırılması oxuculara Qətran Təbrizinin fikirlərinin daha aydın çatmasına kömək edə bilər.

ŞƏHRİYARIN YARADICILIĞINA BAXIŞ

Fərgüzadova Adilə
AMEA Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitunun dissertantı

Çoxəsrlik Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri də Seyid Məhəmmədhüseyn Şəhriyardır.Şəhriyarın əsərləri artıq uzun illərdir ki, o taylı-bu taylı Azərbaycanın hüdudlarını aşmışdır.Elmi ədəbiyyatlarda çoxdan bəri etiraf olunduğu kimi Seyid Məhəmmədhüseyn Şəhriyar fars dilində də orijinal və mükəmməl sənət əsərləri yaratmağa nail olmuşdur.Təsadüfi deyildir ki,Məhəmmədhüseyn Şəhriyarın adı farsdilli ədəbiyyatın Nizam Gəncəvi,Sədi Şirazi,xüsusən də Xacə Hafiz kimi ölməz şairləri ilə yanaşı çəkilir.Fars dilində qiymətli əsərlər yazması ona İranda, Hindistanda, Əfqanıstanda, Tacikistan hətta bu dilə yaxın olan ərəb dünyası ölkələrində də tanınmışdır.Azərbaycan dilində yazılmış əsərlərində Şəhriyar daha çox milli,farsdilli şerlərində isə bəşəridir.Bununla belə,Məhəmmədhüseyn Şəhriyarın farsa dilində yazdığı əsərlər azərbaycanlı ruhunun poetik ifadəsidir.

İndiyədək bir sıra dəyərli araşdırmaların meydana çıxmasına baxmayaraq, Məhəmmədhüseyn Şəhriyar mükəmməl elmi-tərcümeyi halı hələlik yazılmamışdır.Bu,ədəbiyyatşünaslıq elminin mühüm vəzifələrindən biridir.Şəhriyarı tanıyan nəsillərin,ustad şairin müasirlərinin,xüsusən övladlarının yaşadığı indiki dövrdə həmin mühüm əhəmiyyətə malik olan vəzifəni yerinə yetirmək daha məqsədəuyğun və münasib olardı.Mühüm elmi vəzifəni yerinə yetirmək ilk növbədə Güney Azərbaycan alimlərinin öhdəsinə düşür.Türkiyədən olan Şəhriyarşünas araşdırmaçı Yusif Gədikli də eyni fikirdədir "Bunu da deməliyik ki,Şəhriyar haqqında aparılacaq araşdırmalarda Güney Azərbaycanın elm adamlarına böyük vəzifələr düşür.Çünki bu araşdırmalar nə Türkiyədə nə də Şimali Azərbaycanda deyil,şairin doğulub yaşadığı yer olması etibarı ilə ancaq Güney Azərbaycanda aparıla bilər.

Həyatın böyük çətinliklərinə baxmayaraq, Şəhriyar mütaliə ilə ciddi surətdə məşğul olmuş, klassik Şərq şerinin incəliklərini dərindən mənimsəmişdir.

Fars dilində yazdığı kamil şerlərlə o, ədəbi mühitdə yenidən parlamış, hətta zəmanəmizin Hafizi adını qazanmışdır.Əli Zöhrəvinin müqəddiməsi ilə 1494-cu ildə çap olunan "Divanın" birinci cildi ona çoxsaylı pərəstişkarlar qazandırmışdır.O, İranda yeni şerin banilərindən sayılan Nima Yuşiclə tanış olub yaxınlaşmışdır.Şəhriyar klassik şer üslubunu yeni şerin prinsipləri ilə zənginləşdirmişdir.Beləliklə, hər iki üslubun vəhdətindən doğan tamamilə orijinal bədii nümunələr yartamağa müvəffəq ola bilmişdir.Nəticədə Şəhriyarın şöhrəti daha da artmış, tərəfdarları çoxalmışdır.Eyni zamanda Şəhriyar 40- cı illərin ortalarından sonra İranda Azərbaycan dilinin fəaliyyət dairəsinin məhdudlaşdırılmasından, milli ayrı seçkiliyin qüvvətlənməsindən,

ölkədə həmin istiqamətdə sərt tədbirlərin həyata keçirilməsindəm də narazı olmuşdur.Bütün bunlar həm də ədəbi - ictimai mühitdə şairə bəslənilən qısqanclıq və paxıllığın qüvvətlənməsinə,örtülü şəkildə də olsa yeni növ təqiblərin yaranmasına səbəb olmuşdur.

Ustadın əsərləri ingilis,fransız,alman,italyan,ərəb dillərinə tərcümə olunmuşdur.

Şəhriyarın yaradıcılığında Azərbaycan mövzusu xüsusi yer tutmuşdur.Ustad şair Azərbaycanı böyük vətən kimi ilhamla,ürəklə tərənnüm etmiş,bu mövzuda heç bir ideologiyaya tabe olmayıb,ümummilli mənafeyi ifadə edən və əbədi olaraq qəbul edən və əbədi olaraq qala bilən mükəmməl şerlər yazmışdır.Şairin Şimali Azərbaycan haqqında yazdığı şerlər həm də Cənubi Azərbaycan ədəbiyyatı və mədəniyyətinin bu qolunu tanıtmaq,təbliğ etmək üçün möhkəm və davamlı sənət körpüsü almışdır.

Məhəmmədhüseyn Şəhriyarın yaradıcığında poema janrının da xüsusi yeri vardır. Dillər əzbəri olan məhşur "Heydərbabaya salam" poeması ustad Şəhriyarın yaradıcığının zirvəsidir.Bu əsərə Azərbyacanda, İranda,Türkiyədə, İraqda, Orta Asiyada çoxlu nəzirə və bənzətmələr yazılmışdır.Fars dilində çoxcildlik divan yaratmasına baxmayaraq daha çox Heydərbabaya salam poeması ilə məhşurlaşmışdır.Poema iki hissədən ibarətdir.76 beşlik bənddən ibarət olan birinci "Heydərbabaya salam" əsəri 1953-cü ildə yazılmış, ilk dəfə 1954-cü ildə Təbrizdə nəşr olunmuşdur.İlk nəşrdə Məhəmmədhüseyn Şəhriyarın ön sözü də verilmişdir.

"Heydərbabaya salam" poemasının ikinci hissəsi Şəhriyarın uzun ayrılıqdan sonra doğma yurdu- Xoşginaba yeni səfərindən sonra 1963-cü ilə qələmə alınmışdır.

İran İslam Respublikasında Şəhriyarın adı uca tutulur və ustad şairə böyük ehtiram duyulur.Şairin yaşayıb yaratdığı Təbriz şəhərindəən böyük küçələrdən biri şairin adını daşıyır.

AZƏRBAYCAN DİLİNDƏ VƏ ƏRƏB ƏDƏBİ DİLİNDƏ FEİLİN KEÇMİŞ ZAMANININ QARŞILAŞDIRILMASI

Məlikova Şəkər
Ərəb filologiyası kafedrasının doktorantı

Zaman hərəkətlə qarşılıqlı əlaqədədir, yəni hərəkət zamanla əlaqədar olur, zaman daxilində baş verir. Feil subyektin hərəkətini bildirməklə yanaşı, həm də bu hərəkətin hansı zamana aid olması barədə məlumat daşıyır, müəyyən bir zamanda konkret hadisəni bildirir. Bu yazıda keçmiş zamanda olan feilləri Azərbaycan və ərəb dillərində qarşılaşdırmaqla, onların qrammatik mənalarını göstərməyə çalışacağıq və keçmiş zamana aid bəzi nümunələrdən bəhs edəcəyik.

Bildiyimiz kimi, Azərbaycan dilində feilin keçmiş zamanı iki yerə ayrılır: şühudi və nəqli keçmiş zaman. Şühudi keçmiş zaman feillərin sonuna -dı[4] şəkilçisi artırmaqla düzəlir. Məsələn:

Uşaq gülümsədi.

Şühudi keçmiş zaman formasına qarşılıq olaraq ərəb dilində "الماضي المطلق" "Mütləq keçmiş zaman" forması uyğun gəlir. Belə ki, "Mütləq keçmiş zaman" ifadəsi bütövlükdə keçmiş zamanı əhatə edə bildiyi kimi, keçmiş zamanın müəyyən bir hissəsi ilə də məhdudlaşa bilər. Bu növ cümlələrdə zamandan daha çox hadisə ön planda olur. "الماضي المطلق"feilin sonuna şəxs sonluqları artırmaqla düzəlir. Məsələn:

إبتسمت زينب Zeynəb gülümsədi.

Nəqli keçmiş zaman isə feilin kökünə və ya əsası üzərinə -mış[4] və ya -ıb[4] şəkilçisi artırmaqla düzəlir. Məsələn:

Mən yazmışam.

Müəllim gedib.

Ərəb dilində feilin keçmiş zaman forması قدədatı ilə birlikdə işləndikdə isə nəqli keçmiş zaman formasının qarşılığı kimi qəbul edə bilərik. فعل keçmiş zaman feili özündən əvvəl gələn قدədatı ilə işlənərək yaxın keçmişi, yəni yeni bitmiş bir hadisəni bildirir. Bu zaman forması ərəb dilində "الماضي القريب", yəni "Yaxın keçmiş zaman" adlanır. Məsələn:

قد كتبت الرسالة. Mən məktubu (artıq) yazmışam.

قد ذهب المدرس.Müəllim (artıq) gedib.

Bundan əlavə, Azərbaycan dilində nəqli keçmiş zaman formasının mürəkkəb forması ərəb dilində keçmiş zamanın "الماضي المنقطع", yəni "Bitmiş keçmiş zaman" formasına uyğun gəlir. Azərbaycan dilində nəqli keçmiş zamanın mürəkkəb forması -mış[4] zaman şəkilçisindən sonra –idi, -imiş zaman ədatlarının artırılması ilə düzəlir. Məsələn:

Mən oxumuşam.

Siz yazmışdınız.

Nəqli keçmiş zamanın mürəkkəb formasısın ərəbcə qarşılığı olan " الماضي المنقطع" isə feilin keçmiş zamanının كانilə işlənməsi əsasında düzəlir. Aşağıdakı nümunədə bu zaman formasının işlənməsinə diqqət yetirək:

كنت قرأت.Mən oxumuşam.

كنتم كتبتم.Siz yazmışdınız.

Bu zaman formasında كانvə keçmiş zamanda olan feillə yanaşı, bəzən قد ədatından da istifadə edilir və فعل+قد+كانvə ya فعل+كان+قدformasında da işlənir.

"Bitmiş keçmiş zaman" "الماضي المنقطع"ifadəsilə yanaşı, bəzən " الماضي الاكمل"ifadəsi də istifadə edilir.

TABELİ MÜRƏKKƏB CÜMLƏNİN KOMPONENTLƏRİNİ BAĞLAYAN VASİTƏLƏR

İsmayılova Ləman
Bakı Dövlət Universiteti Şərqşünaslıq fakültəsinin doktorantı

Tabeli mürəkkəb cümləni təşkil edən komponentlər (“Sadə cülələr”) bir-birinə müxtəlif vasitələrlə bağlanır. Həmin vasitələrin köməyi ilə tabeli mürəkkəb cümlə təşkil olunur. Komponentləri bağlamaqda bağlayıcılar (həm də bağlayıcı birləşmələr), bağlayıcı sözlər, bəzi ədatlar, leksik tərkiblər, sintaktik quruluş və intonasiya mühüm rol oynayır.

Bağlayıcılar öz xarakterləri etibari ilə iki cür olur: 1) tabe etməyən bağlayıcılar, 2) tabe edən bağlayıcılar. Birincilər bağlayıcıları vahidləri eyni hüquqda saxladığı halda, ikincilər (tabe edən bağlayıcılar) isə bağlayıcıları tərəflərin birini (budaq cümləni) digərinə (baş cümləyə) tabe edir.

İzahedici, aydınlaşdırıcı bağlayıcı – ki.

Bu bağlayıcı əmələ gətirdiyi mənalara və həmin məna əsasında müəyyənləşən budaq cümlə

növlərinə görə universal bağlayıcı hesab edilə bilər. Ki, bağlayıcısı çox zaman baş cümlə ilə budaq cümlə arasında işlədilir, lakin bəzi tabeli mürəkkəb cümlə tiplərində budaq cümlənin daxilində də işlədilir (məs: zaman və şərt budaq cümləli tabeli mürəkkəb cümlələrdə).

Azərbaycan dilində ki bağlayıcısı baş cümlənin təyinlənən ismindən sonra işlənib təyin budaq cümləsini baş cümlənin içərisinə daxil etməyə xidmət edir. Təyin budaq cümləsinin bu tipi hind-Avropa dillərində olduğu kimidir.

Zaman bildirən bağlayıcı birləşmələr.

Buraya elə ki, o zaman ki, o vaxt ki, o gün ki, onda ki bağlayıcı birləşmələri daxildir. Bunlar zaman budaq cümlələrinin formalaşmasına xidmət edir və adətən budaq cümlənin əvvəlində işlədilir, budaq cümlədən sonra baş cümlə gəlir.

Səbəb və məqsəd bildirən bağlayıcı birləşmələr.

Bu bağlayıcılar sırasına ona görə ki, ondan ötrü ki, onun üçün ki, o səbəbə görə ki, o məqsədlə ki bağlayıcı birləşmələri və çünki bağlayıcısı daxildir.

Bağlayıcılar vasitəsi ilə əlaqələnən budaq cümlələr, mənalarından asılı olaraq, ya səbəb, ya da məqsəd budaq cümləsi kimi formalaşır. Budaq cümlədəki felin forması, baş və budaq cümlələrin zaman münasibətləri bunların müəyyənləşməsinə kömək edir.

Şərt bildirən bağlayıcılar və bağlayıcı birləşmələr.

Bu qrupa daha çox işlənən indi ki, bir halda ki, əgər bağlayıcıları və dilimizin əvvəlki dövrlərinə nisbətən az işlənən madam ki, vaxta ki və hərgah bağlayıcıları daxildir. Bunlardan madam ki və indi ki bağlayıcılarını bəzən

güzəşt bağlayıcısı adlandırırlar. Lakin bu fikirlə razılaşmaq olmaz. Həmin bağlayıcılara aid gətirilən misallar özü də göstərir ki, onlar şərt mənasına malikdir.

Qarşılaşdırma bildirən bağlayıcılar.

Buraya hərçənd bağlayıcılarını və artıq bağlayıcı funksiyası daşıyan düzdür, doğrudur sözlərini daxil etmək olar.

Nəticə bildirən bağlayıcılar.

Ona görə (də), buna görə (də), onun üçün (də), bunun üçün (də), belə ki bağlayıcı birləşmələri belələrindəndir.

Tabeli mürəkkəb cümlənin komponentlərini bağlamaqda bağlayıcı sözlərin xüsusi rolu vardır. Bu sahədə türkologiyada fikir ayrılığına rast gəlmək olur. Tatar dilçisi M.Z.Zəkiyev "nisbi əvəzlik" və "bağlayıcı söz" terminlərindən düzgün istifadə etməmişdir. Tatar dilindəki işarə əvəzliklərini o, nisbi əvəzlik kimi qələmə verir. Mənşəyinə görə sual əvəzliyi olan sözlər tabeli mürəkkəb cümləni təşkil etməyə xidmət etdikdə nisbi əvəzliyə çevrilir. Nisbi əvəzliklər bir qayda olaraq budaq cümlənin tərkibində işlənər. Baş cümlədə isə ona qarşı işarə əvəzliyi işlənər.Morfoloji cəhətdən "nisbi əvəzlik" adlandırılan bu kateqoriya sintaktik cəhətdən "bağlayıcı söz" adlandırılır. M.Z.Zəkiyev bu termindən də düz istifadə eləmir. "Bağlayıcı söz" termini altında o, bağlayıcı birləşmələrdən və adi bağlayıcılardan bəhs edir. Həmin bölmələrdə başqa yanlış hökmlər də işlənmişdir. Müəllifə görə, sual əvəzlikləri nisbi əvəzlik rolunda işlənir. Burada da ziddiyyət var: əgər nisbi əvəzlikdirsə, sual əvəzliyi ola bilməz. Həmçinin əksinə, sual əvəzliyidirsə, nisbi əvəzlik ola bilməz. Müəllif iddia edir ki, Orxon-Yenisey abidələrində nisbi əvəzliklərin işlənməsi halı qeydə alınmamışdır.Görünür, belələri ərəb və fars dillərinin, daha sonralar isə rus dilinin təsiri altında son dövrlərdə əmələ gəlmişdir. Nə Orxon-Yenisey abidələrində nisbi əvəzliklərin işlənməsi fikri ilə, nə də bunların digər dillərin təsiri altında əmələ gəldiyi fikri ilə razılaşmaq olmaz. Bunlar (nisbi əvəzliklər) ta qədim zamanlardan bütün dillərdə, o cümlədən hind-Avropa, sami və türk dillərində də mövcud olmuşlar.Tabeli mürəkkəb cümlələrin bir qismi bağlayıcı sözlərin köməyi təşkil olunur. Bağlayıcı sözlərə nisbi sözlər də deyilir. Belə sözlərin bağlayıcıdan aşağıdakı fərqləri var:

Bağlayıcılar köməkçi sözlər qrupuna daxil olduğu halda, bağlayıcı sözlər müstəqil sözlərdən hesab edilir. Bunlar (bağlayıcı sözlər) əvəzliyin müəyyən növündən- nisbi əvəzliklərdən ibarətdir.

Bunların bir qismi isim, bir qismi sifət, bəziləri say, bəziləri yer zərfi, bəziləri zaman zərfi, bəziləri kəmiyyət zərfi, bəziləri tərzi-hərəkət zərfi mənalarına malikdir.

Müstəqil nitq hissələrindən olduğu üçün, bağlayıcı sözlər cümlədə müəyyən üzv vəzifəsində işlədilir. Halbuki bağlayıcılar cümlə üzvü vəzifəsində işlədilə bilmir. Bağlayıcı sözlər budaq cümlədə işlənərək, tabeli mürəkkəb cümlə düzəltməyə şərait yaradır. Belə cümlələrdə budaq cümlənin xəbəri əksər halda şəkilçiləşmiş –sa/sə şərt ədatı qəbul etmiş olur.

Müxtəlif dillərdə ədatın bağlayıcı vasitə kimi işləndiyi, tabeli mürəkkəb cümlənin tərkib hissələrini bir-birinə bağlamaqda mühüm rol oynadığı məlumdur. F. Korş faktlarla göstərir ki, skandinav dillərində işarə və sual əvəzlikləri yerinə nisbi ədat, ingilis dilində nisbi vəzlik yerinə ədat işlənən hallara rast gəlmək olur. Sonra o, yeni yuxarı alman dilində indi əvəzlik və zərflə düzələn bağlanma əlaqəsinin orta-yuxarı alman dilində ədatla düzəldiyini də qeyd edirlər. Rus dilinin qrammatikasına aid yazılan bir sıra mənbələrdə ədatın tabeli mürəkkəb cümlənin komponentlərini bağladığı göstərilir. (li ədatı nəzərdə tutulur). A.N.Kononov göstərir ki, -sa yalnız tabelilik ifadə edir.

Bizə məlumdur ki, -sa/sə ədatı bir neçə növ budaq cümlənin, daha doğrusu, nisbi budaq cümlələrinin formalaşmasında mühüm rol oynayır. Lakin bu budaq cümlələrdə şərt mənasının əlavə bir məna kimi mövcud olduğunu da inkar edə bilmərik. Tutaq ki, -sa/sə ədatı tamamlıq budaq cümləsinin təşkilinə kömək edir. Məsələn, *kimlər dəvət olubsa, onları içəri buraxın* cümləsində tamamlıq budaq cümləsi iştirak edir. Bu əss mənadan başqa, burada şərt çalarlığı da özünü göstərir. Bu xüsusiyyəti biz -sa/sə ədatının köməyi ilə formalaşan başqa növ budaq cümlələrdə də görürük. Özbək dilçiləri eyni halın özbək dilində də olduğunu qeyd edirlər.

Ümumiyyətlə, türk dillərində geniş surətdə işlənən da, yaxud ta ədatı daha qədim ədat hesab edilir. Onlara türk dillərinin qədim yazı abidələrində də rast gəlmək olur. Bağlanmada iştirak edən ədatlar bəzən bir-birini əvəz edir, yəni türk dillərinin bəzilərində eyni funksiyanı bir ədat, başqa terk dilində isə başqa ədat yerinə yetirir. Dilimizin tarixindən məlum olur ki, bəzi ədatlar vaxtı ilə diffuz şəkildə işlənmişdir. Eyni söz gah aydın surətdə bağlayıcı, gah aydın surətdə ədat kimi işləndiyi kimi, bəzən də elə işlənmişdir ki, indi onun bağlayıcı və ya ədat olduğunu müəyyən etmək olmur. Bu səbəbdən də eyni misal bəzilərində ədat kimi, bəzilərində isə bağlayıcı kimi görünə bilər. Digər vasitələrlə yanaşı olaraq, mürəkkəb cümlənin təşkilində intonasiya da mühüm rol oynayır. Eyni sözlərdən, başqa cür demiş olsaq, eyni tərkib hissələrədn düzələn mürəkkəb cümlə intonasiyadan asılı olaraq, ya tabesiz, ya da tabeli mürəkkəb cümlə kimi müəyyənləşir. Tabeli mürəkkəb cümlənin təşkilində digər bağlayan vasitələr (bağlayıcı, bağlayıcı söz, əvəzliklər, ədat və s.) iştirak etdikdə yenə də tabe olan intonasiya olmalıdır. Lakin bu vasitələr iştirak etməyən, xüsusən bağlayıcı olmayan cümlələrdə intonasiyanın rolu artıq nəzərə çarpır.

MÜASİR VƏ KLASSİK İBRİ DİLİ SİNTAKSİSİNİN FƏRQLİ CƏHƏTLƏRİ

Ayxan Qarayev
Şərqşünaslıq fakültəsi Ərəb filologiyası kafedrasının müəlimi

Bildiyimiz kimi dil hər gün inkişafda və dəyişimdə olan bir vasitədir. Bütün təbii dillər dəyişir və bu dəyişiklik dilin bütün sahələrinə təsir edir. Dil dəyişmə növlərinə səs dəyişiklikləri, leksik dəyişikliklər, semantik dəyişikliklər və sintaktik dəyişikliklər daxildir. Zamanla bir dildə (və ya dillərdə) baş verən dəyişikliklərlə açıq şəkildə maraqlanan dilçiliyin bölməsi tarixi dilçilik (başqa adla *diaxronik dilçilik*) adlanır. Nümunə olaraq qeyd etmək yerinə düşər ki, Villiam Şekspirin ingilis dili ilə müasir ingilis dili arasında həddindən artıq çox fərqli cəhətlər mövcuddur. Biz Şekspirin "İyirminci Gecə", eyni zamanda Cefri Çoserin əsərlərində polineqativ quruluşda cümlələrə rast gələ bilərik. Bu halın tam əksi ibri dilində baş vermişdir. Belə ki, klassik ibri dili mononeqativ quruluşa malik olmuş, daha sonra isə polineqativliyə doğru inkişaf etmişdir. Məşhur dilçi alim Roger Fouvler hesab edir ki, bir dildə iki inkarın işlənməsi həmin dilin zəifliyi ilə əlaqədardır. Vaxtilə ingilis dilində də sadə cümlədə iki neqatorun iştirakı mövcud olmuşdu və Fouvler bu sintaktik quruluşdan istifadə edənləri "Speakers of Vulgar English" adlandırmışdır. Klassik ibri dili mononeqativ dil strukturuna malik olsa da, müasir ibri dili poloneqativ dil strukturuna malikdir. Əhdi-Ətiq mətnlərinə nəzər salsaq sadə cümlədə 1-dən artıq neqator görmərik. Müasir dildə isə sadə cümlədə bir və daha çox neqatorlar iştirak edərək polineqativ sintaktik quruluş yaradır ki, buna səbəb isə ibri dilinin avropa dillərinin qrammatik bazası əsasında dirçəldilməsidir. Alimlər bu halı sami dillərinə xas olmayan qrammatik xüsusiyyət kimi qiymətləndirir.

Bildiyimiz kimi ibri dilinə aid yazılı abidələrə ilk dəfə Əhdi-Ətiq mətnlərində rast gəlinmişdir. Eyni zamanda İsrail dövlətinin də rəsmi dili ibri dilidir. Əhdi-Ətiq mətnlərinin yazıldığı ibri dili ilə İsrail dövlətinin rəsmi dili olan ibri dili arasında sintaktik quruluş nöqteyi nəzərdən başqa nə kimi sintaktik fərqlər mövcuddur?. Dilçilər bu suala cavab axtarmışlar və hər iki dilin müqayisəli tədqiqatı ilə məşğul olan alimlər nəticə etibarı ilə 2 qrupa bölünmüşlər.

1) Birinci növ tədqiqatçılar müasir ibri dilini elə klassik ibri dilinin təbii dəyişikliyə məruz qalması nəticəsində bugünkü hala gəlib çıxması iddiasını irəli sürürlər. İsraildə fəaliyyət göstərən İbri dili Akademiyasının üzvləri və bütövlükdə Akademiyanın özü də bu iddianı irəli sürənlərin sırasında durur. Bu iddianı irəli sürən tədqiqatçılar müasir ibri dilində baş verən dəyişiklikləri dilin inkişafı və dəyişməsi ilə əlaqələndirirlər.

2) İkinci növ tədqiqatçılar isə müasir ibri dili klassik ibri dilinin qrammatika bazasında deyil, hind-avropa dillərinin qrammatik bazasında dirçəldiyini və klassik dildən tamamilə fərqləndiyi iddiasını irəli sürürlər. Bu

növ samişünaslar klassik ibri dili ilə müasir ibri dili arasında fərqlərin əsas səbəbini müasir ibri dilinə hind-avropa dillərinin təsirində və ibri dilinin dirçəldilməsində əvəzsiz rolu olmuş dilçilərin ana dilinin idiş və rus dili olmasında görürlər. Məhz bu nüans da ibri dilinin sintaksisində qeyri-sami xüsusiyyətlərinin mövcud olmasına səbəb olmuşdur. Onların fikrincə ibri dilinin dirçəldilməsi prosesində avropadan gələn dilçilər deyil, ərəb ölkələrindən gələn dilçilər iştirak etsəydi, müasir ibri dili tamamilə sami xüsusiyyətlərini daşıyardı.

Hər iki iddianı irəli sürən alimlərin tədqiqatlarına nəzər yetirsək görərik ki, hər biri özünəməxsus və haqlı iddia irəli sürərək öz mülahizələrini müdafiə edirlər. İkinci növ tədqiqatçılar sayca azlıq təşkil etsələr də, qeyd etmək lazımdır ki, müasir ibri dilinə hind-avropa dillərinin təsiri həqiqətən də danılmazdır. Məhz bu təsirlər bu iddianı irəli sürən alim və tədqiqatçılara bu iki dilin tamamilə fərqli dil olduğunu deməklərinə əsas verir. Bu alimlər müasir ibri dilini "sami dili cildinə girmiş hind-avropa dili kimi" qiymətləndirirlər. השפה הודו-אירופית אך מתחפשת לשפה שמית– Birinci iddianı irəli sürən alimlər də kifayət qədər tutarlı dəlillərə istinad edərək özlərini müdafiə etməyə nail olurlar.

Ümumiyyətlə, klassik və müasir ibri dilinin cümlə quruluşunda çox böyük fərqlər mövcuddur ki, bu da cümlədə söz sırasıdır. Klassik ibri dilində demək olar ki, bütün cümlələrdə xəbər mübtədadan əvvəl işlənir. Müasir ibri dilində isə yalnız ədəbi cümlələrdə klassik ibri dilinin cümlə quruluşu saxlanılır, lakin danışıq dilində əksər vaxt mübtəda xəbərdən əvvəl gəlir. Elə dilçilər müasir ibri dilində cümlə quruluşu barədə belə bir tərif verirlər ki, müasir ibri dili sərbəst cümlə quruluşuna malikdir. Yalnız bir istisna var ki, inkar ədatlar xəbərdən əvvəl işlənir. Qalan digər hallarda ibri dilində cümlə quruluşunda söz sırası qaydası mövcud deyil (Барух Подольский «Практическая грамматика языкв иврит).

Əhdi-Ətiqdan aşağıdakı ayələri nümunə olaraq göstərə bilərik.

ב והארץ, הייתה תוהו ובוהו, וחושך, על-פני .בראשית, ברא אֱלוהִים, את השמיים, ואת הארץ
ד ויבדל אֱלוהִים, יהי אור; ויהי-אור .תהום; ורוח אלוהים, מרחפת על-פני המים **ג** ויאמר אֱלוהִים, את-
ה ויקרא אֱלוהִים לאור יום, ולחושך קרא לילה; .האור, כי-טוב; ויבדל אֱלוהִים, בין האור ובין החושך
ויהי-ערב ויהי-בוקר, יום אחד. {פ}

ז ויעש אלוהים, את- .**ו** ויאמר אֱלוהִים, יהי רקיע בתוך המים, ויהי מבדיל, בין מים למים
ח ויקרא אֱלוהִים .הרקיע, ויבדל בין המים אשר מתחת לרקיע, ובין המים אשר מעל לרקיע; ויהי-כן
.לרקיע, שמיים; ויהי-ערב ויהי-בוקר, יום שני

Altından düz xətt çəkilən nitq hissələri feillər, dalğalı xətt çəkilən nitq hissələri isə həmin feillərin mübtədalarıdırlar. Əhdi-Ətiq mətnlərindəki nümunələrə əsasən dilçilər belə bir iddia irəli sürürlər ki, klassik ibri dilində cümlədə söz sırasının xüsusi qaydası olmuşdur. Əks halda niyə bütün cümlələrdə feil mübtədadan əvvəldə işlənsin?.

Bundan başqa digər bir fərqli cəhət isə fellərin bitişən əvəzliklərlə işlənməsidir. Tanax, Ketuvimdə Tehilim (Zəbur) adlı 150 mədhdən ibarət

bölmədə bitişən əvəzliklərin istifadəsinə aid ən gözəl nümunələr öz əksini tapmışdır. Aşağıda qeyd etdiyimiz nümunəyə Yerusəlimin himni kimi tanınan "Yeruşalaim Şel Zahav" nəğməsində də rast gəlmiş olarıq.

Yerusəlim, əgər mən səni unutsam	אם אשכחך ירושלים
Mən onu gödüm.	ראיתיהו

Lakin müasir ibri dilində nəinki danışıq dilində, hətta ədəbi cümlələrdə belə bitişən əvəzliklərin bu cür istifadəsinə çox az hallarda rast gələ bilərik.

Klassik ibri dilində yiyəlik hal müasir dildi smixutdan başqa digər alternativ variantlarla da ifadə oluna bilər. Qeyd etdiyimiz alternativ variant dedikdə של nəzərdə tutulur. Klassik ibri dili üçün tamamilə yad element olan yiyəlik halın bu yolla ifadəsi müasir ibri dilində həm danışıq və həm də ədəbi dildə həddindən artıq geniş vüsət almışdır. Klassik dildə isə əsasən bitişən əvəzliklər vasitəsilə yiyəlik hal ifadə olunur. İbri dilində yiyəlik halın "של" ilə ifadəsi eynilə ingilis dilində yiyəlik halın "of" ilə ifadəsi ilə həm məna və həm də işlənmə yerinə görə eynilik təşkil edir.

Qeyd etmək lazımdır ki, של ilə ifadə olunan yiyəlik hal ibri dilində yad element olsa da, dilə dəqiqlik gətirir. Bəzi sintaktik birləşmələr var ki, smixutun klassik formasında bu ikimənalılıq (ambiguity) ifadə edir.

Nümunə:

שמלת הבחורה היפה

Bu nümunə "gözəl qızın donu" və ya "qızın gözəl donu" hər iki cür anlaşıla bilər. Çünki sifətin konkret hansı ismə aid olduğunu təxmin etmək mümkün deyil. Lakin של vasitəsilə ifadə zamanı biz konkret sifətin hansı ismə aid olduğunu dəqiqləşdirmiş oluruq.

Qızın gözəl donu-שמלה יפה של בחורה

Klassik ibri dili ilə müasir ibri dili arasında ən gözəçarpan fərq keçmiş zamanın ifadəsindədir. Klassik ibri dilində III şəxs təkdə istifadə olunan feillərin təsriflənməsi müasir ibri dilində gələcək zamanı ifadə edir. Bundan əlavə, Vav Konsekutivium vasitəsilə düzələn zamanın ifadəsi müasir ibri dilinə doğma deyildir. Zamanların bu formada istifadəsi müasir dildə tamamilə sıradan çıxmışdır.

Suffiks qoşulma		Prefiks qoşulma	
Normal	Vav konsekutivium	Normal	Vav konsekutivium
נכנס	ונכנס	ייכנס	וייכנס
O, daxil oldu.	(və) o daxil olacaq	O daxil olacaq.	(və) o daxil oldu.

Dilçi və klassik ibri dilini araşdırmayan şəxs tərcümə edərkən keçmiş zamanı gələcək zaman kimi, gələcək zamanı isə keçmiş zaman kimi tərcümə edərək böyük səhvə yol vermiş olacaq.

Dilçilərin iddialarına əsasən klassik dildə subyektiv zaman mövcud olmayıb.

KLASSİK İBRİ DİLİ	MÜASİR İBRİ DİLİ
כִּי מִן-הַבְּאֵר הַהוּא, יַשְׁקוּ הָעֲדָרִים; וְהָאֶבֶן ג וְנֶאֶסְפוּ-שָׁמָּה כָל- .גְּדֹלָה, עַל-פִּי הַבְּאֵר הָעֲדָרִים, וְגָלְלוּ אֶת-הָאֶבֶן מֵעַל פִּי הַבְּאֵר, וְהִשְׁקוּ, אֶת-הַצֹּאן; וְהֵשִׁיבוּ אֶת-הָאֶבֶן עַל-פִּי הַבְּאֵר, לִמְקֹמָהּ.	כי מן הבאר ההיא היו רועים נוהגים להשקות את העדרים, ושם היו רועים נוהגים להיאסף, ולאחר מכן נוהגים לגלות את האבן הכבדה, ואחר כך היו משקים את הצאן, ובסיימם להקשות את הצאן היו רגילים להשיב את האבן הכבדה למקומה.

22.Varlıq 29:1, 29:2, 29:3)(

Klassik ibri dilində קטלvə וקטולbabları keçmiş zamanı, וקטילvə babları gələcək zamanı və ya təkrarlanan hərəkəti ifadə edir. Müasir ibri dili klassik ibri dilindən heç də bütün qrammatik qaydaları miras götürməmişdir.

Klassik ibri dilində שbağlayıcısına rast gəlmərik. Bu dövrə aid ibri dilində כי ,אשרbağlayıcılarına rast gəlirik. Lakin Xazal ibri dilində bu bağlayıcıları שbağlayıcısı əvəz edir. Müasir ibri dilində isə hər üç bağlayıcıdan geniş istifadə olunur. Nümunədə qeyd olunan שbağlayıcısı isə klassik ibri dilinə tamamilə yad elementdir. Bu bağlayıcı danışıq dilində daha çox istifadə olunur, ədəbi cümlələrdə שbağlayıcısından az istifadəyə üstünlük verən ədiblər əsasən אשרbağlayıcından istifdə edirlər.

הכפר אשר נסעתי ממנו יפה. Getdiyimiz kənd gözəldir.

הכפר שנסעתי ממנו יפה. Getdiyimiz kənd gözəldir.

Bundan başqa cümlədə sintaksis quruluş baxımından Klassik ibri dili ilə Xazal ibri dili arasında gözəçarpan başqa bir fərq də mövcuddur ki, bu da budaq cümlə quruluşunda özünü büruzə verir. Aşağıdakı nümunəyə nəzər salsaq bunu açıq şəkildə görə bilərik. Müasir ibri dilində isə hər iki versiyadan istifadə olunur.

1. יהושע ציווה על אנשיו להוריד את נבלתו מן העץ.	1. İsa öz tərəfdarlarına əmr etdi ki, onun cəsədini ağacdan endirsinlər.
2. יהושע ציווה על אנשיו שיורידו את נבלתו מן העץ.	2. İsa öz tərəfdarlarına əmr etdi ki, onun cəsədini ağacdan endirsinlər.

Nümunə olaraq, hər iki versiyadan istifadə edən Xayim Bialikdən nümunələr gətirə bilərik.

את הדלת, שתעבור עם הכלב אליו.	1. Açmağa başladı ki, it ilə ona tərəfə keçəsən.
2. ציווה לי את מלאכיו הנעלמים לשעשעני בחלומות.	2. Məni yuxularda əyləndirməyi əmr etdi.

Benyamin Tammuzun əsərlərindəki nümunələrə nəzər saldıqda bir daha hər iki cümlə quruluşundan istifadə etdiyinin şahidi oluruq.

1 . הוא ביקשני לשים עין על קבוצה של בידואים.	1. Bədəvi qruplarına diqqət yetirməyi məndən xahiş etdi.
2 . הפציר בי שאצווה על לאפי לחקות קולותיהם של חיות.	2. Mənə yalvardı ki, Lafiyə əmr edim ki, heyvan səslərini yamsılasın.

Altından düz xətt çəkilmiş sintaktik quruluş klassik dilin, dalğalı xətt çəkilmiş sintaktik quruluş isə Xazal dövründən miras qalan sintaktik quruluş nümunəsidir. Müasir dildə isə hər iki versiya istifadə olunur.

Müasir ibri dilində feili isim və ya sifətlə ifadə olunmuş sintaktik quruluşların əksəriyyəti oqedlər vasitəsilə düzəlir. Müasir ibri dilində istifadə olunan oqedlər klassik ibri dili üçün yad element hesab olunur. Prof. Ghil'ad Zuckermann "Revivalistics" kitabında bu mövzuya xüsusi yer ayırmışdır və qarşıya qoyduğu aşağıdakı nümunələr ilə iddiasını müdafiə etmişdir.

1. Allah təkdir.	1. ה' אֶחָד.
2. Allah təkdir.	2. ה' הוא אחד.

2-ci cümlədə klassik ibri dili üçün tamamilə yad element (oqed) mövcuddur. Ümumiyyətlə oqed ilə bağlı dilçilər arasında həddindən artıq təzadlı fikirlər mövcuddur. Yuxarıda qeyd etdiyimiz ikinci növ samişünaslar oqedin klassik ibri dilinə tamamilə yad element olduğunu iddia edirlər. Lakin İbri dili Akademiyası bu alimlərə Əhdi-Ətiqin Varlıq hissəsindən nümunə çəkərək aşağıdakı ayəni oqed nümunəli cümlə kimi göstərirlər.

İshaq Yakova dedi: "Sən oğlum İsavsan, elə deyilmi?" (Varlıq 27:22)	וַיֹּאמֶר יִצְחָק אֶל יַעֲקֹב: "גְּשָׁה נָּא וַאֲמֻשְׁךָ בְּנִי, הַאַתָּה זֶה בְּנִי עֵשָׂו אִם לֹא?"

Müasir ibri dilində oqedlərdən çox istifadə olunur. Oqedlər heç bir semantikaya malik olmayan, mübtəda ilə xəbər arasındakı əlaqəni ifadə edən sintaktik vəziyyətdir. Oqedlərin ingilis dilindəki ekvivalenti "is/are/was/were/will be/shall be" -dirlər. İbri dilində הוא, היא, הם, הן, אינו, אינה, אינם, אינן, היו, היה, הינם, הינן, נעשה, הפך ל və s. kimi oqedlər mövcuddur. Oqedlərdən istifadə Xazal dövründəki ibri dilində kütləvi hal almış və müasir ibri dilində oqedərdən çox geniş istifadə olunur.

Klassik ibri dili ilə müasir dil arasında gözəçarpan dəyişikliklərdən biri də gələcək zaman II şəxs cəm qadın cinsi ilə III şəxs cəm qadın cinsi ת□□ו□נה formasında olmasıdır. Müasir ibri dilində isə daha II şəxs tək kişi və qadın cinsi cəmdə ו□□□ת, üçüncü şəxs kişi və qadın cinsi cəmdə ו□□□ י formasında olur. Lakin klassik və müasir ibri dilində II şəxs kişi cinsi cəm və III şəxs kişi cinsi cəm formları heç bir fərqlilik müşahidə edilmir.

Gələcək zaman

II şəxs cəm – Müasir ibri dili		II şəx cəm – Klassik ibri dili
תכתובו	k.c.	תכתבו
תכתבו	q.c.	תכתובנה
III şəxs cəm – Müasir ibri dili		**III şəx cəm – Klassik ibri dili**
יכתובו	k.c.	יכתוב
יכתובו	q.c.	תכתובנה

İbri dilində əmr forma gələcək zaman formasından düzəldiyindən oxşar hallar burada da müşahidə olunur.

Əmr forma

II şəxs cəm – Müasir ibri dili		II şəx cəm – Klassik ibri dili
תכתובו \ כתבו	k.c.	\ כתבו תכתבו
תכתובו \ כתבו	q.c.	תכתובנה \ כתובנה

Müasir ibri dili ilə klassik ibri dilini fərqləndirən digər bir məqam isə yönlük halı bildirən formadır. Ümumiyyətlə ibri dilində ismin halları adlı qrammatik forma mövcud deyil. Klassik ibri dilində yönlük hal/istiqamət bildirən forma iki cür düzəlir. 1) ל(a^2) prefiksi artırmaqla və 2) ismin sonun ה sonluğu artırmaqla

Müasir ibri dilində isə ikinci versiya demək olar ki, istifadə olunmur. Lakin bəzi hallarda ikinci versiyaya da rast gəlinir. İkinci versiyaya əsasən nəsr əsərlərində rast gəlinir. Müasir ibri dilində birinci versiyanın istifadəsi daha kütləvi hal alıb.

1. Yerusəlimə gedirəm.	1. אני נוסע לירושלים.
2. Yerusəlimə gedirəm.	2. אני נוסע ירושלימה.

Birinci və ikinci versiyaların hər ikisi klassik ibri dilinə doğmadır, lakin müasir ibri dilində ikinci versiya işləklik xüsusiyyətini demək olar ki, itirmişdir və daha çox yazarlar öz romanlarında bədii ədəbi dilin gözəlliyini saxlamaq üçün istifadə edirlər.

Müasir və klassik ibri dilləri arasında maraqlı fərqliliklərdən biri də modal feillər ilə bağlıdır. Müasir ibri dili modal feillər ilə zəngindir. Lakin klassik ibri dilində modal feillərə çox da rast gəlinmir. Müasir ibri dilində istifadə olunan רשאי\חייב\צריך\אמור \עלול\יכול və s. kimi modal feillərin klassik ibri dilində ifadə yolları dilçilərin nəzərindən qaçmır. Əlbəttə ki, bu kimi modal feillər klassik ibri dilində rast gəlinmir. Klassik ibri dilində bir nümunəyə nəzər yetirək və müasir ibri dili ilə müqayisə aparaq.

Klassik ibri dili

1. Allah Adəmə əmr etdi: "Sən bağın bütün ağaclarından qidalana bilərsən."	1. וַיְצַו ה' אֱלֹהִים עַל הָאָדָם לֵאמר מִכֹּל עֵץ הַגָּן אָכֹל תֹּאכֵל.
2. Böyük keşişin ölümünə qədər sığındığı şəhərdə qalmalı və böyük keşiş öldükdən sonra isə yaşadığı şəhərə qayıda bilər.	2. כִּי בְעֶיר מִקְלָטוֹ יֵשֵׁב עַד־מוֹת הַכֹּהֵן הַגָּדֹל וְאַחֲרֵי מוֹת הַכֹּהֵן הַגָּדֹל יָשׁוּב הָרֹצֵחַ אֶל־אֶרֶץ אֲחֻזָּתוֹ:

Müasir ibri dili

1. Allah Adəmə əmr etdi: "Sən bağın bütün ağaclarından qidalana bilərsən." (22.2:16)	1. וציווה אלוהים על האדם "אתה רשאי\חייב לאכול מכל עצ הגן."
2. Böyük keşişin ölümünə qədər sığındığı şəhərdə qalmalı və böyük keşiş öldükdən sonra isə yaşadığı şəhərə qayıda bilər.	2. כי הרוצח חייב להישאר בעיר מקלטו עד מותו של הכוהן הגדול ואחרי מות הכהן הגדול הוא יכול לשוב אל ארץ אחוזתו כלמור.

Beləliklə, eyni cümləni klassik və müasir ibri dillərində vermiş olsaq, bu dillər arasında tamamilə fərqli xüsusiyyətləri müşahidə etmiş olarıq. Müşahidələrimizə əsasən deyə bilərik ki, klassik ibri dilində də modal feillər (xüsusilə malı^2) ifadə olunmuş cümlələr əmr cümlələrinə yaxın olduğundan bu növ cümlələr gələcək zaman forması ilə düzəlmişdir.

Klassik və müasir ibri dilində başqa bir fərq isə mürəkkəb sifət ilə düzələn söz birləşmələrinin müasir ibri dilindən עם bağlayıcısı ilə əmələ gəlməsidir. Sözsüz ki, bu avropa dillərindən keçmə formadır. Lakin klassik ibri dilində bu növ cümlələr smixut vasitəsilə düzəlir. Ədəbi dildə smixut yolu ilə düzələn formadan istifadə olunur. Smixut yolu düzələn bu cür söz birləşməsi üslub baxımından cümləyə gözəllik qatır və cümlə nisbətən daha qısa alınır.

1. Uzun saç dostumla dünyanı səyahət etdim. .1 טיילתי בעולם עם חברי ארוך שיער.
2. Uzun saç dostumla dünyanı səyahət etdim. .2 טיילתי בעולם עם חברי עם שיער ארוך.

Bu mövzu barədə söz birləşmələri bölməsində söhbət açılmışdır.

Bütün bunları nəzərə alan məşhur İsrail dilşünası, müasir ibri dili sintaksisini qədim ibri dilinin sintaksisi ilə müqayisə edən 1971-ci il təvəllüdlü dilçi - tənqidçi Prof. Ghil'ad Zuckermann bir çox linqvistlərin nəzəriyyələrinə qarşı çıxaraq özünəməxsus fikirlər irəli sürmüş, müasir ibri dili ilə qədim ibri dilinin qrammatikasında demək olar ki, çox az bağın olduğunu öz kitablarında göstərmişdir. O, İsrail ərazisində istifadə olunan dili ibri dili deyil, İsrail dili adlandırmağı daha münasib olduğunu qeyd etmişdir. Onun ibri dilinin leksikologiya, morfologiya və sintaksisinə həsr etdiyi "İsraelit safa yafa" ("Gözəl dil, İsrail dili") adlı kitabı müasir dövrdə ən çox satılan kitablardan biridir. Müəllif öz kitablarında Eliezer Ben Yehudanın "yaratdığı", "özü ilə gətirdiyi" ibri sintaksisində sami dilindən çox avropa dillərinin (idiş, alman, ladino və s.) əlamətlərinin olduğunu qeyd etmişdir. Hal-hazırda Avstraliyanın Adelaida Universitetində dərs deyən Prof. Ghil'ad Zuckermann ölü dillərin dirçəlməsi yönündə Eliezer Ben Yehudanın təcrübəsinə əsaslanaraq araşdırmalar və təşəbbüslər göstərir və bir neçə dilin dirçəldilməsi yolunda əhəmiyyətli işlər görmüş, lüğətləri işıq üzü görmüşdür.

MÜASİR TÜRK ƏDƏBİ DİLİNDƏ SADƏ CÜMLƏ ANLAYIŞI

Kazımova Nabat Seymur qızı
Türk filologiyası kafedrasının magistrantı

Bilindiyi kimi, sintaksisin əsasını söz birləşmələri və cümlələr təşkil edir. Danışığın əsas vahidi isə cümlədir. İnsan öz duyğu və düşüncələrini cümlələr ilə ifadə edir. Hər hansı bir hökmü bildirən ifadələrə isə cümlə deyilir. Müasir türk ədəbi dilində cümlələr istər məna, istərsə də quruluş baxımından dilçilər tərəfindən müxtəlif qruplara ayrılmışdır. Cümlə ilə bağlı fərqli qruplaşdırmalar olsa da əsasən dörd növə ayrılır: sadə cümlə (Basit Cümle), mürəkkəb cümlə (Birleşik Cümle), ardıcıl cümlə (Sıralı Cümle) və bağlayıcılı cümlə (Bağlaçlı Cümle).

Sadə cümləyə müasir türk ədəbi dilində "Basit Cümle" ilə yanaşı "Yalın Cümle" və "Bağımsız Tümce" kimi terminlərə də rast gəlmək olar.

Tək hökmlü və ya tək xəbərli cümləyə sadə cümlə deyilir. Qısa cümlə sadə cümlə demək deyildir. Sadə cümlə haqqında dilçilərin müxtəlif fikirləri vardır. Beləki, bu mövzunu daha dərindən incələmək üçün bəzi dilçilərin sadə cümlə haqqında olan fikirlərinə nəzər salaq.

Tanınmış türk dilçisi Kaya Bilgegil "Türkçe Dilbilgisi" adlı kitabında "Heç bir cümləyə bağlı olmayan, tək başına tam məna ifadə edən cümləyə sadə cümlə deyilir" fikrini qeyd etmişdir.

Görkəmli türkoloq Tahir Necat Gəncan "Dilbilgisi" adlı kitabında "Yalnız tək bir düşüncəni, bir hökmü bildirən söz sırasına sadə cümlə deyilir" ifadəsindən istifadə etmişdir.

Baha Dürder və Haydar Ediskun "Dilbilgisi" kitablarında "Tək bir düşüncəni, bir hökmü, bir duyğunu və bir istəyi ifadə edən cümləyə sadə cümlə deyilir" ifadəsini işlətmişlər.

Türk dilçilərin fikirlərini ümumiləşdirsək belə bir fikrə gəlmək olar ki, yalnız bir hökm ifadə edən və yalnız bir xəbərdən ibarət olan cümlələrə sadə cümlə deyilir.

Sadə cümlələr cüttərkibli və təktərkibli olmaq üzrə iki böyük qrupa ayrılır. Cüttərkibli sadə cümlədə cümlənin baş üzvləri olan mübtəda və xəbər iştirak edir. Həmçinin baş üzvlərlə yanaşı ikinci dərəcəli üzvlər də iştirak edə bilər. Cüttərkibli cümlədə yalnız baş üzvlər olduqda bu cümlələrə cüttərkibli müxtəsər cümlələr, ikinci dərəcəli üzvlər də daxil olduğu zaman isə cüttərkibli geniş cümlələr adlanır.

Ben geldim, Hava soyuktu, Rüzgar esiyor.

Bu misallarda olan cümlələr müxtəsər cümlələrdir. Aşağıdakı misallardakı cümlələr isə geniş cümlələrdir:

Ben evə erken geldim, Hava bahar olmasına rağmen çok soğuktu, Rüzgar ağaçları yerinden koparırcasına esiyordu.

Mübtəda və xəbərdən yalnız birinin iştirakı ilə qurulan cümlələrə isə təktərkibli cümlələr deyilir. Xəbər əsasında yaranan təktərkibli cümlələrin üç növü vardır.

1. Qeyri-müəyyən şəxsli cümlələr.

Hərəkət və ya hökmün qeyri-müəyyən bir şəxsə aid olduğunu bildirən cümlələrə qeyri-müəyyən şəxsiz cümlələr deyilir. Burada xəbər əsasən III şəxsin cəmi ilə ifadə olunur. Məsələn:

Geniş merdivenlerden yukarı doğru çıktılar. Üstümüze gelmeye başladılar.

2. Ümumi şəxsli cümlələr.

Hərəkət və ya hökmün eyni zamanda hamıya aid olduğunu cümlələrə ümumi şəxsli cümlələr deyilir. Burada iş görən konkret şəxsləri deyil, ümumi olaraq göstərilir. Atalar sözləri, hikmətli sözlər bura misal ola bilər. Məsələn:

Ne ekersen, onu biçersin. Eğri oturalım, doğru konuşalım.

3. Şəxssiz cümlələr.

Mübtədası olmayan və təsəvvür belə edilə bilməyən cümlələrə şəxssiz cümlələr deyilir. Bu cümlələrdə xəbər III şəxsin təkində olur. Məsələn:

Namazı kılındı. Havalar çok sıcaktı. Ağır bir gündü.

Mübtəda əsasında formalaşan sadə cümləyə isə adlıq cümlə daxildir. Danışılan əşya və hadisənin mövcud olduğunu, lakin haqqında heç bir məlumat və hökm verilməyən cümlələrə adlıq cümlə deyilir. Daha çox bədii əsərlərdə və şeirlərdə rast gəlmək mümkündür. Məsələn:

"Türk dili", "Yaz" , "Sükut", "Annesi", "İki yüz" və s.

Müasir türk ədəbi dilində təktərkibli cümlənin bir növü də söz-cümlədir. Bir söz və ya birləşmədən ibarət üzvlənməyən cümlələrə söz-cümlə deyilir. Söz-cümlələr bir sözdən ibarət olmasına baxmayaq tam bir cümlənin verdiyi mənanı verir. *Evet, hayır, tamam, peki, tabii* və s. kimi sözlər söz-cümləyə misal ola bilər. Məsələn:

Yarın görüşmemiz mümkün mü? – Elbette.

Son olaraq belə qərara gəlmək olar ki, cümlədə tək xəbər varsa bu cümlə sadə cümlədir.

İBRİ DİLİNDƏ FEİLİ SİFƏT MODELLƏRİNİN MORFOLOJİ VƏ SİNTAKTİK XÜSUSİYYƏTLƏRİ

Elnarə Həsənova
Şərqşünaslıq fakültəsinin Tələbə Elmi Cəmiyyətinin sədri,
Ərəb filologiyası kafedrasının tələbəsi

Dünya dillərində olduğu kimi, ibri dilində də feili sifət dedikdə həm feili, həm də sifəti xatırladan, ikili xüsusiyyətə malik olan və əşyavə ya hadisəni onun icra etdiyi işə, prosesə görə təyin edən sözlər başa düşülür. Feli sifətlərdə sifətə məxsus keyfiyyət, əlamət bildirmək kimi xüsusiyyətlər olmaqla yanaşı, zaman, növ və başqa qrammatik kateqoriyalar da öz əksini tapır. Feili sifət ibri dilində cinsə və kəmiyyətə görə fərqlənsə də, şəxs ifadə edə bilmir. Müasir ibri dilində feili sifət müəyyən mənada felin təsriflənən formasına uyğun gəlir.

İbri dilində feili sifət həm morfoloji, həm də sintaktik cəhətdən bir çox funksiyalar daşıyır. Feili sifətin morfoloji xüsusiyyətlərindən ən vacibi onun zaman kateqoriyası çərçivəsində yalnız indiki zaman ifadə edə bilmək funksiyasıdır. Lakin onu da qeyd etmək lazımdır ki, feili sifətin indiki zamanı ifadə edə bilməsi əslində kontekstdən irəli gəlir. Müasir ibri dilində də indiki zaman forması şərti olaraq qəbul edilmişdir. Bu forma azərbaycan dilində feilin təsriflənməyən formalarından feili sifətə uyğun olan indiki zaman feili sifəti ilə göstərilir. Feili sifətin sintaktik xüsusiyyətləri də mühüm əhəmiyyət kəsb edir. Belə ki, feili sifət həm feili, həm də ismi birəşmələrin tərəfi kimi çıxış etmə qabiliyyətinə malikdir. İsmi birləşmələrin tərəfi kimi çıxış edən feili sifət çox funksionallıq nümayiş etdirir. Bu cür pozisiyalarda feili sifət ad qrupuna məxsus xüsusiyyətləri önə verərək, həm uzlaşan təyini söz birləşmələrində təyin edən tərəf kimi, həm də uzlaşmayan təyini söz birləşmələrində istər asılı, istərsə də tabe tərəf kimi çıxış edir. Bundan əlavə, feili birləşmələrdə fellər qrupuna məxsus xüsusiyyətləri ilə iştirak edən feili sifət öz daşıdığı morfoloji xüsusiyyətlərdən əlavə yeni xüsusiyyətlər də ifadə etməyə başlayır. Belə ki, feilin ətrafına çoxlu söz toplama qabiliyyətindən istifadə edən feili sifətlər tərkiblər də əmələ gətirirlər. Feili sifətin sintaktik funksiyalarından danışarkən onun cümlədə funksiyaları və spesifik xüsusiyyətləri mütləq qeyd olunmalıdır. İkili xarakter daşıyan feili sifətin ad qrupuna və fellər qrupuna məxsus olan xüsusiyyətləri cümlə daxilində də nəzərə çarpır. Belə ki, feili sifətin cümlədə sintaktik funksiyası hansı cümlə üzvünü ifadə etməsidir. Yəni feili sifətin cümlədə rolu əsas sintaktik funksiyalardan biridir. Feili sifət felə məxsus xüsusiyyətinə görə, əsasən, feili xəbər funksiyasında işlənir. Ad qrupuna məxsus xüsusiyyətlərinə görə isə təyin, mübtəda və tamamlıq funksiyalarını yerinə yetirə bilir.

İbri dilində feili sifətin feillər qrupuna aid olunmağının əsas səbəbi onun feilin bütün bablarında işlənərək müxtəlif mənalar verməsi, yəni qrammatik

növ bildirməsidir. Feili sifətlər fel köklərinə prefiks artırmaqla və bu fellərin daxili fleksiya yolu ilə dəyişməsi ilə yaranırlar. Feili sifətin düzəlməsində "מ" (mem) prefiksi iştirak edir. Paal və nifal bablarından başqa bütün digər babların indiki zaman ifadə edən feili sifətləri bu prefikslə düzəlir. Hər babın xüsusi yaranma modeli və özünəməxsus semantikası olduğu üçün feili sifətlər də bu baxımdan müxtəlif bablar və müxtəlif modellər əsasında formalaşırlar. İbri dilində mövcud olan yeddi babın hər birinin müəyyən feili sifət modeli vardır. İbri dilinin ən əsas bab hesab olunan paal babı feili sifətin forma və modelləri baxımından, həmçinin semantika zənginliyi baxımından daha rəngarəngdir. Belə ki, paal babında feili sifətin iki forması vardır. Bu formalardan biri paal babında feili sifətin aktiv, yəni məlum forması, digəri isə passiv yəni məchul formasıdır. Paal babında ən çox işlənən və əsasən feili sifət modeli kimi qəbul olunan forma פּוֹעֵל-poel modelidir. Bu modellə düzələn feili sifətlərə misal olaraq סופר–sofer-yazıçı, שומר-şomer-qoruqçu, קונה–kone-alıcıvə s. misal göstərmək olar. Paal babının məchul növ bildirən feili sifət forması isə פעול-paul modeli ilə düzəlir: məsələn, כתוב-katuv-yazılmış (yazılan), גלוי-qaluy-aşkar olunan (aşkar olan) və s. Digər babların feili sifəti isə belə ifadə olunur:

1) Piel babı üzrə: מעניין- מענייני – מענייני – מענייני maraqlı (hərfən: maraqladıran)
2) Hifil babı üzrə: מצחיקות –מצחיקים – מצחיקה - מצחיק – gülməli (hərfən: güldürən)
3) Nifal babı üzrə: נחמדות – נחמדים – נחמדה - נחמד – sevimli (hərfən – xoşuna gedən)
4) Hitpael babı üzrə: מתאהבות – מתאהבים – מתאהבת – מתאהב – aşiq (hərfən: eşqə düşən)
5) Pual babı üzrə: מצוינות - מצוינים – מצוינת – מצוין - əla (hərfən: fərqlənən)
6) Hufal babı üzrə: מוכנות – מוכנים – מוכנה – מוכן – hazır (hərfən: hazır olan, olunan)

FARS DİLİNDƏ FEİLİN İLTİZAM VƏ ƏMR ŞƏKİLLƏRİ ARASINDA ÜMUMİ VƏ FƏRQLİ CƏHƏTLƏR

Məmmədli Banuçiçək
İran filologiyası kafedrasının magistrantı

İltizam şəkli fel icrasını dinləyiciyə niyyət, istək, ehtimal, şübhə və s. kimi emosional vəziyyəti ifadə etməklə çatdıran bir şəkildir.

Əmr şəkli əmr, tələb, xahiş və ya qadağa kimi vəziyyətləri ifadən edən bir şəkildir.

Müasir fars dilində felin iltizam şəkli və əmr şəkli arasında bir sıra ümumi və fərqli cəhətlər vardır. Bu iki şəklin ümumi və fərqli cəhətlərini forma və məna baxımında müəyyən etmək olar.

Formaya görə ümumi cəhətləri:

Fars dilində iltizam və əmr şəklinin yaranma yollarındakı oxşarlıq yalnız II şəxsin cəmindədir.Yəni, II şəxsin cəmində fel kökünə " بـ " hissəciyini və şəxs sonluğunu artırmaqla həm iltizam, həm də əmr şəkli düzəldilir.

İltizam şəkli Əmr şəkli

sadə fel: بپوشید بپوشید

düzəltmə fel: برگردید برگردید

mürəkkəb fel: صحبت کنید və ya صحبت بکنید صحبت کنید صحبت بکنید yavə صحبت کنید

Bu iki şəklin inkarının da düzəlmə yolları eynidir və bu şəkillərin inkarı fel kökünə نه[nə] inkar hissəciyinin artırılması ilə düzəlir.

İltizam şəkli Əmr şəkli

sadə fel: نپوشید نپوشید

düzəltmə fel:برنگردید برنگردید

mürəkkəb fel: صحبت نکنید صحبت نکنید

Formaya görə fərqli cəhətləri:

Əmr şəkli iltizam şəklindən fərqli olaraq yalnız ikinci II şəxsin təki və cəmində ifadə olunur. II şəxsin təkində və əmr şəklində olan felin sonuna şəxs sonluğu artırılmır.

İltizam şəkli: Əmr şəkli:

بخوانی بخوان

بخوری بخور

Bu iki şəklinin yaranma yollarının oxşar olmasına baxmayaraq əmr şəklində olan bəzi fellər II şəxsin təkində fərqli tələffüz olunur.

İltizam şəkli: Əmr şəkli:

بروی[berəvi] برو[berou]

بدوی[bedəvi] بدو[bedou]

Əmr şəklinin iltizam şəklindən fərqli olaraq keçmiş zamanı yoxdur.

İltizam şəklinin keçmiş zamanı aşağıdakı kimi düzəlir:

şəxs sonluğu + باش+ keçmiş zaman feli sifət

ما گته باشیم من گته باشم
شما گته باشید تو گته باشی
آنها گته باشند او گته باشد

Mənaya görə ümumi cəhətləri:

Əmr şəklində də iltizam şəklindəki kimi qeyri-müəyyənlik vardır.

Mənaya görə fərqli cəhətləri:

Yuxarıda qeyd etdiyimiz kimi iltizam şəkli niyyət, istək, ehtimal, şübhə və s. kimi emosional vəziyyəti, əmr şəkli isə əmr, tələb, xahiş və ya qadağa kimi vəziyyətləri ifadə edir. Əgər felin icra olunub olunmaması məlum deyilsə, bu zaman felin iltizam şəkli ifadə olunur. Əmr şəkli isə əmr cümlələrində ifadə olunur.

Bəlkə bunu oxumusan ? (iltizam şəkli) شاید این را بخوانی ؟

Bunu oxu. (əmr şəkli) این را بخوان .

Əmr şəklinin inkarı "qadağa" mənalı fel yaradır.

ننویست[nənevist] yazma

دیر نکنید[dir nəkonid] gecikməyin

Ümumiyyətlə, yuxarıdakı qeydlərdəndə məlumdur ki, müasir fars dilində felin iltizam şəkli ilə əmr şəkli arasında istər məna, istərsə də forma cəhətdən fərqli cəhətlər ümumi cəhətlərdən daha çoxdur.

MÜASİR FARS DİLİNDƏ İSMİN DİGƏR NİTQ HİSSƏLƏRİ İLƏ BİRLƏŞƏRƏK ƏMƏLƏ GƏTİRDİYİ MÜRƏKKƏB İSİMLƏR

Ağaliyev Anar
İran filologiyası kafedrasının magistrantı

Müasir fars dilində mövcud olan mürəkkəb isimlər iki üsulla – köməkçi vasitə ilə və köməkçi vasitəsiz əmələ gəlir. Köməkçi vasitə olmadan əmələ gələn mürəkkəb isimləri əmələ gətirən sözlər eyni nitq hissəsinə də, müxtəlif nitq hissələrinə də aid ola bilər. Fars dilində mövcud olan mürəkkəb isimlərin əmələ gəlməsində sadə isimlər fəal iştirak edir.

İsim və digər nitq hissələrinin yardımı ilə formalaşan mürəkkəb isimləri nitq hissələrinə əsasən bu formada qruplaşdırmışıq:

İsim + İsim modeli

Bu model quruluşuna görə 2 qrupa ayrılır:

1) İki xüsusi İsmin birləşməsi yolu ilə formalaşan mürəkkəb isimlər: غلامعلی - Qulaməli, محمدعلی - Məhəmmədəli, عزیزخانم - Əzizxanım, آقا ناصر - Ağanasir və s.

نازنین با سکوتش و لبخندش پاسخ عزیزخانم را داد و بعد پرسید.

(Nazənin sükut və təbəssümülə Əzizxanıma cavab verdi və sonra soruşdu.)

جواد نامه را گرفت و آقاناصر پاکت نقل را به عزیزخانم داد.

(Cavad məktubu aldı və Ağanasir noğul paketini Əzizxanıma verdi.)

2) İki ümumi İsmin birləşməsindən formalaşan mürəkkəb isimlər: رزمناو,qayın - برادرزن,qəzet - روزنامه,qayınata - پدرشوهر,xəstəxana - مریضخانه - hərbi gəmi və s.

زیرا همه می دانستند که معاون و مدیر شعبه برادرزن و داماد هستند.

(Çünki müavinlə şöbə müdürinin qayın - kürəkən olduğunu hamı bilirdi.)

روزنا مه های تازه در بغل وارد اتاق صاحبخانه شد.

(Yeni qəzetlər qoltuğunda ev sahibəsinin otağına daxil oldu.)

İsim+Fel modeli

1) İsim və fel kökündən əmələ gələn mürəkkəb isimlər iki qrupa bölünür:

a) Bu tip isimlər əsasən cansız məfhumu ifadə edərsə alət mənasını bildirən isimlər əmələ gətirir: هواپیما - təyyarə, شن کش - dırmıx, قندشکن - qəndsındıran və s.

وقتی داری از پیاده رو می روی بر عکس جهت ماشینها حرکت کنی می توانی مواظب جلو باشی .

(Səkidən getməkdə olanda maşınların əksinə hərəkət edəndə özünü qarşıdakından gözləyə bilərsən.)

b) Canlı məhfum bildirərsə, iş görəni bildirir:زمین شناس - geoloq, جاروب کش - süpürcəçi, زمامدار - məsul, دلدار - məşuqə , sevgili, راهنما- yol göstərən, bələdçi və s.

صحبت بابا عارف با خبرنگاری که از روزنامه آمده بود ، زیاد طول نکشید.

(Arif baba ilə redaksiyadan gələn müxbirin söhbəti uzun sürmədi.)

به سرنشین ها نگاه کرد ، همه غمگین و افسرده بودند.

(Sərnişinlərə baxdı, hamı qəmgin və yorğun idi.)

2) İsim və fel əsasında əmələ gələn mürəkkəb isimlər: سرنوشت - tale, bəxt, qismət, لبخند -təbəssüm, سرپرست - nəzarətçi; başçı, یادداشت - qeyd kağızı və s.

در مدرسه من هشتصد شاگرد درس می خوانند ، مشغول شدن با سرنوشت بچه ای که به

دفتر یادداشتش را از جیب بغلی در آورد و روی آن چیزهائی نوشت.

(Qoltuq cibindən qeyd dəftərini çıxardı və onun üzərində nəsə yazdı.)

همه چیز از آن روزی شروع شد که سرپرست آنها را عوض کردند.

(Hər şey onların rəhbərlərinin dəyişildiyi gündən etibarən başlandı.)

Sifət+İsim modeli

Bu model üzrə سرخاب - ənnik, سیاه زخم - qarayara, سیاه سرفه - göyöskürək, جوانمرد - alicənab, səxavətli, açıqürəkli və s. sözləri göstərmək olar. پیرمرد - qoca,

پیرزن محکم در خانه روبه رویی را میکوبید و در همان حال گریه میکرد و فریاد میزد.

(Qarı qarşısındakı evin qapısına möhkəm vurur, elə həmin vəziyyətdə ağlayır, fəryad edirdi.)

Say+İsim modeli

Bu model üzrə سه گوش - üçbucaq, چهارراه - dörd yolayrıcı, چهارپا یه - kətil, taburet, چهارچوب - çərçivə, هفت‌پیکر - yeddi gözəl və s. sözləri göstərmək olar.

وقتی ماشین در پیچ سر چهارراه ناپدید شد، به طرف خانه برگشت.

(Maşın dörd yolayrıcının döngəsində görünəndə evə tərəf qayıtdı.)

در باز شد و آبدارچی ، فضای خالی چهارچوب را پر کرد و گفت.

(Qapı açıldı və bufetçi çərçivənin boş olan hissəsini doldurdu və dedi.)

İsim+qısa Feli sifət modeli

Bu model üzrə مداد پاک کن - pozan (karandaşı), برف پاک کن - qarı təmizləyən (adam və ya maşın) və s. sözləri göstərmək olar.

در گذشته نبود برف پاک کن باعث به وجود آمدن مشکلات متعددی برای رانندگان میشد.

(Əvvəllər qar təmizləyicinin olmaması sürücülərin çoxlu problemlərinə səbəb olurdu).

HƏRBİ TERMİNOLOGİYANIN YARANMA TARİXİ VƏ ZƏRURİLİYİ

Öner Zeynəb
Ərəb filologiyası kafedrasının magistrantı

Terminologiya və ya terminoloji sözlər onların ifadəsi ilə əlaqəli nəzəri tədqiqat sahəsidir. "Terminlər" terminologiyanın bir hissəsi kimi, müəyyən praktikada istifadə olunan unikal təriflər toplusudur. Terminologiya, kontekst daxilində terminlərin tədqiqi və təhlili yolu ilə insan fəaliyyəti sahəsində və ya insanın maraq dairəsində olan anlayışların "adlandırılmasını" və "təyin edilməsini" sistematik şəkildə öyrənən rəsmi intizamı ifadə edir. Terminoloji tədqiqat bir və ya bir neçə dili əhatə edə bilər.

Termin bütün sahələr üzrə müəyyən bir mənası və qavramı olan sözlərə deyilir. Bunlar beynəlxalq səviyyəyə malik iş sahələrinin mütəxəssisləri tərəfindən siyahılandırılır və sinifləndirilir. Ümumi terminologiyanın bir qolu olan hərbi terminologiyaya nəzər salsaq görərik ki, hərbi terminologiya-buraya daxil olan bütün sözlərin, anlayışların qarşılığının əsaslandırılmış şəkildə müəyyən məna qazanan ifadələrin toplusudur və bu, hərbi lüğətlərə əsaslanır. Bu sahədə terminlər və terminoloji ifadələr bir-birindən olduqca fərqlənir. Buna səbəb terminlərin bir mənalı olaraq konkret bir anlayışı bildirməsidir. Terminoloji ifadələr isə bəzən öz mənasından çıxaraq yeni qazandığı mənanı təmsil edir.

Mövcud dövrdə dövlətimiz dünyanın bir çox ölkələri-Rusiya Federasiyası, Amerika Birləşmiş Ştatları, bir sıra Avropa ölkələri ilə hərbi-diplomatik əlaqələr qurmaqda və daha da genişləndirməkdədir. Bundan əlavə, yaxın keçmişdən günümüzə qədər maraq dairəmizin Yaxın Şərq ölkələrinə çevrilməsi nəzərə çarpır. Bu dövlətlərin ilk sıralarında İsrailin olması heç də təsadüfi deyil. Keçmişdən gələn bir tarixi əlaqələrin təsiri nəticəsində dünyanın bir çox dövlətlərini üstələyən İsrail ilə siyasi, diplomatik, iqtisadi və ən əsası hərbi sahələrdə və qarşılıqlı əlaqələrdə böyük irəliləyişlər qət edilmişdir.

Xüsusilə hərbi sahədə yəni, kəşfiyyat, kadrlar mübadiləsi və müdafiəsi, təhlükəsizlik mövzularında çox vacib addımlar atılmışdır. İqtisadi əlaqələrin inkişaf etməsi və ticarət həcminin artması ilə yanaşı, bundan daha çox təsirlənən sahələrin başında müdafiə sənayesi gəlir. Qeyd etdiyimiz kimi, hərbi sənaye sahəsinin əlaqələrinin gündən günə inkişafı hərbi terminologiyanın da təkmilləşməsini özü ilə bərabərində gətirir. Belə ki, hərbi terminologiya özlüyündə hərbinin bütün sahələrini cəmləşdirmişdir. Bu hərbi sahələr ümumi olaraq İsrail Müdafiə Ordusu- צבא ההגנה לישראל[Tsava hahaqana leyisraiel] adlanır. Buraya Quru qoşunları, Hərbi Hava qüvvələri, Hava hücumundan Müdafiə qüvvələri, Hərbi Dəniz qüvvələri aiddir. Digər dövlətlərdən fərqli olaraq sadaladığımız bütün hərbi qüvvələr sahəsində eyni rütbələrdən istifadə olunur.

1948-ci ildə İsrail dövləti yarandıqdan sonra ordunun vahid hala gətirilməsi böyük irəliləyişlərin nəticəsidir. Həmin tarixdə sərhəd ərəb ölkələri ilə başlayan eyni zamanlı müharibə hərbi sənayenin inkişafını qaçılmaz qıldı. Bir müddət sonra isə, texnologiyanın inkişafı ilə də təkmilləşən və daha da professional hala gələn hərbi qurğular canlı qüvvənin daha az itki verməsinə xidmət etməyə başladı. Qeyd etdiyimiz kimi, bunların inkişafı ilə də hərbi terminologiyanın yenilənməsi, yeni anlayışların əlavə edilməsi və onların yeni məfhum qazanması gözləniləndir.

1967-ci ilə qədər İbri dilində hərbi sənayeyə aid sözlər, başqa sözlə desək ordu dili çatışmazlığı var idi. Müasir ibri dilinin inkişafının əsas tendensiyalarından biri ordunun xüsusi dilinin sürətlə inkişafında ifadə olunur. Bu da ümumiyyətlə rəsmi dilə və milliliyin formalaşmasına əhəmiyyətli təsir göstərir.

1987-ci ilə qədər isə İsrail ibri dilində hərbi sahəyə aid söz ehtiyatını hələ doldurmamışdı. Bu ildən etibarən dilə yeni və mürəkkəb anlayışlar gətirildi. Mövcud yeni reallıq (silahlı qarşıdurmalar, hücumların dəf edilməsi və s.) bunları tələb edirdi. Sürətli, qısa və rəqabətədavamlı informasiya təminatının lazım olduğu zaman ən uyğun termindən istifadə effektiv silah hesab olunurdu. Bu məqsədlə ən uğurlu terminlər üçün daima axtarış aparılır.

RZAQULU XAN HİDAYƏTİN HƏYATI VƏ BƏDİİ İRSİ

Quliyeva Həmidə
İran filologiyası kafedrasının magistrantı

Görkəmli İran şairi, ədəbiyyatşünası, dövlət və ictimai xadimi, təzkirə yaradıcılığının əsasını qoyanlardan biri olan Rzaqulu xan Hidayət 1215-ci (1800) ildə Tehranda anadan olmuşdur. Ailəsi İranın qədim və tanınmış ailələrindən biri idi. Ailə XIV əsrdə yaşamış Hafiz Şirazinin müasiri görkəmli sufi şairi Kamal Xocəndinin nəslindən olduqlarını iddia edir. Onlar Damğan şəhərinin yaxınlığında yerləşən Kələnə qəsəbəsində yaşamış, uzun müddət Qacarlar sülaləsi ilə sıx əlaqələri və onların qatı tərəfdarı olmuşlar.

Rzaqulu xanın babası Damğan şəhərində tayfa başçısı, atası isə Qacar sarayında yüksək vəzifəli məmur idi.

Rzaqulu xan çox kiçik yaşlarında – iki yaşında olarkən atasını, bir müddət sonra isə anasını itirir. Anasının vəfatından həddindən artıq təsirlənən kiçik Rzaqulu onun ölümündən sonra çox gənc yaşlarından şeir yazmağa başlayır. O, uşaqlıq və yeniyetməlik illərini Şirazda ögey atası Məhəmməd Mehdi xanla birlikdə keçirir, təhsilini başa vurduqdan sonra fars general-qubernatorunun yanında işə başlayır. Onun yüksəlməsində qubernatorun böyük rolu olmuşdur.

İlk şeirlərində Çakər (qul, kölə, qulluqçu, xidmətçi, nökər, bəndə) təxəllüsündən istifadə edən gənc şair, daha sonra Hidayət (doğru yol, düz yol, haqq yol) təxəllüsünü götürür.

1829-cu ildə Fətəli şah Şiraza gələrkən 29 yaşlı Hidayət onun qarşısında bir neçə şeirini oxuyur və şaha həsr etdiyi bir qəsidəsini də ona təqdim edir. Şah ona "Xan" rütbəsi verərək, sarayda Əmirəşşüara (şairlər başçısı) vəzifəsinə təyin edir. Lakin Rzaqulu xan həmin vaxtlar ağır xəstə olduğu üçün Tehrana gedə bilmir. Sonralar Məhəmməd və Nəsrəddin şah tərəfindən şahzadələri öyrətmək əmri aldığından o dövrdə "Lələbaşı" ləqəbi ilə tanınır.

1851-ci ildə Nəsrəddin şah onu yenidən xidmətə çağıraraq Xarəzmə səfir göndərir. Bir qədər sonra isə Rzaqulu xan Hidayət əvvəlcə Maarif Nazirinin müavini, sonra isə yeni yaradılmış Darülfünun kollecinə müdir təyin edilir. O, 15 ilə yaxın həmin kollecdə işləyir. Sonra Azərbaycan valisi Müzəffərəddin Mirzənin hamisi kimi Təbrizə gedir.

Mərhəməti, gözəl əxlaqı və hazırcavablığı ilə tanınan Rzaqulu xan Hidayət Müzəffərəddin Mirzə on səkkiz yaşına çatandan sonra Tehrana qayıdır və 29 iyun 1871-ci ildə 71 yaşında orada vəfat edir.

Rzaqulu xan Hidayət təhsil, təlim və idarəçilik işləri ilə yanaşı, Elxanilər dövründən sonra İranın yetişdirdiyi özünəməxsus yaradıcılığa malik məhsuldar şair və alim kimi də tanınmışdır. O, özündən sonra istər elm, istər tarixşünaslıq, istərsə də ədəbi yartadıcılığı ilə bağlı zəngin irs qoyub getmişdir

Rzaqulu xan Hidayətin şəxsiyyəti, yaradıcılığı və fəaliyyəti yaşadığı dövrdə yüksək dəyərləndirilmişdir. O, fars poeziyasının saflığı uğrunda mübarizə aparan, onu yad təsirlərdən təmizləməyə və qorumağa çalışan, əvvəlki dövrlərin üslubunu təbliğ edən bazgəşt-e ədəbi, "ədəbi qayıdış hərəkatı"nın fəal üzvlərindən biri olmuşdur.

Onun tarix sahəsindəki yazıları Qacarlar dövrünün ədəbi və siyasi tarixinin öyrənilməsi sahəsində əsas mənbə olaraq qalır.

Rzaqulu xan Hidayətin üslubu çox sadə və axıcıdır. O şair, yazıçı və nasir kimi öz fəaliyyəti ilə müasir elm ilə klassik poeziya, tarixşünaslıq ənənələri arasında möhkəm əlaqə - körpü yaratmışdır.

Şairin zəngin ədəbi irsinin böyük hissəsi, xüsusən də şeirləri hələ də çap olunmamış qalmaqdadır. Rzaqulu xanın ədəbi irsi 50 min beytlik divandan, "Gülüstani-İrəm", yaxud "Bektaşnamə" adlanan romantik poemasından və 6 məsnəvidən ibarətdir.

Bir təzkirə ustası kimi onun adı Yaxın və Orta Şərq ədəbiyyatında tanınmış təzkirə müəllifləri – Qətran Təbrizi, Xətib Təbrizi, Şah İsmayıl Xətai, Qazi Bürhanəddin, Məhəmməd Əmani, Marağalı Əvəhədi, Fəzlullah Nəimi, Qövsi Təbrizi, Dövlətşah Səmərqəndi, Həqiqi, Süruri, Əlişir Nəvai, Qövsi Təbrizi, Mahmud Şəbüstəri, Arif Ərdəbili, Mirzə Cahanşah Həqiqi, Razi ilə birgə çəkilir.

Rzaqulu xan Hidayətin yaradıcılığı rəngarəng və hərtəfəfli olmuşdur. Belə ki, onun yaradıcılığı sadəcə, bədii yaradıcılıqla çərçivəyə alınmamış, elmi və pedaqoji fəaliyyəti ilə də bağlı yazmışdır. Bu yazımızda onun əlimizdə olan bir neçə əsəri haqqında qısaca məlumat verəcəyik.

Rövzətüs-Səfayi-Nasiri. Üç cilddən ibarət olan bu əsər İranlı tarixçi, Teymurilər sarayında saray tarixşünaslığı məktəbinin nümayəndələrindən biri olan Mirxondun – Məhəmməd ibn Xondşah ibn Mahmudun "Rövzət əs-səfa" əsərini 1853-cü ilə qədər gətirən, əksəriyyəti nəşr olunmamış mənbələrə malik rəsmi sənədlərə əsaslanan 60.000 beytdən ibarət bir əsərdir. Burada təkcə siyasi hadisələr deyil, həm də coğrafiya, ədəbiyyat və incəsənətlə bağlı məlumatlara da geniş yer verilmişdir. Bir tarixçi kimi Hidayətin ən məşhur əsəri sayılır. Qacar sülaləsinin tarixi haqqında zəngin məlumatlarla dolu və ilk mənbə kimi məlum olan çox əhəmiyyətli əsərdir. Buradakı xronoloji məlumatlar əsasən dərsliklər üçün nəzərdə tutulmuşdur.

Məcməül-füsəha. Bu təzkirəni Hidayət hicri 1284-cü (m.1867-68) ildə yazıb. Əsərdə 867 İran şairinin tərcümeyi-halı və şeirlərindən nümunələrin yer aldığı əsər İran poeziya tarixinin başlıca istinad mənbələrindən sayılır. Müəllifin bu təzkirəsi 1295-ci (1877) ildə Tehranda çap edilmişdir. Nəsrəddin Şah, bir sıra digər şahlar, onların oğulları – İran taxt-tacının sahibi və ya varisi şahzadələr, eləcə də farsca yazan bir çox şairlərə həsr olunmuş bu əsər bir müqəddimə və dörd fəsildən ibarətdir. Əsər 30 ildə yazılıb tamamlanmışdır.

"Məcməül-füsəha" təzkirə formasında yazılmış, iki cilddən ibarətdir. Birinci cilddə VIII əsrə qədər yazıb-yaradan şah və şahzadələrin, İranın ilk

şairlərinin tərcümeyi-hallarına, ikinci cilddə isə 1284-cü ilə qədərki və müasiri olan şairlərin tərcümeyi-halları və yaradıcılığından bəhs olunur. Hidayət bu kitabını tərtib edərkən əksər hallarda şairlərin xatirələrindən də istifadə etmişdir. Farsdilli şairlərin ən böyük memuar əsəri olduğundan fars şeirinin mühüm qaynaqlarından hesab olunur. Memuarda bir sıra müəllifləri məlum olmayan şeirlər də qorunub saxlanılır.

Fərhəng-e Əncomən-e Araye Naseri. Bu kitab 1288-ci ildə yazılıb başa çatdırılmışdır. Kitabda sözlərin izah edildiyi iyirmi dörd fəsil var. Əsərdə müqəddimədən sonra müxtəlif lüğətlərdən tərtib edilmiş sözlər və köhnə şairlərdən seçilmiş misralar verilmişdir.

Riyazül-arifin. 1260-cı ildə (1844) yazılan və Qacar Məhəmməd şaha təqdim edilən əsərdə farsca yazan 354 sufi şairi və filosofunun tərcümeyi-halı yer alır. Ön söz və dörd fəsildən ibarət olan kitabın tərtibində "Təzkirətül övliyə", "Məcalis ən-Nəfais", "Nəfhətül – Əshar", Tezkire-ye Dövlətşah kimi mənbələrdən istifadə edilmişdir.

Divan. Rzaqulu xan Hidayətin 50.000 beytlik divanı da əlimizə gəlib çatmışdır ki, burada şairin qəzəl və qəsidələri toplanmışdır. Maraqlıdır ki, həmin "Divan" İranda çap olunmadığı halda, əsərin orijinalı bu gün Britaniya Muzeyində qorunub saxlanılır.

Görkəmli şair, nasir, tarixçi və pedaqoqun zəngin irsinin tərcümə və nəşr edilərək mütəxəssislərə çatdırılması, zənnimizcə, bu gün mühüm və aktual məsələ kimi qarşıda durur.

YAPON DİLİNDƏ FEİLİN ŞƏRT ŞƏKLİ

Lamiyə Sadiqova
Uzaq Şərq dilləri və ədəbiyyatı kafedrasının magistrantı

Dilçilik ədəbiyyatında feil tarixən az dəyişikliyə uğrayan və ən davamlı qrammatik kateqoriyadır. Dildə əhəmiyyəti, zəngin leksik-semantik və qrammatik məna ifadə etməsi ilə digər nitq hissələrindən fərqlənir. Feil hər hansı bir dilin təşəkkül və inkişaf tarixini, onun qrammatik təbiətinin öyrənilməsi baxımından çox əhəmiyyətlidir.

Azərbaycan dilində feil digər nitq hissələri ilə müqayisədə özünün qədimliliyi, milliliyi, qrammatik kateqoriyalarının zənginliyinə görə birinci yerdə durur (1, s 268). Türk dillərində o cümlədən Azərbaycan dilində feil sintaktik funksiyalarına, morfoloji xüsusiyyətlərinə görə əhatəli şəkildə tədqiq olunmuşdur. Yapon dilində də Azərbaycan dilində olduğu kimi bu sahədə hərtərəfli araşdırmalar aparılmışdır. Amma buna baxmayaraq bu proses bu gün də davam edir. Ümumiyyətlə demək olar ki, dünya dillərinin içərisində elə bir dil yoxdur ki, onun leksik tərkibində feil haqqında bu cür araşdırmalar, tədqiqatlar olmasın. Bütün dünya dillərində feil hər zaman diqqət mərkəzində olmuşdur (2, s 242).

Azərbaycan dilində də feil əşyanın hərəkətini, hal və vəziyyətini, tərzini, prosesini və s. bildirən nitq hissəsidir. Həmçinin yapon dilində feil əşyanın hərəkətini, tərzini, prosesini bildirir. Yapon dilində feil 動詞 (douşi) adlanır. Yapon dilində azərbaycan dilindən fərqli olaraq 4 əsas şərt bildirən ifadə formaları vardır. Hər birinin özünəməxsus işlənmə yeri və mənaları vardır. Yapon dilində isə əsas şərt bildirən ifadələr: **と (to), ば (ba), たら(tara), なら (nara).**

「と」(to) şərt ifadəsi:

Bildiyimiz kimi, 4 əsas şərt bildirən ifadələr vardır və bunların biri də「**と」(to)** dur. Bu şərt bildirən ifadə vasitəsi ancaq feilin lüğət formasına「**辞書形**」(jishokei)「**と**」əlavə etməklə düzəlir.

1)　車はガソリンが無くなると、止まります。 Kuruma ha gasorin ga nakunaruto, tomarimasu. Maşının benzini bitəndə dayanır (3, s 254).

「ば」(ba) şərt ifadəsi:

Yapon dilində şərt bildirən ifadə vasitələrindən biri də **ば (ba)** ilə yazılan cümlələrdir. **ば (ba)** formasını digər şərt formalarından fərqləndirən cəhəti keçmiş zaman bildirən cümlələrdə işlənməsidir. Lakin

burada da müstəsna hallar vardır. Əgər cümlədəki keçmişdə vərdişə çevrilmiş ənənə olsa və ya qeyri-real təsvir, güman bildirərsə「ば」**(ba)** işlənə bilər.

1. 雨が降れば，うちで本を読むつもりですが，雨が降らなければ，友達と海へ行くつもりです・Ame ga fureba, uchi de hon o yomu tsumoridesuga, ame ga furanakereba, tomodachi to umi he iku tsumoridesu (4, s 350).

Yağış yağsa, evdə kitab oxuyacağam, amma, yağış yağmasa, dostumla dənizə gedəcəyəm.

「たら」(tara) şərt ifadəsi:

Yapon dilində şərt bildirən ifadə vasitələrindən biri də**「たら」(tara)** formasıdır.**「たら」(tara)「ば」 (ba)** formasına nisbətən danışıq dilində cox istifadə olunur.**「たら」(tara)** forması sözlərin (takei) formasına**「ら」(ra)** əlavə etməklə düzəlir.**「た形+ら」**

1. 山田さん，授業が終わったら映画を見に行きませんか? Yamada san, jugyou ga ovattara eiga o mini ikimasenka? Cənab Yamada, dərs qurtarandan sonra kinoya gedək?

「なら」(nara) şərt ifadəsi:

「なら」(nara) da yapon dilində şərt bildirən ifadə vasitələrindən biridir. Bu formanın xüsusi cəhəti ondan ibarətdir ki, bu ifadə ilə düzələn cümlələr söhbət zamanı tərəf müqabilinə cavab kimi işlənir.**「なら」(nara)** felillərin lüğət formasına (jishokei), isimlərə, sifətlərə, inkarda olan sözlərə, hətta keçmiş zamanda olan sözlərə artırmaqla düzəlir:

1. 北海道へ行くなら，彼に連絡したほうがいいよ・ Hokkaidou he ikunara, kare ni renraku shita hou ga ii yo. Hokkaydoya gedirsənsə, ona zəng etməyin yaxşıdır (5, s 396).

İstər Azərbaycan, istərsə də yapon dilində feilin şəkilləri haqqında söhbət gedərkən fikir ayrılığı daha qabarıq şəkildə nəzərə çarpır. Dilçilik ədəbiyyatında feil tarixən az dəyişikliyə uğrayan və ən davamlı qrammatik kateqoriyadır. Dildə əhəmiyyəti, zəngin leksik-semantik və qrammatik məna ifadə etməsi ilə digər nitq hissələrindən fərqlənir. Feil hər hansı bir dilin təşəkkül və inkişaf tarixini, onun qrammatik təbiətinin öyrənilməsi baxımından çox əhəmiyyətli olduğu üçün bu tezisin obyekti kimi yapon və Azərbaycan dillərinin feilləri seçilmişdir.

ƏRƏB ƏLYAZMALARI VƏ ƏRƏB ƏLYAZMA ƏNƏNƏSİ

Eyvazova İrina
Ərəb filologiyası kafedrasının üzrə magistrantı

Ərəb filologiyası yarandığı ilk günlərdən ərəb əlyazmalarının tədqiqi ilə sıx bağlı olmuşdur.O, Avropada şərq elmi kimi inkişaf etmiş, əsasən ərəb ədəbi və bu dildə yazılmış əlyazma abidələrini öyrənmişdir. XIX əsrdən ərəb filologiyasının digər sahələri (dialektologiya,folklor,kitabəşünaslıq,müasir ədəbiyyat və s.) inkişaf etməyə başladı, əlyazmaların tədqiqi ən görkəmli yer tutmaqda davam etdi.

Əlyazma ərəb mətnləri təkcə dilinə və icra texnikasına görə deyil, həm də aralarındakı dərin daxili əlaqələrə görə müəyyən bir bütövlük təşkil edir. Onları birləşdirən ümumi cəhətləri müxtəlif səviyyələrdə izləmək olar: məzmun (əlyazma abidələrdə olan məlumatların həcmi, xarakteri və strukturunda), formal (mətnlərin sifarişi və təqdimetmə üsullarında), texniki(istehsal və dizaynda). Bu xüsusiyyətlər XX əsrə qədər uzun bir xronoloji dövr ərzində özünü göstərir. Ərəb əlyazma mətnlərinin böyük əksəriyyəti vahid ənənəyə aiddir.

Ərəb əlyazmaları mənşə xüsusiyyətinə görə üç qrupa bölünür:

1) yazılı şəkildə sabitlənmiş şifahi ədəbiyyat əsərləri,
2) başqa dillərdən tərcümələr,
3) ərəb dilində bilavasitə yazılı şəkildə yaradılmış əsərlər.

Birinci qrupa İslamdan əvvəlki dövrlərə və İslamın ilkin dövrünə aid ərəb şairlərinin əsərləri,Quran və ilk İslam ənənələri daxildir.

Erkən dövr mətnlərinin bu üç qrupu orta əsr ərəb kitab yazısının ilkin fondunu təşkil edirdi. Ərəb əlyazmalarında digər güclü birləşdirici və sabitləşdirici amil dilin və qrafikanın normallaşdırılması idi.

Əlyazma kitabının bir çox keyfiyyətləri, tərifinə görə, dil və yazı ilə şərtlənir. Dil və qrafika sisteminin dəyişməz (daha doğrusu dar çərçivədə dəyişən) normalarının sərt şəkildə təsbit edilməsinin nəticəsi o oldu ki, bir qədər fərqli olan müxtəlif dövr və bölgələrin yazılı abidələri həmişə savadlı oxucu üçün əlçatan olsun. İstənilən məkan və zaman məsafəsində əlyazma ənənəsini götürüb yenidən davam etdirmək mümkün olsun.

Ərəb əlyazması-kitab ənənəsi öz intensivliyi ilə seçilir və bir sıra səbəb və şəraitin nəticəsi olan nəhəng istehsala səbəb olur. Bunlardan ən mühümü onun qədim zamanlardan zəngin təbii sərvətlərin və böyük əhali kütləsinin cəmləşdiyi geniş ərazidə uzun müddət mövcudluğu, yazılı abidələrin ilkin fondunun əhəmiyyətli həcmi və müxtəlifliyi idi.

Ayrı-ayrı əlyazmaların və bütövlükdə əlyazma ənənəsinin dialektik birliyi və qarşılıqlı əlaqəsi anlayışı mövzunun mahiyyətini əks etdirir. Onun işığında bir sıra ərəbşünaslıq problemlərini yenidən nəzərdən keçirmək,

onları əvvəlkindən fərqli müstəvidə qoyub həll etmək, bəzilərini isə tamamilə yeni tərzdə şərh etmək mümkün və bəzən zəruri olur.

Ərəb əlyazmasının maddi mədəniyyət obyekti kimi spesifikliyi istehsal yeri və vaxtı ilə son dərəcə fərqlənən maddi xüsusiyyətlərin məcmusu ilə müəyyən edilir. O, kağız, üzlükdə qapaq olması, dizaynı, ornamentasiyası və digər detalları ilə seçilir. Əl yazısının gözəlliyinə, yazının estetik məziyyətlərinə böyük əhəmiyyət verilirdi ki, bu da ərəb kitabının əsas bəzəyi hesab olunurdu.

Ərəb əlyazmalarının yaradıcıları əvvəlki sivilizasiyaların təcrübəsinə əsaslanmış, onu toplanmış, əlavə etmiş və layiqli səviyyədə saxlamışlar. Digər tərəfdən ərəblərlə qonşuluqda və uzunmüddətli əlaqədə olan xalqlar artıq X əsrdən ərəb əlyazma-kitab mədəniyyətinin təsirini yaşamağa başladı. Bütün müsəlman xalqları arasında güclü ərəb təsiri altında öz ana dilində əlyazma-kitab yarandı və inkişaf etdi. Yaxın Şərqdəki xristianların və yəhudilərin kitab ənənələri nəzərə çarpacaq dərəcədə dəyişdirildi.

Ərəb əlyazmalarının əsas hissəsinin saxlanıldığı Şərq ölkələrində kataloqlaşdırma işləri XIX əsrin son rübündə başlanmış, nizamsız və ardıcıl aparılmışdır. Milli azadlıq mübarizəsi və müstəmləkəsizləşdirmə prosesində bu ölkələrin siyasi müstəqillik əldə etməsindən sonra bu məsələdə nəzərə çarpacaq dəyişiklik baş verdi. Ərəb əlyazmaları kolleksiyası olan demək olar ki, bütün ölkələr öz kataloqlarını və ya ən azı icmallarını dərc etməyə başlayıblar.

FRAZEOLOJİ SİSTEM VƏ ONUN XÜSUSİYYƏTLƏRİ

Rzayeva Leyla
İran filologiyası kafedrasının magistrantı

Bir sıra tədqiqatçılar, o cümlədən bizim üçün frazeologiyanın obyekti isti- fadə ilə müəyyən edilmiş dəyişikliklər çərçivəsində çoxaldılmış sözlərin seman- tik cəhətdən transformasiya olunmuş sabit birləşmələridir. Fars dilində bunlar çox vaxt tamamilə və ya qismən yenidən düşünülmüş ifadələrdir ki, onlar sərbəst "analoqlarının" hərfi mənası ilə müqayisədə semantik elementlərin yeni birləşmələri ilə xarakterizə olunur. Dilin leksik vasitələrindən fərqli olaraq, bunlar xüsusi ikinci dərəcəli nominasiyanın törəmələri kimi daha mürəkkəb dil vahid- ləridir, müəyyən qurulmuş dünyanı obrazlı qavrayış sistemini, qiymətləndir- mələri və konnotasiyaları çatdırır.

Frazeologizmlər obrazlı və ifadəli ifadə vasitəsi kimi çıxış edir - bu, fraze-oloji vahidlərin əsas funksiyasıdır. Bu funksiya fars dilində açıq şəkildə özünü göstərir, çünki obrazlılıq dünyagörüşünün özünün, iranlıların dünyagörüşünün xarakterik xüsusiyyətidir. Əsərləri hərfi mənada frazeologiya ilə doymuş iranlı bədii söz ustadları öz dillərinin, xalqlarının bu xüsusiyyətini aydın şəkildə əks etdirirdilər.

Bundan əlavə, frazeoloji vahidlər kommunikativ (ünsiyyət və ya mesaj vasitəsi kimi), nominativ və idrak (idrak) funksiyasını yerinə yetirir. Bu üç funksiya bir-biri ilə sıx bağlıdır və birlik təşkil edir. Nominativ funksiya dilin leksik sistemindəki boşluqların doldurulması ilə xarakterizə olunur: bir sıra frazeoloji vahidlərin leksik sinonimləri yoxdur.

Frazeoloji vahidlərin mühüm funksiyası kumulyativdir, çünki bir çox fraze- oloji vahidlərin daxili forması milli və mədəni xüsusiyyətləri əks etdirir. Mədəniy- yət xalqın bir növ tarixi yaddaşıdır. Dil isə kumulyativ funksiyası sayə-sində onu qoruyub saxlayır, nəsillər arasında dialoqu təmin edir. Frazeologiyanın antro- posentrik xarakteri bir çox dilçilər tərəfindən qeyd edilmişdir. Həqiqətən də frazeoloji semantika əsasən insanla, onun dünyagörüşü və dünyagörüşü ilə, reallığı emosional-ekspressiv-qiymətləndirici qavrayışı ilə bağlıdır.

Frazeologiyanın ardıcıllığı əksər tədqiqatçılar tərəfindən tanınır. Frazeoloji vahidlər üçün ümumi xüsusiyyətlər onları sistem münasibətləri ilə əlaqələndirir. Frazeoloji vahidlərin komponentləri arasında sistem əlaqələri, frazeoloji vahidlər arasında sistem əlaqələri, frazeoloji vahidlərlə digər dil səviyyələrinin vahidləri arasında sistem əlaqələri mövcuddur.

Frazeologiyanın sistemliliyinin inandırıcı sübutları bunlardır: variasiya, sinonimiya, frazeoloji polisemiya, frazeoloji törəmə, frazeoloji semantik sahələr, struktur-qrammatik və məhdud dərəcədə frazeoloji modelləşdirmə.

Frazeoloji sistem dilin leksik və qrammatik sistemləri ilə sıx əlaqədə olur. Fars dilinin leksik və qrammatik xüsusiyyətləri onun frazeoloji

sisteminin də xüsusiyyətləridir. Fars dilinin tələffüz analitik mahiyyəti: onun tərkibində mürəkkəb təsvir formalarının, çoxlu sayda köməkçi sözlərin (ön sözlər, son sözlər) və qrammatik əlaqələri bildirmək üçün izafətin olması (morfologiyası çox zəif olduğundan) fars frazeologiyasına da xasdır.

Frazeoloji vahidlərin komponentlərinin şifahi (leksemik) mahiyyəti artıq az adam tərəfindən mübahisələndirilir. Komponent sözlərin leksik mənalarının zəifləməsinin ən çox baş verdiyi frazeoloji birləşmələrdə belə yenə də söz olaraq qalır.

Frazeoloji sistemin əsasını dilin frazeoloji fondu təşkil edir. Frazeologiya- nın xüsusiyyətlərinin tam dəstinə malik olan frazeoloji vahidlər frazeoloji fondun özəyi və mərkəzinə aiddir, yəni. semantik cəhətdən dəyişdirilmiş, sabit təkrarlanan, ayrıca tərtib edilmiş dil vahidləri. Vurğulamaq lazımdır ki, dilin əsas frazeoloji fonduna istər özək, istər mərkəz, istərsə də periferiya olsun, yalnız linqvomədəni birliyin müxtəlif nümayəndələri arasında geniş işlənən yüksək funksional aktivliyə malik frazeoloji vahidlər daxildir.

Frazeoloji sistem mürəkkəb və ziddiyyətlidir. Harmoniya və mükəmməl- likdən uzaqdır, həm nizamlılığı, həm də nizamsızlığı ilə xarakterizə olunur. Frazeoloji sistemin əsas ziddiyyəti frazeoloji vahidlərin məna bütövlüyü ilə strukturun ayrı-ayrı strukturu arasındakı uyğunsuzluqdur. Sistemin qeyri-səlisliyi həm nominativ məna formalaşması proseslərinin qeyri-qanuniliyinə, həm də sintaktik və morfoloji formaların həyata keçirilməsində məhdudiyyətlərə təsir göstərir. Çarlz Balli yazırdı: “Sistemdəki hər şey bir-biri ilə bağlıdır... Lakin bu ümumi baxış dilin simmetrik və ahəngdar bir quruluş kimi ideyasına gətirib çıxararsa, bu, kobud səhv olardı”. Qarşılıqlı əlaqə sistemi müəyyən edən açar sözdür.

Frazeoloji sistemi biz bir-biri ilə əlaqəli ifadələrin birliyi kimi başa düşürük.

AHARON APPELFELDİN "KATERİNA" ROMANI

Hüseynli Aydan Fuad qızı
Ərəb filologiyası kafedrasının magistrantı

Aharon Appelfeld 1932-ci il 16 fevral tarixində indiki Ukrayna ərazisində dünyaya gözlərini açmış yəhudi əsilli görkəmli yazarlardandır. Təsadüf əsəri nasist düşərgəsindən sağ çıxmağı bacaran Appelfeld 1941ci ildə hələ 9 yaşında ikən anasını itirir, özü isə atası ilə birlikdə Rumıniyanın nəzarətində olan əmək düşərgəsinə gətirilir. O Sovet ordusuna aşbaz olaraq verilmədən əvvəl üç il müddətində qaçıb gizlənməyi bacarmışdı. 1960cı illərdə İsrail Yəhudi agentliyinin siyahısında adını tapdıqdan sonra atası ilə yenidən qovuşur. İkisi də bir birlərinin Holokostda öldürüldüyünü düşünərək yaşadıqlarından bu birləşmə çox acıqlı bir səhnəyə çevrilmişdi, hətta o qədər emosional bir qovuşma idi ki Appelfeld bunun haqqında heç vaxt yazmadı. O əsərlərini sonradan Tel-Aviv yəhudi universitetində öyrəndiyi yəhudi dilində yazırdı. Holokostda yəhudilərin çəkdiyi əzablar səbəbi ilə özünü heç vaxt ana dili olan Alman dilində yazmağa hazır hiss etmədi. Aharon Appelfeld 2018ci il 4 yanvar tarixində vəfat etdi. O 1989da bitirdiyi "Katerina" əsərində digər əsərlərinin əksəriyyətində olduğu kimi müharibənin acılarından bəhs etmiş, lakin bunu bir yəhudi yox, uşaqlıqdan yəhudilərə nifrətlə böyüdülsə də Yəhudilərə rəğbət və mərhəmət bəsləyən Rutenli Katerinanın dilindən təsvir etmişdir. Əsər Katerinanın "Mənim adım Katerinadır, mənim 80 yaşım var və budur, mən burdan başqa bir ev qalmayan öz kəndmdə, evimdəyəm,gözlərim artıq çox zəifləmişdi lakin uşaqlıqdan qalma yaşıllığın hələ də önümdə sərildiyini görürdüm, kim deyərdi ki mən bir daha buraya geri dönərəm ata sözündə də deyildiyi kimi su axdığı çaya geri döndü. Nə yazıq ki, ölülərin danışması qadağandır, deyəcəkləri olduğuna əminəm. Amma günlər gözəl və möhtəşəmdir. Pəncərə açıq, gözlərim oyaq olduğu müddətcə, yalnızlıq ruhumu üzməz." sözləri ilə başlayır. Katerina uşaqkən anası ilə bazara gedər və orada yəhudi tacirləri görərdi, yəhudiləri heçkim sevməzdi, və Katerina anasından bunun səbəbini soruşduqda anası ona "Çünki onlar İsanı öldürüblər, onlar lənətlənmişdilər" deyə cavab verər və Katerina bir daha bu haqqda sual etməzdi. Katerina 8 yaşında anasını itirir, və anasının ölümünü sanki fürsət bilib hər gün içkiyə qurşanan atası ilə qalmağa başlayır, atasının ikinci evliliyindən olan qadın da Katerinaya heç mülayim davranmazdı. Və sonda Katerina bütün bunlara dözmür və evdən qaçır, bir qatara minir və burada bir qadın ona iş təklif edir, qorxmuş və pula ehtiyyacı olan qızcığaz təklifi qəbul edir, və bu yəhudi qadının evində xidmətçi olaraq işləməyə başlayır,Katerina o evdə qadın, 2 oğlu Musa və İbrahim, və qadının yoldaşı Benjamin ilə birlikdə qalır, burada o yəhudilərin adət ənənələriylə tanış olur, oğlanlar ona İdiş dilini öyrədir, evin işlərini görür və günləri beləcə keçirdi. Yəhudilər səssizliyini daim qoruyar, lazım olmadıqca danışmaz, sütlə əti bir

birbirinə qatmaz, bayramlarda dualar oxuyardılar. Katerina həftədə bir bara gedib içki içərdi,o burada tanış olduğu insanlarla yaxınlaşardı. Bu yaxnlaşmadan onun bir qızı dünyaya gəlir, yəhudilərin qatı qanunlarının olduğunu bildiyi üçün əvvəlcə bunu ev sahibəsindən gizlətsə də sonradan açıqlamalı olur və gözlədiyinin əksinə bir rəftarla qarşılaşır. Ev sahibəsi uşağı bir kilsəyə bağışlamasını və rahibə olaraq yetişdirilməsini təklif edir, çarəsiz Katerina belə də edir. Qızının adını Anjelina qoyur və onu əbədiyyən qəlbinə həbs edir. Yəhudi ailə ilə qalmağa davam edən Katerina evin sahibi Rose'un həyat yoldaşına gizlidən gizliyə bağlanır, amma bunu dilə gətirməyə heçvaxt cəsarət etmir. Bu zamanlarda hər Pasxada bir yəhudi qurban verilərdi, və bu dəfə sıra Benjaminə gəlib çatmışdı. Yəhudilərin qorxaqlığını uşaqlıqdan bəri eşidən Katerina sabah ailənin əşyalarını alıb qaçacacağına heç şübhə etmirdi, lakin səhər oyandıqda heçkimin getmədiyini görüb, çox təəccüblənir. Axşam gözlənilənin əksi olmur və Bemjamin qətl olunur. Katerina gizlicə sevdiyi bu adamın ölümündən çox təsirlənir, və bir yəhudiyə qarşı bu hissləri keçirdiyi üçün özünü lənətləyir, qızı kimi Benjamini də əbədiyyən qəlbində saxlayır. Sonralar Rose ilə yaxınlaşır, gecələr bir birlərinin dərd ortağı olurdular, gündüzlər üçün isə iş bölgüsü aparmışdılar Katerina ev işlərinə baxır, Rose isə Bemjaminin işlərini davam etdirir, yəni tüccarlıq edirdi. Şabatlarda artıq Katerina da Rose'a yoldaşlıq edir, dua oxuyur, şam yandırırdılar. Və yenə Paskalardan birində, tək günahı yəhudi olduğu üçün Rose mağazada ölü tapılır. Katerina məzarı başında Rose'a oğlanlarına baxacağına dair söz verir, oğlanları da alıb o evdən çıxır, başqa bir yerdə onları böyütməyə başlayır. Onlara qorxmamağı öyrədir çünki, qorxaq bir yəhudinin öldürülməsinin qaçınılmaz olduğunu bilir, onlara Ruten dilini öyrədir və yaxşılıqları üçün idiş dilini qadağan edir. Uşaqların xalası bir səhər iki Rutenli ilə birgə qapıya gəlir və Katerinanı uşaqları qaçırmaqla ittiham edir. Uşaqların katerina ilə qalma istəklərinə əhəmiyyət vermədən, uşaqları alır və gedir. Sevdikləri bir bir əlindən alınan Katerina bu evdə çox qalmır, yenidən yola düzəlir, yenə bir qatar stansiyasında gənc bir qadın ona yaxnlaşır və iş təklifi edib əlavə edir "Yəhudilərdən qorxursan?" Katerina "Xeyr" deyə cavab verərək təklifi qəbul edir. Bu yəhudi qadının adı Henni idi və o Katerinanın tanıdığı heç bir yəhudiyə bənzəmrdi, Katerina yenicə itirdiyi əmisi qızı Marianın ona bütün yəhudilərin eyni olmayıb bəzilərinin azad ruhlu olduğunu dediyini xatırladı, həqiqətən də Katerina nə dua oxuyar nə ətlə süd qarışımına əhəmiyyət verər nə də Şabat və ya başqa bayramlar keçirərdi. Düzü Henni heç danışmazdı həftə sonları konsertlərinə gedər, pianosunda ifa edər və bədbin bir şəkildə qayıdardı, zamanla Katerina onun bu öyrəşilmiş bədbinliyindən xoşlanmaya başladı və onu belə qəbul edib sevdi. Hennie'nin kilsələrlə yaxından maraqlanan, İzo adlı arxeoloq yoldaşı var idi və o da Hennie"ə təsəlli verməyə çalışsa da bu heç bir fayda etməzdi. Hennie'nin o evə arada bir gələn anası Katerinaya qızının İzo üzündən belə olduğunu yaxında İzonun xristian olub Hennie'ə daha pis təsir edəcəyini dedi, və həqiqətən də çox keçmədən belə

oldu, hennie artıq katerina ilə dostlaşmışdı ona görədə bütün əşyalarını yığıb Kzernovitsə gedərkən zinət əşyalarının hamısını Katerinaya verir, bir neçə ay burada qalıb içki içməyə davam edən Katerina sonradan Henninin dostluğu üçün darıxıb Kzernovitsə yola düşür, ora çatanda bir birini görən bu iki dost qucaqlaşıb görüşür, söhbətləşirlər. Daha sonra yenidən yolları ayrı düşən bu dostlar Henninin ölüm xəbəri ilə son dəfə xüdahafizləşirlər. İçdiyi barlardan birində Katerina Sof adlı bir kişi ilə dostlaşır və çöldə qaldığı günlərdə Sofun onu evinə alması ilə birlikdə yaşamağa başlayan Katerina və Sof eyni yerdə işə başlayır bəzən gecələr yenə gedib içər və yenə evə geri dönərdilər. Katerina Sofdan bir oğlan uşağı dünyaya gətirir, təbii olaraq onları qəbul etməyən Sofdan isə uzaqlaşır və uşağı ilə birlikdə yeni, bambaşka bir dünyaya açılır Katerina. Uşağın adını Benjamin qoyur, və uzun illər yəhudilərlə işlədiyi üçün idiş dilini mükəmməl bilən Katerina Benjaminə də bu dili öyrədir, onu yəhudilər kimi sünnət etdirir, dua oxuyur, hələ balaca olsa belə ona qorxmamağı öyrədir, və bir daha içməməyə Benjaminə söz verir. Onunla oyunlar oynayır, Henninin ona verdiyi zinət əşyalarını sataraq uşağa süd alır, ev tutur, bəzən onun simasında qızı Anjelinanı görür və uzun illərdir istədiyi sakit həyata qovuşur. Lakin onun bu xoşbəxliyi çox çəkmir. Bir gecə qarşısını kəsən bir sərxoş ona uşağı buraxıb onunla gəlməsini deyir, katerina nə qədər yalvarsada heç bir faydası olmur, əksinə sərxoş daha da qəzəblənirdi. Sərxoş adam Katerinanın əlindən uşağı alır və divara fırladır, gördüyü hadisə qarşısında dəhşətə gələn Katerina, müdafiə məqsədiylə götürdüyü bıçağı sərxoşa keçirir onu dəfələrlə bıçaqlayıb, cansız yatan Benjamini qucağına alıb, qışqırmağa, ağlamağa başlayır. Səhər açıldıqda insanlar onun ətrafına toplaşmışdı, "qatil" deyə pıçıldayışları hər tərəfdən eşidilirdi. Kəndlərində toyuq kəsilərkən gözlərini qapadan o məsum Katerina artıq qatil olmuşdu.. və yenə sevdiklərini itirmişdi.. ətrafındaki hərkəs yəhudilər onun ruhunu aldılar xoşbəxtliyini aldılar deyə gəzinirdi. Çox keçmədən polislər gəldi, Katerinanı həbsdə də çox gözəl günlər gözləmirdi. Oradakilər ondan qorxar ona yaxnlaşmazdılar, görünür qatillərdən hərkəs ehtiyyat edir. Həbsxanaya hər ay yəhudilərdən qarət edilən mallar gələr, qadınlar o zinət əşyalarını taxar kürkləri geyinərdi. Katerina bunlara çox qəzəblənsə də heçnə deməmək üçün özünü sıxırdı, lakin bir gün dözmədi və yaxın olduğu qadnlardan birinə "bunları geyinməyiniz məni qəzəbləndirir, işgəncə ilə öldürülmüş insanların əşyalarını istifadə eləməyiniz heç düzgün deyil" deyir. Qadından " Yəhudiləri niə bu qədər qoruyursan? Onlar yaşadıqları hər şeyə laiqdir, onlar İsanı öldürdülər, Günahkarlara ölüm haqqdır, Yəhudilərə ölüm haqqdır!" cavabı alan Katerina bərk qəzəblənib onu öldürəsiyə döyür. Səsə gələn baş gözətçi Katerinanı qaranlıq, dar, içərisində sadəcə yataq olan otağa alır və bundan sonra Katerina yalnız qalır və yalnızlığı sevir. Həbsxanada ki qadınları tərəvəz yığmağa əkməyə götürdükləri bir gün Katerina həmin qadından üzr istəyir. Və qadın qorxduğundan heçnə demir. Çox keçmədən otağın qaranlığından, nəmişliyindən Katerina xəstələnir, bədənində yaralar çıxmağa başlayır, hərkəs

bunu fürsət bilərək “ yazıq qadın, yəhudilərlə yaxın olmanın sonu budur” deyə danışardılar. Yenə iş günlərindən birində döydüyü qadın Katerinaya səslənib “ Mən hər şeyə görə səni bağışladım, Allah da səni bağışlasın tezliklə sağalıb özünə dön” deyir. Katerina gözləri dolsa da heş bir şey demir, ətrafdaki qadınların yəhudilər haqqında danışdıqlarını dinləyirdi: “ Yəhudilər artıq çox azalıb yaxında yox olacaqlar, onlar yox olsa bizi də azad edərlər.” Katerina içdən içə burada ölənə qədər qalsa da onların yox olmamasını istədi. Çox yox, bir neçə ay sonra gözlənilən hadisə baş verdi, bütün yəhudilər artıq öldürülmüşdü, yer üzündə tək bir yəhudi belə qalmamışdı. Bütüm məhkumlar eləcə də Katerina azad olundu. O artıq çox yaşlı idi, həbsxana da düz 40 il qalmışdı, və gedə biləcəyi tək yerə atasının evinə geri döndü,geri dönərkən yolda bir sinaqoq gördü, ayaqqabılarını çıxardı və dua etdi, artıq hərgün bura gəlib dua edərdi. Və qəlbində olan siması yaddaşından silinsə də xatirələri silinməyən bütün yaxınları üçün Allahdan mərhəmət diləyirdi. Və əsər Kateinanın bu sözləriylə bitir. “Mənim adım Katerinadır, mənim 80 yaşım var və budur, mən burdan başqa bir ev qalmayan öz kəndimdə, evimdəyəm,gözlərim artıq çoz zəifləmişdi lakin uşaqlıqdan qalma yaşıllığın hələ də önümdə sərildiyini görürdüm, kim deyərdi ki mən bir daha buraya geri dönərəm, ata sözündə də deyildiyi kimi su axdığı çaya geri döndü. Nə yazıq ki, ölülərin danışması qadağandır, deyəcəkləri olduğuna əminəm. Amma günlər gözəl və möhtəşəmdir. Pəncərə açıq, gözlərim oyaq olduğu müddətcə, yalnızlıq ruhumu üzməz.

ƏBUL-BƏRAKƏT ƏBDUR-RAHMƏN ƏL-ƏNBARİNİN "ƏL-İNSAF Fİ MƏSƏİLİL-XİLƏF BEYNƏN-NƏHVİYYİN: ƏL-BASRİYYİN VAL-KUFİYYİN" ƏSƏRİ

Babanlı Əli
Ərəb filologiyası kafedrasının magistrantı

Əbul-Bərakət əl-Ənbarinin "əl-İnsaf fi məsəilil-xiləf beynən-nəhviyyin: əl-basriyyin val-kufiyyin" kitabı digər kitablardan bəsrəlilər və kufəlilər arasındakı mübahisə məsələlərini daha ehtiva və əhatə edici hesab olunur. Çünki o, iki məktəb arasındakı qrammatik müna-qişəylə maraqlanmış ən əhatəli müəllifdir. Mən onun bu kitabda tərtib etdiyi kimi,iki məktəb arasındakı mübahisə barəsində dəqiq elmi araşdırma tələblərinin toplandığı bir kitab tərtib edən tərtibçi tanımıram. O, metodun orijinallığını,araşdırmanın uzunluğunu və materialın zənginliyini ortaya çıxarır.

Ənbarinin "İnsaf"ına nəzər saldıqda doğrudan da onun kəlam,fəlsəfə və məntiqi gözəl bildiyinin şahidi oluruq.Hər şeydən əvvəl,onu qeyd etmək lazımdır ki, "İnsaf" Bəsrə nəhvi i-lə yanaşı Kufə nəhvini də öyrənmək üçün çox qiymətli mənbədir.Ənbari bu əsəri şagirdlə-rinin xahişi ilə yazmış, orada Bəsrə və Kufə qrammatikləri arasındakı mübahisələri, özü-nün dediyi kimi, Şafi və Hənəfi fiqh məzhəbləri arasındakı mübahisəli məsələlər tipində tərtib etmişdir. Ənbari "İnsaf"da qrammatikaya dair mübahisəli məsələləri araşdırarkən məntiq, kəlam, fiqh elmlərinin müddəalarından və terminologiyasından geniş istifadə et-mişdir. Məhz buna görədə Ənbari Bəsrə məktəbinə daha çox meyl etmiş, "insafla" araşdır-dığı mübahisəli məsələlərin yalnız 7-də üstünlüyü kufəlilərə vermişdir.

Məntiq, kəlam, fəlsəfə və fiqhə çox meyl etdiyi üçün ruhən bəsrəlilərə yaxın olan Ən-bari "İnsaf"ın müqəddiməsində göstərir ki,nəhvin rəvayət və nəqldən (informasiyadan) iba-rət olması iddiası boş şeydir. Qrammatika qiyas və ağla əsaslanmalıdır.Nəhv elə bir elmdir ki, o, ərəblərin danışığına əsasən verilən qiyaslara istinad edir. Qiyası inkar edən nəhvi in-kar etmiş olur.

Bu araşdırma onların mübtəda və xəbəri adlıq hala salan söz,qaralıq və ağlıqdan olan təəccübün icazəsi, failin feildən üstün tutulması və bənzərləri kimi məşhur məsələləri barə-sində bəsrəlilərin və kufəlilərin arasında olan mübahisəyə toxunmur.Əksinə, o, kitabda yal-nız feilin ortaya çıxma anı barəsindəki mübahisəli məsələlərə toxunur. Feilin ortaya çıxma anı barəsində olan bu mübahisə iki məktəb arasında Kufəli alimlərin sözlərində aydındır. Kisai keçmiş zamanda olan ismi failin indiki və gələcək zamandakı kimi təsirli edilməsini təsdiq etmişdir. Bəsrəlilər ona zaman dəlili, yəni, onun keçmiş zamanın vəziyyətinin heka-yəsi (Hekayə babı: o, danışanın sözünün ona çatdırıldığı kimi çatdırılmasıdır.) olması ilə dəlil gətirmişlər.Kisai ismi failin daimi adlandırılmasını qeyd etdi.Doktor Məxzumi dedi:"İsmi failin adlandırılması Kufə məktəbinin daimi feilidir." Bu ona görədir ki, onlar onda

feili olanı və formanın indiki və gələcək zamanın zaman əlamətinə doğru yönəlməsini görüblər. Lakin bəsrəlilər onda zaman əlamətini, zamanda "من"-in məqsədin başlanğıcı üçün gəlməsi barə-sindəki mübahisələri daxil olmaqla inkar etmədilər.

Ənbari bəsrəlilərin məsdərin (ismi məsdər) feildən ilkin olması barədəki müddəalarına haqq qazandırarkən göstərir ki,isim öz-özlüyündə mövcuddur. O,feilsiz keçinə bilir.Feil isə öz-özlüyündə müstəqil şəkildə mövcud deyildir. O,ismə (failə –V. M.) ehtiyac hiss edir, on-suz keçinə bilmir. Elə isə öz özlüyündə mövcud olan,başqasına (sözə) ehtiyac hiss etmə-yən sözün, müstəqil şəkildə mövcud olmayan,başqasına ehtiyac hiss edən sözdən ilkin ol-ması daha düzgündür.

Ənbarinin "İnsaf"ın müqəddiməsində dediyindən aydın olur ki, bu kitab Bəsrə və Kufə məktəbləri arasındakı mübahisəli məsələlərin heç də hamısını əhatə etmir. "İnsaf"ı çapa hazırlamış G.Vayl əsərə yazdığı müqəddimədə haqlı olaraq göstərir ki, Ənbari "İnsaf"ı yaz-mamışdan əvvəl hər iki məktəbin görkəmli nümayəndələrinin əsərlərini dərindən öyrənmiş, icmal xarakteri daşıyan bu kitabında mübahisəli məsələlərin hər birinə öz münasibətini bil-dirmişdir. Lakin G.Vayl eyni zamanda "İnsaf"da kufəlilərin adına yazılan bəzi müddəaların onlara məxsus olmadığını, Bəsrə qrammatikləri tərəfindən uydurulduğunu göstərir. O, hə-min müddəaların Fərra və şagirdləri tərəfindən irəli sürülmədiyini, əksinə onların Əxfəş və Mubərrəddən nəşət tapmasını və bunu isbat etməyin mümükün olmasını qeyd edir. G.Vayl belə bir nəticəyə gəlir ki, "İnsaf"da Kufə qrammatiklərinin adından deyilən bir sıra müddə-alar Ənbaridən əvvəlki müəlliflərin əsərlərində olmadığına görə burada toplanmış 121 mə-sələnin hamısının bütövlükdə Sibəveyhi və Fərra arasındakı qədim fikir ixtilafının əsasını təşkil etdiyini iddia etmək qeyri-mümkündür. Ərəb alimi Mehdi əl-Məxzumi də G.Vaylın bu fikrinə şərik çıxır.

Əlbəttə, yuxarıda deyilənlər "İnsaf"ın Bəsrə və Kufə məktəbləri arasındakı mübahisəli məsələləri öyrənmək üçün ən qiymətli mənbələrdən biri kimi əhəmiyyətini heç də azaltmır. Bunu G.Vayl özü də inkar etmir.

İBRİ DİLİNDƏ TİBBİ SƏNƏT-PEŞƏ ADLARI

Jalə Səmədova
Ərəb filologiyası kafedrasının magistrantı

Bir dildə danışan adamlar eyni bilik səviyyəsinə, eyni ixtisasa malik olmadıqları kimi müxtəlif şəraitdə və məkan etibarilə müxtəlif yerlərdə yaşayırlar. Ona görə hər hansı bir dildə danışan adamların da işlətdikləri sözlərin miqdarı və səciyyəsi də müxtəlif olur. Bu cəhətdən, yəni dilin lüğət tərkibində olan sözlərin işlədilməsi baxımından dünya dillərinin leksikasını belə qruplaşdırmaq olar:

a) dialekt leksikası
b) peşə sənət leksikası
c) terminaloji leksika
d) jarqon lerksikası
e) arqotizmlər

Hər hansı bir adam öz danışığında tez-tez peşəsi, işi və ya sənəti ilə əlaqədar sözlər işlədir. Ayrı-ayrı adamların işlətdiyi belə sözlər peşə-sənət leksikası adlanır. Peşə-sənət leksikası bu və ya digər ixtisas, sənət və peşə ilə sıx sürətdə bağlıdır. Ona görə də hər hansı bir sənət və ya peşə adlarının nisbətən məhdud, lakin olduqca sabit özünəməxsus peşə-sənət leksikası olur. Bunanla belə, istehsalatla əlaqədar olan bir çox sözlər sənət-peşə leksikasından çıxaraq geniş bir dairəyə, yəni dilin lüğət fonduna keçir, ümumi şəkil alır və hamı tərəfindən işlədilir.

Müasir ibri dilində də sənət-peşə leksikası içərisində xüsusi yeri tibbi sahəyə aid sənət və peşə adlarının ifadəsi tutur. Bu sahəyə aid olan sözlər müxtəlif üsullarla ifadə olunur. Bu üsullara nəzər yetirək:

1) Feil bablarının feili sifət və ya indiki zamanı ilə düzələn sənət-peşə adları. Bu sözlərin böyük bir qismi “rofe” (həkim) sözünün müəyyən isim ilə birləşməsindən yaranır:

№	İbricə	Oxunuşu	Azərbaycanca	İzahı
1.	-רופא רופאה	Rofe – rof-a	Həkim	Tibb sahəsində çalışanlara verilən ümumi ad
2.	רופא ראשי	Rofe raşi	Baş həkim, şöbə müdiri	Müəyyən şöbəyə rəhbərlik edən həkim
3.	רופא תורן	Rofe toran	Növbətçi həkim	Müəyyən vaxtda tibb məntəqəsində cavabdeh olan həkim
4.	רופא צבאי	Rofe tsvai	Hərbi həkim	Hərbi məntəqələrdə fəaliyyət göstərən həkim

2) Bir sıra tibbi-sənət və peşə adlarında “loq” sonluğu olduğu kimi saxlanılır, lakin bəzi sözlərin tələffüzü ibri dilinə uyğunlaşdırılır:

№	İbricə	Oxunuşu	Azərbaycanca	İzahı
1.	גסטטרואנטרולוג	Qastroenteroloq	Qastroentereoloq	Bütün mədə-bağırsaq

				sistemi xəstəlikləri (qastrit, mədə və 12-barmaq bağırsağı xorası, öd daşı xəstəliyi, pankreatit, disbakterioz və s.) mülicə edən həkim
2.	הפטולוג	Hepatoloq	Hepatoloq	Qara ciyər xəstəliklərinin (hepatitlər, qara ciyər sirrozu və s.) müalicəsində ixtisaslaşdırılmış həkim

3) Sonu “evt” şəkilçisi ilə bitən bəzi sənət və peşə adları ibri dilinə tərcümədə “ist” sonluğu ilə əvəzlənir:

№	İbricə	Oxunuşu	Azərbaycanca	İzahı
1.	פטיזיאטריסט	Ftiziatrist	Ftiziatr	Vərəm xəstəliyinin müxtəlif növlərinin (dəri vərəmi, cinsiyyət orqanlarının vərəmi, bağırsaq vərəmi və s.) diaqniostikasında və müalicəsində ixtisaslaşdırılmış həkim
2.	פיזיותרפיסט	Fizioterapist	Fizioterapevt	Şüalar vasitəsilə müalicə edən həkim

4) Bir sıra sənət peşə adlarının ifadəsində həm ibri, həm alınma qarşılığından istifadə olunur:

№	İbricə	Oxunuşu	Azərbaycanca
1.	,רופא עצבים נוירולוג	Rofe atsabim, noyroloq	Nevroloq
2.	,מנתח כירורג	Menateax, xirurq	Cərrah

5) Bəzi tibbi sənət-peşə adlarının tələffüzü ibri dilinin qayda-qanunlarına uyğunlaşdırılır:

№	İbricə	Oxunuşu	Azərbaycanca	İzahı
1.	,תזונאי דיאטן	Tezunay, diyetan	Dietoloq	Qida rasionunu tənzimləyən həkim
2.	גנטי	Geneti	Genetik	Genlərlə bağlı olan müxtəlif xəstəlikləri və pozulmaları (Daun sindromu, fenilketonuriya, mukovissidoz, Edvards sindromu, Patau sindromu, Marfan sindromu və s.) araşdıran və müalicə edən həkim

6) Bəzi tibbi sənət-peşə adlarının ifadəsi ikili formadadır:

№	İbricə	Oxunuşu	Azərbaycanca	İzahı
1.	,אלרגיסט אלרגולוג	Alerqist, alerqoloq	Allerqoloq	Müxtəlif növ allergiyalar (qida, müxtəlif maddələr, toz və s.) üzrə mütəxəssis

FARS DİLİNDƏ VASİTƏSİZ TAMAMLIĞIN İŞLƏNMƏSİNDƏ MÜRƏKKƏB FEİLLƏRİN ROLU

Nazim Mənsimov
İran filologiyası kafedrasının magistrantı

Fars dilində cümlənin ikinci dərəcəli cümlə üzvü olan tamamlıq متمم (motəmmem) adlanır. Azərbaycan dilində olduğu kimi fars dilində də "tamamlıq" (motəmmem) termini "tamamlamaq" sözündən götürülmüşdür. Bu da onu göstərir ki, tamamlıq cümlədə fikrin daha aydın ifadə olunmasına xidmət edir. Ona görə də fars dilində tamamlığa verilən suallar bunlardır:

که را، چه کسی را، که، چه کسی، چه را، چه چیزی را، پیش کی، از کی، با که، با چه، برای کی، برای چی و ...

Kimi? nəyi? nə? kimə? nəyə? kimdə? nədə? kimdən? nədən? kim ilə? nə ilə? kim üçün? nə üçün? kim haqqında? nə haqqında? nə barədə?

یوسف به باغ تماشا می کرد.

Yusif bağa baxırdı. (nəyə?)

نادر از تاریکی بیم داشت.

Nadir qaranlıqdan qorxurdı. (nədən?)

رئیس‌جمهور به شایستگی با وزرا رفتار می‌کند.

Prezident nazirlərlə layiqincə rəftar edirdi. (kim ilə?)

سیاوش از دانشگاه به کتابخانه برای امانت گرفتن کتاب رفته است.

Siyavuş universitetdən kitabxanaya kitab əmanət götürmək üçün getmişdir. (nə üçün?)

Fars dilində tamamlıqlar vasitəli və vasitəsiz olaraq iki yerə bölünür. Vasitəsiz tamamlıq hərəkətlə bilavasitə, birbaşa əlaqəli olan, üzərində iş icra olunan əşyanı, obyekti bildirir.

باز گویم این سخن را گر چه گفتم بارها

می نهند این خاینین بر دوش ملت بارها (فرخی)

(Bu sözü dəfələrlə desəm də, yenə deyirəm, bu xayinlər millətin çiyninə yüklər qoyurlar)

Vasitəsiz tamamlıq təsirli feili xəbərlə ifadə olunan işin icrası nəticəsində yeni yaranan, tam və ya qismən dəyişikliyə uğrayan, məkan dəyişikliyinə uğrayan və ya sadəcə olaraq hərəkətin təsirinə məruz qalan əşyanı, obyekti bildirir. Vasitəsiz tamamlıqlar ismin təsirlik halında olan sözlər və birləşmələrlə ifadə olunur, təsirli feili xəbərlə əlaqələnir. İsmin təsirlik halı iki cür olduğundan, yəni müəyyənlik və qeyri-müəyyənlik ifadə etdiyindən vasitəsiz tamamlıqlar da iki cür olur: müəyyənlik bildirən vasitəsiz tamamlıqlar, qeyri-müəyyənlik bildirən vasitəsiz tamamlıqlar. Müəyyənlik və qeyri-müəyyənlik bildirən vasitəsiz tamamlıqların forma və məzmun fərqləri göz qabağındadır: müəyyənlik bildirən vasitəsiz tamamlıqlar təsirlik hal şəkilçisinin iştirakı ilə formalaşır və müəyyən, konkret əşya bildirir.

پروین شعر "آذربایجان" را ازبر کرد.

(Pərvin “Azərbaycan” şeirini əzbərlədi.)

Bu cümlə را şəkilçisi olduğu üçün müəyyənlik bildirən vasitəsiz tamamlıq növünə aiddir.

Qeyri-müəyyənlik bildirən vasitəsiz tamamlıqlar təsirlik hal şəkilçisi olmadan formalaşır və qeyri-müəyyən, ümumi əşya bildirir.

برادرم روزنامه می خواند.

(Qardaşım qəzet oxuyur.)

Burada qəzet (روزنامه)sözü adlıq haldakı kimi görünsə də, əslində qeyri-müəyyən təsirlik haldadır, ona görə də vasitəsiz tamamlıq da qeyri-müəyyənlik bildirən növdə işlənmişdir.

Qeyd etdiyimiz kimi tamamlıqlar məsdərlərlə də ifadə oluna bilər. Fars dilində feillər sadə, düzəltmə və mürəkkəb olaraq üç yerə bölünür. Mürəkkəb feillərin vasitəsiz tamamlıq kimi işlənməsinə aşağıdakı misallarda baxaq:

او شوخی کردن را دوست دارد.

(O zarafat etməyi sevir)

Araşdırmamızdan belə qənaətə gəldik ki, fars dilində bütün mürəkkəb məsdərlər yalnız müəyyən vasitəsiz tamamlıq ola bilir, onların qeyri-müəyyənlikdə işlənməsi mümkün deyil.

R.T.ƏRDOĞANIN SİYASİ SFERADA NİTQ ÜSLUBU

Şahanə Vəliyeva
Türk filologiyası kafedrasının magistrantı

Danışıq və ya nitq türk termini olaraq desək , "söylem" əsrlər boyu dilimizdə olan bir anlayış olub bütün sosial sferanı əhatə etməkdədir. Nitq analizi danışıq və mətnlər vasitəsilə yaranan ümumi mənaları analiz edən bir araşdırma növüdür. Dünyada bəzi siyasətçilər var ki, onların danışıq üslubları xüsusuilə incələnir. Nitq üslubu dediyimizdə insanın danışığında istifadə etdiyi sözlər, idiomlar, səs tonu, natiqin istifadə etdiyi bədən dili- jest və mimikalar başa düşülür. Bu sadalanan amillər hamısı kompleks şəkildə təhlil olunur. Dünya liderləri içərisində R.T.Ərdoğan xüsusilə vurğulanmalıdır. Çünki onun çıxışları siyasi analizlə məşğul olan politoloqlar, dilçilər tərəfindən böyük maraqla qarşılanır. İstər xarici dövlətlərdə, istərsə də Türkiyədə bu aspektdə bir sıra elmi araşdırmalar mövcuddur.

Ərdoğanın xarici və daxili çıxışlarında, konqreslərdə istifadə etdiyi "politik dil" bir çox siyasi şərhçilər üçün analiz materialı, zaman-zaman istinad edəcəyi mənbə halına gəlib çıxmışdır. Çünki, insanın nə söylədiyi qədər, necə söylədiyi də çox önəmlidir. Xüsusilə dünya siyasətçilərinin çıxışlarında istifadə etdiyi sözlərin bir çoxu prisipialdır. "Siyaset ve siyasal söylem" termini də məhz bunların əsasını təşkil edir. Öndə olan siyasətçilərin istifadə etdiyi rəsmi üslub yəni "politik dil", "siyasi dil" amillərinin araşdırılması və onların nitq analizi dilin rəsmi üslubuna ən boyük tövhədir.

Ümumiyyətlə R.T.Ərdoğanın üslubunu incələdiyimiz zaman görürük ki, o, rəsmi üslubun tələb etdiyi siyasi terminlərdən çox da istifadə etmir. Xüsusilə seçimlər zamanı seçdiyi nitq üslubu daha çox xalq dilinə yaxın olaraq seçilir. Ərdoğan nitqlərində daha çox gündəm mövzularını ələ almağı üstün tutur. Burada liderliyin əsas təzahürünü görürük. Gündəm mövzularını ön planda tutaraq sadə danışıq üslubunu seçmək, bir növ xalqı inandırmaq və yönləndirmək xüsusiyyətini daşıyır. Siyasi liderlik də məhz bunu tələb edir. Xalqı mükəmməl natiqliklə inandırmaq və yönləndirmək. Özünün də qeyd etdiyi kimi tutduğu yoldan dönməməsi, səylə çalışması və zəkası ilə, sələflərindən siyasi atmosferi dərindən mənimsəyərək ideologiyasına inanması onu zamanla bütün türk dünyasında rəhbərə çevirdi. XXI əsrin əvvəllərindən Ərdoğanın qatıldığı milli seçimlərdə və mitinq meydanlarında "doğal dil" istifadəsini yenidən vurğulamağı vacib bilirik. Qrafiklə aydınlaşdıraq:

	2002
Termin sayı	78478
Termin çeşidi	5096
Söz çeşidi	15,39

Bu tablo 2002-ci ildəki seçimlərə görə Ərdoğanın dil zənginliyini göstərir. Bu nitqdəki termin sayının termin çeşidinə nisbəti 15,39-dur. Əldə edilən bu nəticəyə görə Ərdoğanın nitqində termin sayının yüksək təkrarlandığı görünür. Lakin termin çeşidinin azlığı ilə də əsasən sadə və bəsit sözlərdən istifadə edərək seçicilər üzərində təsir yaratmaq hədəflənmişdir. Ərdoğan bu dönəmdəki nitqini heç bir mətnə istinad edərək danışmamışdır. Danışığını daha çox ritorika və təkrarlanma üzərində qurduğu görünür. Danışdığı nitqlərdə seçicilərin ağlını qarışdırmayaraq ümumi problemlərə yönəlmiş və həll yollarını ön plana çəkməyi bacarmışdır. Rəsmi üslub baxımından Ərdoğan məqsəd və vasitə sözləri içərisində məqsədyönümlü sözləri daha çox istifadə etmişdir. Onun mitinqlərdəki nitqlərində bu məqsədyönümlü sözlər bolca təkrar edilmişdir. Nitqin doluluğu da bu şəkildə təmin edilib. Nitq analizlərinin nəticələrinə əsasən R.T.Ərdoğanın 2002-ci il mitinqində istifadə etdiyi məqsəd sözlərinin yəni əsas sözlərin sayı isimlər-32041, sifətlər- 10275, feillərdə isə 18650 təşkil edir.

FARS DİLİNDƏ İZAFƏT TİPLİ SÖZ BİRLƏŞMƏLƏRİ

Aytən Abbasova
İran filologiyası kafedrasının magistrantı

Fars dilinin klassik dövrdən etibarən sabit qalan xüsusiyyəti sağ budaqlı nominal sintaksisdir. Asılı isimlər rekursiv şəkildə əsas sözdən sonra, sifətlər isə eyni əsas sözdən asılı olaraq isimlərdən əvvəl gəlir. Fars qrammatik ənənəsində izafət kimi tanınan xüsusi bağlayıcı baş və asılı tərəflər arasında yerləşdirilir və əsas tərəfə klitikləşdirilir. Fars dilində qrammatik hal kateqoriyası olmadığı üçün izafət isim söz birləşməsinin daxilində birləşməni təmin edən əsas vasitəni təmsil edir. Nümunələr (1)–(3) klassik fars şairləri Rudəki, Firdovsi və Hafizdən götürülmüşdür, lakin müvafiq kompozisiyaların nə poetik xarakteri, nə də orta əsr mənşəyi izafət quruluşunun təbiətinə təsir göstərmir. Müasir nəsr və ya danışıq dilində o, mahiyyətcə dəyişməz qalır, istisna olmaqla, izafət hissəciyinin forması müasir fars və Əfqanistan Dari dillərində -i deyil, -e, tacik dilində isə -i kimi qalır.

Nümunə 1) yād=i (yaddaş) yār=i (dost) mihrbān (əziz) āy-ad (gəlmək) hamē (geri) – Əziz dostumun yaddaşı geri gəlir.

Nümunə 2) ba nām=i (adında) x^{w}adāwand=i (sahib) jān (nəfs) u (və) xirad (ağıl) - Nəfs və ağıl sahibinin adı ilə

Nümunə 3) bāzār=i (bazar) but-ān (bütlər) šikast (məğlubiyyət) gīr-ad (qəbul etmək) - Bütlər yarmarkası məğlub olur.

Ərəbcə idafa, yəni "əlavə" sözündən yaranan izafət, isim söz birləşməsinin daxilində baş verən və əsas tərəflə asılı tərəfi bir-birinə bağlayan e kimi reallaşan bir enklitikanı təyin edir. Səthi söz sırası nümunəsi 1-ci misalda göstərildiyi kimi, farsca isim birləşmələri daxilində əsas tərəfin əvvəlində işlənir. Məhdud təyinedicilər, kəmiyyətlər, təsnifatlar və sifətlər baş isimdən əvvəl, bütün dəyişdiricilər və arqumentlər isə onun ardınca gəlir. İsmi birləşmənin asılı tərəfi atributiv isimlərdən, sifət və ön şəkilçi təyinedicilərdən sonra gəlir. Baş isim ilə asılı isim birləşmələri arasında meydana gələn bütün elementlər baş isimlə və bir-biri ilə izafət ilə əlaqələndirilir.

Nümunə 1) lebas-e (izafət libas, paltar sözüdür); sefid-e (izafət ağ sözüdür).

Fars dilində "izafət" bəzi kontekstlərdə iki sözü əlaqələndirmək üçün istifadə olunan /-e/ (yaxud saitlərdən sonra /-ye/) vurğusuz qısa saitə deyilir. İzafət fars fonologiyasının və morfologiyasının mühüm bir hissəsi olsa da, onun xüsusi xarakter təmsili yoxdur və buna görə də adətən yazılmır. Lakin qısa sait /e/ kimi tələffüz olunur. Bəzən anlaşılmazlığı aradan qaldırmaq üçün düzgün tələffüzü asanlaşdırmaq məqsədilə bəzi sözlərdən sonra onun varlığını açıq şəkildə yazılı simvolla (diakritik Kasre) qeyd etməyə üstünlük verilir.

İzafət birləşməsində birinci yerdə təyin olunan (bəradər), ikinci yerdə təyin (mən) gəlir və izafət burada təyin olunan sözdən sonra tələffüz edilən vurğusuz “e” səsi ilə ifadə olunur.Təyin olunan söz samitlə qurtarırsa, izafətin əlaməti yazıda öz əksini tapmır. برادر من - mənim qardaşım

İzafət birləşməsinin birinci tərəfi a (ا) , u (و) və ya e (ه) səsi ilə qurtarırsa, təyin olunan sözün axırına izafət əlaməti olaraq tələffüzdə (ye) səsi artırılır. Yazıda bu əlaməti bildirmək üçün (ی) yazılır.

صدای موسیقی(səda-ye musiqi) musiqi səsi

خانه ی کوچک(xane-ye kuçek) kiçik ev

دانشجو ی ساعی(daneşçu-ye sai) çalışqan tələbə

İzafət birləşməsinə daxil olan sözlərin birincisi (təyin olunan söz) i (ی) hərfi ilə bitirsə, o zaman yazıda heç bir dəyişiklik baş vermir, amma sonu (ye) kimi tələffüz olunur.

صندلی نو(səndəli-ye nou) yeni stul

İzafət birləşmələrinin ən kiçik vahidi iki komponentdən ibarət olur. Bu kiçik vahiddən tərkibində üç və ya daha artıq söz olan izafət silsilələri əmələ gəlir.Məsələn: دانشجوی دوره دوم

دانشکده ی خاورشناسی (daneşçu-ye doure-ye dovvom-e daneşkəde-ye xavərşenasi) şəqrşünaslıq fakültəsinin ikinci kurs tələbəsi

Beləliklə, izafət fars dilində, xüsusilə də şeir, qəzet dilində olduqca mühüm olub, fars dilində qrammatik hal kateqoriyası olmadığı üçün isim söz birləşməsinin daxilində birləşməni təmin edən əsas vasitəni təmsil edir və ismi birləşmələrdə əsas və asılı tərəfləri bir-birinə bağlamaq üçün istifadə olunur.

FARS DILINDƏ FELI IDARƏ MƏSƏLƏSI

Aysel Müşfiq qızı Zülfüqarlı
İran filologiyası kafedrasının magistrantı

Söz birləşmələrini və cümlələri əmələ gətirən sözlər arasında həm məna əlaqələri, həm də qrammatik əlaqələr olur. Qrammatik əlaqələr sözlərin morfoloji cəhətdən dəyişməsi (hal münasibətləri olan dillərdə) və sintaktik cəhətdən birləşməsi nəticəsində əmələ gəlir. Təfəkkürün ümumiliyindən, bununla əlaqədar olaraq, sintaktik hadisələr arasındakı ümumi cəhətlərdən irəli gələn oxşar cəhətlərinə baxmayaraq, sintaktik əlaqələr hər bir dil qrpunda tam spesifik xüsusiyyətləri ilə meydana çıxır. Buna görə də tədqiqat sahəsinə daxil edilən dillər müxtəlif olduqca sintaktik əlaqələrin də əhatə dairəsi, işlənmə momentləri müxtəlifləşir. Məsələn, başqa sistem dillərə nisbətən amorf dillərdə söz birləşmələri daha çox yanaşma əlaqəsinə əsaslanır, hal sistemi inkişaf etməmiş dillərdə idarə əlaqəsindən az istifadə olunur.

Fellərin tamamlıqla sintaktik əlaqəsi, məlum olduğu kimi, idarə əlaqəsi adlanır ki, bu əlaqə uzlaşma və yanaşma əlaqəsilə yanaşı tabeli sintaktik əlaqənin bir növünü təşkil edir. Dilçilik ədəbiyyatında felin idarə əlaqəsi ona görə "xəbərin idarəsi" deyil, məhz "felin idarəsi" adlanır ki, bu əlaqə felin cümlənin hansı üzvü rolunda olmasından adətən asılı olmur.

Bir sıra müəlliflər (L.S.Peysikov) fars dilində idarə əlaqəsinin olmadığını qeyd edirlər və buna səbəb kimi fars dilində hal münasibətlərinin olmadığını gətirirlər. Doğrudur fars dilində hal münasibətləri mövcud deyil, lakin bu o demək deyildir ki, fars dilində feli idarə mövcud deyil. Biz də bu fikirlə raazı deyilik və düşünürük ki, fars dilində feli idarə mövcuddur.

Fars dilində vasitəli tamamlıq sözün geniş mənasında əşyalıq bildirən nitq vahidləri ilə ifadə olunur. Bu nitq vahidlərinin aid olduqları cümlə üzvü ilə qrammatik əlaqəsi, daha doğrusu fellə idarəsi adətən müxtəlif qoşmalar vasitəsi ilə icra olunur. Beləliklə, ön qoşmalar felin idarəsində bir növ əlaqə yaradan, idarəni mümkün edən həlqəni təşkil edir və bu mənada vasitəli tamamlıqların işləndikləri qoşmalara görə müxtəlif qrupları vardır: "از" önqoşması ilə işlənən, "به" önqoşması ilə işlənən vasitəli tamamlıqlar və s.

Məsələn,تشکر کردن ، دفاع کردن kimi fellər onlara aid olan ebyektin "از" önqoşması ilə işlənməsini tələb edir. چشم دوخت، اعتبار کردنkimi fellər onlara aid olan sözün "به" önqoşması, ارتباط داشتن، دیدارkimi fellər "با" önqoşması ilə işlənməsini tələb edir və s. Həmçinin fars dilində bir sıra fellər vardır ki, onlar bir neçə qoşma ilə də işlənə bilirlər. Məsələn, نگاه کردنfeli həm "را" sonqoşması, həm "در" önqoşması və həm də "به" önqoşması ilə işlənir. " استقبال کردن" klassik fars dilində daha çox "را" sonqoşması, müasir fars dilində isə əsasən "از" önqoşması ilə işlənir. Ümumiyyətlə isə fellərin bir neçə önqoşma ilə işlənməsi əsasən onların tarixinə və leksik-semantik mənasına əsaslanır.

Ümumilikdə qeyd etmək lazımdır ki, fars dilində feli idarə digər bir çox dillərdə (azərbaycan, rus və s. dillərdə) və ümumi dilçilikdə qəbul edilən feli idarədən bir qədər fərqlənir. Çünki, fars dilində ismin hal kateqoriyası yoxdur və fel ismi və ya isim yerində işlənən digər sözləri hallarla idarə edə bilmir. Lakin fel ilə onun qarşısında duran ismin (vasitəli tamamlığın) əlaqəsi feli idarədən başqa bir şey deyildir. Sadəcə bu əlaqə fars dilində özünəməxsus şəkildə təzahür edir və qeyd edilənlərdən məlum olur ki, fars dilində fel ilə onun idarə etdiyi sözlər qoşmalar vasitəsilə idarə olunur. Felin isə hansı qoşma ilə ifadə olunması onun məzmunu ilə bağlıdı.

ƏBDÜLHƏQ HAMİD TARXANIN HƏYATI VƏ POEZİYASI

Giləxanım Baxşəliyeva
Türk filologiyası kafedrasının magistrantı

Tənzimat dövrü türk ədəbiyyatında öz əsərləri və misilsiz xidmətləri ilə dərin iz qoymuş görkəmli ədiblərdən biri də Əbdülhəq Hamid Tarxan olmuşdur. Əbdülhəq Hamid həm öz dövrünün, həm də ümumilikdə türk ədəbiyyatının inkişafında mühüm işlər görmüş şair, dramaturq və yazardır. Tənzimat dövrü türk ədəbiyyatının ikinci dövrünə mənsub olan Əbdülhəq Hamid dövrünün məşhur tənzimatçılarının yolunu davam etdirərək Türkiyə ədəbiyyatının forma və məzmunca yenilənməsində və inkişaf etməsində əhəmiyyətli və misilsiz xidmətlər göstərmişdir. Türk şeirinin və ədəbiyyatının xüsusilə də, dramaturgiyanın inkişaf etməsində və zirvəyə qalxmasında Hamidin yaradıcılığını yüksək qiymətləndirməliyik.

1852-ci ildə İstanbulda dünyaya göz açan Hamidin ədəbiyyata olan marağı da elə uşaqlıqdan gəlir. Ailə üzvlərinin, atasının, qardaşının, bacısının ədəbiyyatla məşğul olması kiçik Hamiddə ədəbiyyata qarşı sevgi oyatmışdır. Bir neçə dəfə ailə qurmasına baxmayaraq, ilk həyat yoldaşı Fatma xanım ədibin həyatında dərin izlər buraxmış və ölümü ilə Hamid poeziyasının şah əsəri sayılan *"Makber"* əsərini yazdırmışdır. Ədəbi yaradıcılıqla məşğul olan yazıçı həm də bir çox ölkələrdə olmuş və həmin ölkələrdə diplomatik fəaliyyət göstərmişdir. Görkəmli şair və dramaturq 1937-ci ildə İstanbulda dünyasını dəyişmişdir. 85 il ömür yaşayan ədibin on beşə yaxın şeir kitabı, iyirmi beşə qədər pyesi mövcuddur.

İbrahim Şinasi, Namık Kamal və Rəcaizadə Mahmud Əkrəm kimi şairləriylə yeniləşməyə, qərbləşməyə doğru gedən türk poeziyasını Əbdülhəq Hamid daha da irəli aparır. Yalnız məzmunca deyil, formaca da bir çox əhəmiyyətli yeniliklər həyata keçirmişdir. Hamid Tənzimat dövrü üçün xas olan yenilikçi siyasi-ictimai düşüncələri mənimsəyir və bunları bacardığı qədər öz əsərlərində əks etdirməyə çalışır. Şeirlərində Hüqo, Russo, Lamartin kimi dünyaca məşhur ədiblərdən təsirlənmişdir. Onun poeziya nümunələri nəinki öz dövrünün, ümumilikdə türk ədəbiyyatının ən dəyərli əsərlərindən olmuşdur. Əbdülhəq Hamidin mənzum tamaşaları xaricində on beşə qədər şeir kitabı vardır: *"Sahra", "Belde", "Garam", "Bunlar O'dur", "Makber", "Ölü", "Hacle", "Bir Sefilenin Hasbıhali", "Baladan Bir Ses", "Validem", "İlham-ı Vatan", "Tayflar Geçidi", "Ruhlar", "Yabancı Dostlar", "Arziler".*

Hamidin türk ədəbiyyatı tarixinə gətirdiyi ən mühüm yeniliklərdən biri ölüm mövzusudur ki, bu da onu digər ədiblərdən fərqləndirən ən başlıca cəhətdir. Ailə üzvlərinin vaxtsız ölümü ədibi dərindən sarsıtmış və ölüm mövzusuna müraciət etməsinə səbəb olmuşdur. İlk olaraq atasını, daha sonra həyat yoldaşı Fatma xanımı və digər ailə üzvlərini itirməsi Hamidin ölüm

mövzunda türk ədəbiyyatında şah əsər sayıla biləcək ədəbi nümunələr ərsəyə gətirməsində öz təsirini göstərmişdir.

Ölüm mövzusu ilə yanaşı siyasi-ictimai problemlərə, qadın hüquqları kimi məsələlərə, təbiət və.s kimi yeni mövzulara müraciət etmişdir. Hamidin şeirlərində yer alan yeni mövzulardan biri də divan poeziyasında rast gəlinməyən vətən, millət sevgisi idi. Yurd sevgisi, vətən sevgisini aşılamağa çalışan şairin əsərlərindəki vətənpərvərlik duyğularını hiss etməmək mümkünsüzdür. Yaradıcılığına nəzər salsaq görərik ki, ədibin demək olar ki, qələmini sınamadığı bir mövzu yox idi. Müasirləri və çağdaşları tərəfindən *"Şair-i Azam"* deyə adlandırılması əbəs yerə deyildir və onun türk ədəbiyyatında necə qiymətli şair olmasının sübutudur. O, dövrünün problemlərini əsərlərində ustalıqla əks etdirir və bu problemlərin həll olunması üçün əlindən gələni edir. Təsadüfi deyildir ki, Əbdülhəq Hamidin əsərləri bugünədək maraqla oxunulur və sevilir.

YAPON DİLİNDƏ ZAMAN PROBLEMİ

Abbaslı Elmir
Uzaq Şərq dilləri və ədəbiyyatı kafedrasının magistrantı

Azərbaycan dilinin nitq hissələrini bir-biriləri ilə müqaisə etdikdə feillər quruluşca və mənaca növlərinə, qrammatik zənginlikləri leksik şəkilçilərlə istifadə müxtəlifliklərı və xüsusilə leksik yolla ümumilikdə yeni söz yaratmaq xüsusiyyətinə görə digər nitq hissələrindən bir qədər öndə gəlir. Tarix boyu bir çox dillər ilə qarşılıqlı əlaqə və təsirdə olan Azərbaycan dilinə həmin dillərdən müxtılif sözlər keçsə də, feillər bütünlükdə, kök etibarilə türk mənşəli – yəni millii sözlərdir. İltisaqi dil olan Azərbaycan dilində feilin rolu olduqca genişdir.

Azərbaycan dili kimi iltisaqi dil olan və hətta dilçilərin Altay dil ailəsinə aid olub-olmadığı barədə hələ də bir qərara gələ bilmədiyi dil olan yapon dilində də feillərin rolu geniş, istifadəsi isə zəngindir. Yapon dilinin Azərbaycan dili ilə digər oxşar cəhəti də odur ki, kökü feil olan bütün sözlər milli mənşəli sözlərdir. Yapon dilinin lüğəti feillərdən düzələn sözlərlə zəngindir.

Hər bir dili öyrənərkən çox istifadə olunan müqaisəli dilçilik öyrənilən dilin spesifikliklərini öyrənərkən qənaətbəxş olmur və bu zaman dil problemi yaranır ki, bu problemə tərcümə zamanı da çox rast gəlinir. Yapon dilini öyrənərkən yaranan ən aktual və ən böyük problem zaman problemidir. Əvvəla bir şeyi qeyd etmək lazımdır ki, yapon dilində feilin işlənmə məqamına görə ümumi iki anlayışı var: mövcüd situasiyanı ifadə etməsi və hərəkət bildirməsi. Hərəkət anlayışının özü də iki yerə bölünür: yerinə yetirilmiş hərəkət və yerinə yetirilməmiş hərəkət. Hərəkət anlayışı zaman anlayışının formalaşmasına təsir edib ki, yapon dilində hər dildə olduğu kimi zaman üç yerə (keçmiş, indiki, gələcək) bölünsə də indiki zaman və gələcək zaman eyni xəbər sonluqları ilə düzəlir. Bunun əsas səbəbi həm indiki zamanın, həm də gələcək zamanın yerinə yetirilməmiş hərəkət kateqoriyasına daxil olmasıdır. Nə indiki zamanın nə də gələcək zamanın özünün xüsusi bir şəkilçisi yoxdur. Bu məsələnin nəinki yapon dilini öyrənən əcnəbilərə, hətta yaponların özlərinə də çətinlik yaratdığı məqamlar olur. Yapon linqvist David Y Oşima da "Yapon dilində perspektiv, loqoforiklik və daxili zaman məsələsi" məqaləsində bunu qeyd edir. (səh. 7)

İndiki və gələcək zamana aid olan cümlələr bir-birindən ya zaman zərflərinin köməkliyi ilə ya da ümumi kontekstin verdiyi mənaya görə ayırd edilir. Birinci ayırd etmə üsulu hər hansı bir mətni, hekayə və ya başqa bir yazı mətnin\ tətbiq olunur, ancaq tək cümlə olsa ancaq zaman zərfinin köməkliyi ilə ayırd edilə bilər.

Məsələn:

1) **私は図書館に行きます／行く。** watashi-va toshyokan-ni ikimiasu/iku — Mən kitabxanaya gedirəm/gedəcəm.

2) **私が今日は図書館に行きます／行く。** watashi-qa kiou-va toshokan-ni ikimasu/iku — Mən bugün kitabxanaya gedirəm.

3) **私が明日は図書館に行きます／行く。** watashi-qa ashita-va toshokan-ni ikimasu/iku — Mən sabah kitabxanaya gedəcəm.

Göründüyü kimi birinci cümlədə zaman zərfi olmadığından cümlə iki cür tərcümə oluna bilər. İkinci cümlədə indiki zamanın və üçüncü cümlələrdə isə gələcək zamanın şəkilçisi əlavə olunduğundan cümlənin zamanı və tərcüməsi konkretləşir.

Dünya şöhrətli yapon yazıçısı Ryonosuke Akutaqava-nın demək olar ki, bütün əsərlərində də bu problemlərə rast gəlinir. Bu əsərələrin yüz il əvvələ aid olması və əksərən məişət danışığına aid olması cümlənin hansı zamana aid olduğunu anlamağı daha da çətinləşdirir. Məsələn:

「—**牛商人は、伊留満が、自分をからかつてみるとでも思ったのであらう。**彼は、日にやけた顔に、微笑を浮べながら、わざと大仰に、小首を傾けた。—**何でございますかな。どうも、殺急には、わかり兼ねますが。**—なに今日でなくつても、いいのです。三日の間に、よく考へてお出でなさい。誰かに聞いて来ても、かまひません。**あたつたら、これをみんなあげます。**」

"-İnək taciri fikirləşdi ki, İrumitsu bir dəfə özünə baxacaq. O, qaralmış üzündəki təbəssümlə qəsdən boynunu əydi. -Bu nədir? Belə çıxır ki, sən vəziyyətin nə qədər fövqəladə olduğunu başa düşmürsən. -Bu gün olmasa fərq etməz. Xahiş edirəm üç gün ərzində diqqətlə düşünün. Kimdən soruşsan, inciməz. Olsa, bunu hamıya verəcəm."

Yuxarıda qeyd oluna R.Akutaqavanın 「**たばこの悪魔**」(Tabako-no Akuma) - Tütün şeytanı adlı əsərindən bir hissədə, qalın hərflərlə qeyd olunmuş cümlələri ayrı-ayrılıqda oxuduqda hansı zamana aid olduğunu anlamaq demək olar ki, qeyri-mümkündür. Həm bu cümlələrin zamanını, həm də anlamını anlamaq üçün bütün abzası oxumaq lazımdır.

Görkəmli yapon dilçiləri Yasuhiro Şirai və Atsuko Kurono-nun "Yapon dilində Zaman Aspekti İşarələməsinin İkinci Dil kimi Alınması" adlı irihəcmli məqalələ-rində qeyd edirlər ki, tədqiqatçılar ikinci dilin (xarici dil) mənimsənilməsində zaman aspekti morfologiyasının inkişaf ardıcıllığının universal bir modelə (səh. 7)(Aspekt Hipotezi; məsələn, Robison, 1995) uyğun olduğunu iddia etdilər. Belə bir tendensiya tipoloji cəhətdən oxşar dillərin (İngilis, Fransız və İspan) əldə edilməsinə uyğun olsa da, universal iddia qeyri-hind-Avropa dillərinə qarşı sınaqdan keçirilməsini tələb edir. Bu araşdırma Yapon dilindən istifadə edərək Aspekt Hipoteziyasını sınaqdan keçirdi. 1-ci

təcrübə göstərdi ki, şifahi təcrübə məlumatlarında yapon dilini öyrənən 3 şagirdi ana dilində danışanlara nisbətən bacarıq felləri və keçmiş zaman bildirən (-ta/～た) və fəaliyyət felləri və davamedici zaman sonluğu (-te -i /～て ～い) arasında daha güclü əlaqə müşahidə edildi. 2-ci təcrübə göstərdi ki, zaman aspekt formalarının məqbul mühakimə testində, yapon dili öyrənən 17 şagirdi fəaliyyət felləri ilə müqayisədə nailiyyət felləri ilə davamedici zaman sonluğu (-te -i /～て～い) məqbulluğunu düzgün mühakimə etməkdə daha çox çətinlik çəkdilər. Zaman probleminin aktual bir problem olmasına müəllifi Setsuko Arita olan və 2004-cü ildə Kyoto Universitetinə təqdim edilmiş "Yapon şərti budaq cümlə və zaman moderasiyası" adlı kitabda da yer alır. Kitab barədə Naoko Maeda eyniadlı məqalə yayınlayaraq öz fikirlərini də əlavə etmişdir.

Bütün bunların əsaslanaraq əminliklə deyə bilərik ki, bu problem demək olar ki, hər dövrdə - xüsusilə bugünkü gündə yapon dilini öyrənməkdə xüsusilə əcnəbilərə çətinlik yaradır.

MUNDƏRİCAT

Şahin Yusifli
FARS DİLLİ KLASSİK POEZİYADA İŞLƏNƏN OYUN ADLARI İLƏ BAĞLI TƏDQİQATLAR 5

Eldost İbrahimov
URDU DİLİNDƏ ŞƏXS ANLAYIŞI İFADƏ EDƏN FARS MƏNŞƏLİ SÖZLƏRİN TEMATİK TƏSNİFATI 7

Gülər Qasımova
İBRİ DİLİNDƏ REDUPLİKASİYA NƏTİCƏSİNDƏ YARANAN DÖRDSAMİTLİ FEİLLƏRİN ƏSAS XÜSUSİYYƏTLƏRİ 9

İqbal Sadıqlı
FARS DİLİNDƏ HECA TİPLƏRİ 11

Valeh Salmanov
SƏDİ ŞİRAZİNİN HƏYAT VƏ YARADICILIĞI 14

Gövhərxanım Nağıyeva
QƏTRAN TƏBRİZİNİN "DİVAN"INDA HƏRBİ TERMİNLƏR 16

Fərgüzadova Adilə
ŞƏHRİYARIN YARADICILIĞINA BAXIŞ 18

Məlikova Şəkər
AZƏRBAYCAN DİLİNDƏ VƏ ƏRƏB ƏDƏBİ DİLİNDƏ FEİLİN KEÇMİŞ ZAMANININ QARŞILAŞDIRILMASI 20

İsmayılova Ləman
TABELİ MÜRƏKKƏB CÜMLƏNİN KOMPONENTLƏRİNİ BAĞLAYAN VASİTƏLƏR 22

Ayxan Qarayev
MÜASİR VƏ KLASSİK İBRİ DİLİ SİNTAKSİSİNİN FƏRQLİ CƏHƏTLƏRİ 25

Kazımova Nabat
MÜASİR TÜRK ƏDƏBİ DİLİNDƏ SADƏ CÜMLƏ ANLAYIŞI 32

Elnarə Həsənova
İBRİ DİLİNDƏ FELİ SİFƏT MODELLƏRİNİN MORFOLOJİ VƏ SİNTAKTİK XÜSUSİYYƏTLƏRİ 34

Məmmədli Banuçiçək
FARS DİLİNDƏ FEİLİN İLTİZAM VƏ ƏMR ŞƏKİLLƏRİ ARASINDA ÜMUMİ VƏ FƏRQLİ CƏHƏTLƏR 36

Ağaliyev Anar
MÜASİR FARS DİLİNDƏ İSMİN DİGƏR NİTQ HİSSƏLƏRİ İLƏ BİRLƏŞƏRƏK ƏMƏLƏ GƏTİRDİYİ MÜRƏKKƏB İSİMLƏR 38

Öner Zeynəb
HƏRBİ TERMİNOLOGİYANIN YARANMA TARİXİ VƏ ZƏRURİLİYİ 40

Quliyeva Həmidə
RZAQULU XAN HİDAYƏTİN HƏYATI VƏ BƏDİİ İRSİ 42

Lamiyə Sadiqova
YAPON DİLİNDƏ FEİLİN ŞƏRT ŞƏKLİ 45

Eyvazova İrina
ƏRƏB ƏLYAZMALARI VƏ ƏRƏB ƏLYAZMA ƏNƏNƏSİ 47

Rzayeva Leyla
FRAZEOLOJİ SİSTEM VƏ ONUN XÜSUSİYYƏTLƏRİ 49

Hüseynli Aydan
AHARON APPELFELDİN "KATERİNA" ROMANI 51

Babanlı Əli
ƏBUL-BƏRAKƏT ƏBDUR-RAHMƏN ƏL-ƏNBARİNİN
"ƏL-İNSAF Fİ MƏSƏİLİL-XİLƏF BEYNƏN-NƏHVİYYİN:
ƏL-BASRİYYİN VAL-KUFİYYİN" ƏSƏRİ 55

Jalə Səmədova
İBRANİ DİLİNDƏ TİBBİ SƏNƏT-PEŞƏ ADLARI 57

Nazim Mənsimov
FARS DİLİNDƏ VASİTƏSİZ TAMAMLIĞIN İŞLƏNMƏSİNDƏ MÜRƏKKƏB FEİLLƏRİN ROLU 59

Şahanə Vəliyeva
R.T.ƏRDOĞANIN SİYASİ SFERADA NİTQ ÜSLUBU 61

Aytən Abbasova
FARS DİLİNDƏ İZAFƏT TİPLİ SÖZ BİRLƏŞMƏLƏRİ 63

Aysel Zülfüqarlı
FARS DILINDƏ FELI IDARƏ MƏSƏLƏSI 65

Giləxanım Baxşəliyeva
ƏBDÜLHƏQ HAMİD TARXANIN HƏYATI VƏ POEZİYASI 67

Abbaslı Elmir
YAPON DİLİNDƏ ZAMAN PROBLEMİ 69

Şərqşünaslıq fakültəsi

Ümummilli lider Heydər Əliyevin
anadan olmasının 99-cu ildönümünə həsr olunmuş
gənc alim və magistrantların

“ŞƏRQ FİLOLOGİYASI MƏSƏLƏLƏRİ”
mövzusunda

Respublika elmi konfransının

MATERİALLARI

Bakı, 24 may 2022-ci il

Çapa imzalanıb: 18.05.2022
Format 70x100 1/16. Ofset kağızı.
Həcmi 4,75 ç.v.. Sayı 50

Bakı Dövlət Universitetinin mətbəəsində çap olunmuşdur.
AZ 1148, Bakı şəh., ak. Z. Xəlilov küç. 33
Tel: (+99412) 538 87 39 / 538 50 16
e-mail: bdumetbee@gmail.com
www.bsu.edu.az